RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 98 (10118) 6 iyun 2026-cı il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Prezident İlham Əliyev Avropa çempionu olan minifutbol üzrə Azərbaycan millisini təbrik edib






**Prezident İlham Əliyev minifutbol üzrə Avropa çempionatının qalibi olan Azərbaycan milli komandasını təbrik edib.**

AZƏRTAC xəbər verir ki, bununla bağlı dövlətimizin başçısının sosial şəbəkə hesablarında paylaşım edilib.

"2022-ci ildə Avropa çempionu, 2025-ci ildə dünya çempionu olmuş Azərbaycan minifutbol millisi ölkəmizin idman tarixinə daha bir parlaq səhifə yazaraq növbəti dəfə Avropa çempionu oldu. Bu qələbənin komanda idman növündə qazanılması ikiqat sevindiricidir.

Komandamızı bu möhtəşəm qələbə münasibətilə səmimi-qəlbdən təbrik edir, millimizə yeni-yeni uğurlar arzulayıram", - deyə paylaşımda bildirilib.

## Birinci vitse-prezident Mehriban Əliyeva minifutbol üzrə Azərbaycan millisini təbrik edib

**İyunun 5-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva minifutbol üzrə Avropa çempionatının qalibi olan Azərbaycan milli komandasını təbrik edib.**



AZƏRTAC xəbər verir ki, bununla bağlı Birinci vitse-prezidentin rəsmi "İnstagram" hesabında paylaşım edilib.

"Avropa çempionatının qalibi olan Azərbaycan minifutbol yığmasını təbrik edir, milli yığmamızın bütün üzvlərinə möhkəm cansağlığı, güc, enerji və yeni-yeni qələbələr və nailiyyətlər arzulayıram!", - deyə paylaşımda bildirilib.

# Azərbaycanın enerji və inkişaf modeli



## Prezident İlham Əliyevin milli maraqlara əsaslanan strategiyası dünyada böyük maraq yaradıb

Uğurlu enerji siyasəti həyata keçirən Azərbaycanın inkişaf yolunu "Bakı Enerji Həftəsi"nin açılış mərasimində diqqətə çatdıran Prezident İlham Əliyev söylədi ki, 30 il ərzində işğal altında qalmış torpaqlarımızı azad edən güclü ordu qurduq və cəmi 44 gün ərzində Ermənistanı tamamilə məğlub edərək kapitulyasiya aktını imzalamağa məcbur etdik: "Əlbəttə ki, müharibədə qələbə dedikdə, sadəcə, pul və hətta silahlar nəzərdə tutulmur. Söhbət döyüş ruhundan gedir. Lakin gəlin etiraf edək, ordunu qurmaq üçün pulumuz olmasaydı, yəqin ki, bu gün hələ də torpaqlarımız işğal altında olardı. Beləliklə, Azərbaycanın inkişafı, - istər sosial, iqtisadi, hərbi, istərsə də xarici siyasət olsun, - bütün bunlar onu nümayiş etdirir ki, təbii sərvətlərdən düzgün istifadə olunan zaman onlar bir çox üstünlüklərə yol aça bilər".

Xüsusilə son illərdə qlobal geosiyasi böhranlar fonunda Avropanın alternativ və etibarlı qaz mənbələrinə ehtiyacı pik həddə çatıb. Ölkəmiz bu kritik məqamda qitənin enerji təhlükəsizliyinin sütununa çevrilib. Azərbaycan qazını idxal edən ölkələrin sayının qısa müddətdə 12-dən 16-ya yüksəlməsi və onların 10-nun Avropa İttifaqı üzvü olması, Bakının vəd etdiyi strateji tərəfdaşlığının Avropa üçün əvəzolunmaz olduğunu nümayiş etdirir.

Onu da vurğulayaq ki, dövlətimizin rəhbərinin "Bu gün Avropa enerji bazarının "Cənub qaz dəhlizi" olmadan necə olacağını təsəvvür etmək çətindir" fikri reallığa əsaslanan ən obyektiv qənaətdir.

4

## Parlamentin növbədənkənar sessiyası öz işinə başladı

Çıxışlarda Azərbaycanın bu həftə regionun ən böyük enerji platformalarından biri olan "Bakı Enerji Həftəsi"nə evsahibliyi etdiyi vurğulanıb. Qeyd olunub ki, tədbirin açılış mərasimində Prezident İlham Əliyev enerji təhlükəsizliyi, iqtisadi əməkdaşlıq və rəqəmsal transformasiya ilə bağlı mühüm strateji mesajlar səsləndirib. Bildirilib ki, "Bakı



Enerji Həftəsi" çərçivəsində ilk dəfə təşkil edilən Azərbaycan-ABŞ iqtisadi dialoqunun nəticəsi olaraq imzalanan müqavilələr iki ölkə arasında ənənəvi enerji tərəfdaşlığının yüksək texnologiyalar, rəqəmsal iqtisadiyyat və süni intellekt sahələrini də əhatə edən strateji əməkdaşlıq formatına çevrildiyini nümayiş etdirir.

3

## "Yaşıl enerji"nin inkişaf etdirilməsi Azərbaycanın dövlət siyasətinin prioritetləri sırasındadır

### 2026-cı il Ümumdünya Ətraf Mühit Günü ilə bağlı müraciət

Hörmətli iştirakçılar!

Hamınızı Ümumdünya Ətraf Mühit Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycanın regionda ilk dəfə olaraq bu qlobal tədbirə evsahibliyi etməsi mühüm hadisədir. Bu, Azərbaycanın beynəlxalq səviyyədə ətraf mühitin mühafizəsi ilə bağlı maarifləndirmənin artırılması sahəsində fəal roluna və planetimizi qorumaq naminə kollektiv səylərə verdiyi töhfəsinə yüksək qiymətin göstəricisidir.

XXI əsrdə ətraf mühitin mühafizəsi beynəlxalq ictimaiyyətin ortaq məsuliyyətidir. İqlim dəyişmələrinin ildən-ilə artan dağıdıcı fəsadları, təbii sərvətlərin, o cümlədən su ehtiyatlarının sürətlə tükənməsi, biomüxtəlifliyin azalması, torpaqların deqradasiyası, çirklənmə və kəskin istilər bir-biri ilə əlaqəli və təxirəsalınmaz tədbirlər tələb edən proseslərdir.

Planetimizin üzləşdiyi ekoloji problemlər təkcə ekosistemlərə deyil, həm də dayanıqlı inkişafa, insan sağlamlığına, həyat şəraitinə və ölkələrin tərəqqisinə ciddi təsir göstərir. Gələcək nəsillərin rifahı bu gün bizim bu çağırışların öhdəsindən gəlmək bacarığımızdan asılıdır.

Biz Azərbaycanda bu öhdəliyə tam məsuliyyətlə yanaşır və ətraf mühitin mühafizəsi sahəsində genişmiqyaslı layihələr həyata keçiririk.

Bu gün ölkə ərazisində həm daşqınların, həm də quraqlığın artdığını müşahidə edirik. Su qıtlığı təkcə Azərbaycan üçün deyil, bütün region üçün ciddi narahatlıq doğuran məsələdir. Xəzər dənizinin səviyyəsinin son iki yüzillik ərzində qeydə alınan tarixi minimum səviyyəyə yaxınlaşması problemin ciddiliyinin bariz göstəricisidir.

Təmiz ətraf mühit və "yaşıl artım" hədəfi 2030-cu ilə qədər Azərbaycanın sosial-iqtisadi inkişafına dair beş əsas milli prioritetdən biri kimi müəyyən edilmişdir. Bu prioritetə uyğun olaraq, yaşıllıqların və meşə sahələrinin artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi və tullantıların idarə olunması məqsədilə müasir infrastrukturun yaradılması üçün məqsədyönlü səylər göstərilir.

Biomüxtəlifliyin qorunması məqsədilə Azərbaycanda xüsusi mühafizə olunan təbiət əraziləri genişləndirilir. Bir çox relikt, həmçinin regional və yerli endemik flora növləri ilə zəngin, nadir meşə massivi olan Hirkan meşələri Azərbaycanın UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş ilk təbiət ərazisidir.

Əfsuslar olsun ki, təxminən 30 il ərzində işğal altında olan ərazilərimiz ekosidə və urbisidə məruz qalmış və bu da həmin ərazilərdə ekoloji tarazlığın pozulmasına səbəb olmuşdu. Bundan əlavə, işğal olunmuş ərazilərdə basdırılmış çoxsaylı minalar bu gün də ciddi ekoloji ziyan vurmaqda davam edir.

Ərazilərimizin işğaldan azad edilməsindən dərhal sonra Azərbaycan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında genişmiqyaslı yenidənqurma və bərpa işlərinə başlamışdı. "Ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarına uyğun olaraq infrastrukturun yenidən qurulması, "yaşıl enerji" layihələrinin həyata keçirilməsi və müasir texnologiyaların tətbiqi yerli ekosistemin bərpasına töhfə verəcək.

Eyni zamanda "yaşıl enerji" zonaları elan edilmiş Qarabağ və Şərqi Zəngəzur günəş, külək və su elektrik resursları da daxil olmaqla geniş bərpaolunan enerji potensialına malikdir. "Yaşıl enerji"nin inkişaf etdirilməsi Azərbaycanın dövlət siyasətinin prioritetləri sırasındadır.

Hörmətli iştirakçılar!

"Təbiətdən ilhamlanaraq. İqlim naminə. Gələcəyimiz naminə" qlobal çağırış adı altında keçirilən builki Ümumdünya Ətraf Mühit Günü iqlim fəaliyyəti və təbiət arasında qarşılıqlı əlaqənin gücləndirilməsinə təcili ehtiyac olduğunu vurğulayır.

Bu gün iqlim böhranının sərhəd tanımayan fəsadları beynəlxalq əməkdaşlığın gücləndirilməsini zəruri edir. Azərbaycan COP29-a sədrliyi dövründə iqlim diplomatiyası və çoxtərəfli dialoq üçün mühüm platforma təmin etmiş, inkişaf etməkdə olan və inkişaf etmiş ölkələr arasında körpü qurmaqla qlobal həmrəyliyi daha da gücləndirmişdi. Azərbaycanın COP mirasını təşkil edən "Bakı sıçrayışı" tarixi qərarlarla yadda qaldı.

COP29-dan bu günədək iqlim liderliyimiz davam etmiş və Azərbaycan Ümumdünya Şəhərsalma Forumunun tarixində ən genişmiqyaslı, sayca 13-cü sessiyasına evsahibliyi etmişdi. Tədbir "Bakı Fəaliyyətə Çağırış" sənədinin qəbul edilməsi ilə nəticələnmişdir. Sənəddə beynəlxalq əməkdaşlığın gücləndirilməsinə və hər kəs üçün dayanıqlı, əlçatan və iqlimə davamlı mənzil təminatı üçün konkret addımların atılmasına zərurət olduğu vurğulanır.

Azərbaycan gələcək nəsillərə yaşıl və dayanıqlı bir dünya miras qoymaq məqsədilə çoxtərəfli əməkdaşlığı bundan sonra da təşviq edərək qlobal ekoloji gündəliyin irəlilədilməsində fəal rol oynamağa davam edəcək.

Tədbirin işinə uğurlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 iyun 2026-cı il*

## Artıq müvəqqəti sığınacaqların deyil, firavan gələcəyin xronikası yazılır

Artıq əsas məqsəd vətəndaşların müvəqqəti məskunlaşma şəraitində deyil, öz doğma torpaqlarında dayanıqlı və firavan həyat qurmalarını təmin etməkdir. İşğaldan azad edilmiş ərazilərdə yaradılan müasir yaşayış məntəqələri, geniş sosial infrastruktur və məşğulluq imkanları bu məqsədin uğurla həyata keçirildiyini göstərir. Eyni zamanda keçid dövründə sosial müdafiə tədbirlərinin davam etdirilməsi dövlətin vətəndaş amilinə verdiyi yüksək dəyərin təzahürüdür. Bu yeni strateji mərhələdə doğma yurdlarına köçən vətəndaşların müasir standartlara cavab verən daimi yaşayış sahələri ilə tam təmin olunması dövlət siyasətinin mərkəzində dayanır.

6



## Ermənistanın 7 iyun sınağı

### Parlament seçkilərinin nəticələri ölkənin taleyini və erməni xalqının aqibətini müəyyənləşdirəcək

Parlament seçkilərində mübarizə əsasən üç fərqli siyasi qüvvə arasında gedir. Nikol Paşinyanın rəhbərlik etdiyi "Mülki Müqavilə" Partiyası seçkiyə Azərbaycanla sülh prosesini yekunlaşdırmaq, qərbyönlü kursu davam etdirmək, Rusiya ilə məsafə saxlamaq vədləri ilə gedir. İkinci fiqur Samvel Karapetyan və onun "Güclü Ermənistan" Alyansıdır. Karapetyanın rəhbərlik etdiyi bu qüvvə Rusiya ilə münasibətləri bərpa etməyi, Paşinyanın siyasi xəttini tamamilə aradan qaldırmağı hədəfləyir.

8



# Azərbaycan Minifutbol Federasiyasına maliyyə dəstəyi göstərilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan milli yığma komandasının 2026-cı il minifutbol üzrə Avropa çempionu olması ilə əlaqədar Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Minifutbol Federasiyasına 1,0 (bir) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 iyun 2026-cı il*

# Su təsərrüfatı və meliorasiya işçilərinin təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Su təsərrüfatı və meliorasiya sahəsində səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**2-ci dərəcəli "Əmək" ordeni ilə**

Quliyev Zakir Bəybala oğlu
Məmmədov Etibar Kərim oğlu

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Bəşirov Yaşar Miskin oğlu
Əliyev Siyah Əli oğlu
Fərzəliyev Mehrəli Məmməd oğlu
Qafarlı Adil Rzaquli oğlu
Nəsirov Əlizadə Vahid oğlu
Seyidov Mirkamil Miriş oğlu

**"Tərəqqi" medalı ilə**

Allahverdiyev Hüseyn Məmməd oğlu
Aşumova Nərminə Nazim qızı
Əhədi Yusif Məmmədağa oğlu
Əliyev Səxavət Qədimalı oğlu
Əliyev Taleh Həbulla oğlu
Həmidov Akif Dəyyam oğlu
Xanverdiyev İntiqam Yunus oğlu
Qasımov Zahid Süleyman oğlu
Qoçəliyev Vüsal Aslan oğlu
Paşayev Mehdi Paşa oğlu
Səfərov Emil Qanbay oğlu
Səmədov Vasif Abid oğlu
Vəliyev Yaşar Həsən oğlu

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Rüstəmov Oktay Musa oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 iyun 2026-cı il*

# Baş prokuror Masallı rayonunda vətəndaşları qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.**

Baş Prokurorluğun Mətbuat xidmətindən verilən məlumata görə, mayın 15-də baş prokuror Kamran Əliyev Masallı Rayon Prokurorluğunun inzibati binasında Masallı, Lənkəran, Astara, Lerik, Yardımlı və Cəlilabad rayonundan olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rayonun mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 51 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

# Misirdəki dostluq cəmiyyəti xalqlar arasında humanitar və mədəni əlaqələri daha da möhkəmləndirməyə çalışır

**"Azərbaycan ilə Misir arasında siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlıq son illərdə əhəmiyyətli dərəcədə genişlənib və iki ölkə arasındakı münasibətlər yeni inkişaf mərhələsinə qədəm qoyub".**



الأخبار
FRIDAY
5 JUNE 2026
جريدة الجمعة

رئيس الجالية الأذربيجانية: مصر منحتنى الانتماء والمحبة وليس العلم فقط

الأزهر نموذج للحوار والتعايش ودوره اليوم أهم من أى وقت مضى

AZƏRTAC xəbər verir ki, bu fikirlər Misir-Azərbaycan Dostluq Cəmiyyətinin İdarə Heyətinin sədri, tədqiqatçı-alim Seymur Nəsirovun Misirin nüfuzlu "əl-Əxbar" qəzetinə müsahibəsində yer alır. Yazıda Misir-Azərbaycan əlaqələrinin tarixi, Dostluq Cəmiyyətinin və Misirdə Azərbaycan diasporunun fəaliyyəti barədə danışılır.

Müsahibədə vurğulanır ki, Azərbaycan və Misir arasında qarşılıqlı hörmətə, dostluğa və ortaq maraqlara əsaslanan münasibətlər davamlı şəkildə inkişaf edir. Qeyd olunur ki, iki ölkə arasında enerji, ticarət, investisiya, turizm, təhsil və mədəniyyət sahələrində əməkdaşlıq üçün geniş imkanlar mövcuddur.

Misir-Azərbaycan Dostluq Cəmiyyətinin rəhbəri qeyd edib ki, qloballaşan dünyada xalqlar arasında dialoq və əməkdaşlığın gücləndirilməsi xüsusi əhəmiyyət daşıyır. Onun sözlərinə görə, Azərbaycan bu istiqamətdə həyata keçirdiyi təşəbbüslərlə beynəlxalq arenada mühüm rol oynayır.

Rəhbərlik etdiyi Dostluq Cəmiyyətinin fəaliyyətinə də toxunan Seymur Nəsirov diqqətə çatdırıb ki, əsas hədəf Misir və Azərbaycan xalqları arasında humanitar və mədəni əlaqələri daha da möhkəmləndirməkdir. Hazırda cəmiyyət nəzdində fəaliyyət göstərən müxtəlif kurslarda dünyanın 61 ölkəsindən 670-dən çox tələbə ödənişsiz əsaslarla təhsil alır. Tədris proqramına Azərbaycan dili ilə yanaşı, xəttatlıq, ərəb dili və ədəbiyyatı, "Qurani-Kərim"in qiraəti, xalçaçılıq, muğam sənəti və digər istiqamətlər daxildir.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə



Hörmətli cənab Prezident!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə zati-alinizə Portuqaliya xalqı adından və şəxsən öz adımdan səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram. Sizə şəxsi rifah arzulayır, Azərbaycan xalqına tərəqqi və firavanlıqla bağlı xoş diləklərimi bildirirəm.

Ölkənizin bütün vətəndaşları və dostları üçün çox əhəmiyyətli olan bu gündə Portuqaliyanın dövlətlərimizi və xalqlarımızı birləşdirən ikitərəfli dostluq və əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsinə sadiqliyini bir daha vurğulayıram. Portuqaliyanın Bakıda və Azərbaycanın Lissabonda səfirliyinin açılmasının bu məqsədə mühüm töhfə verəcəyinə ümidvar olduğumu qeyd edirəm.

Cənab Prezident, səmimi təbriklərimi bir daha təkrarlayaraq, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Antoniu Joze SEQURU,***
***Portuqaliya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

İcazə verin, Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə vətəndaşlarımız adından və öz adımdan Sizə səmimi təbriklərimi, ölkənizə və xalqınıza tərəqqi, xoşbəxtlik və rifah arzularımı çatdırım.

Əmin olduğumu bildirirəm ki, qarşıdakı dövrdə siyasi və iqtisadi əlaqələrimizi daha da möhkəmləndirməyə, həmçinin təhsil, mədəniyyət, turizm və enerji sahələrində əməkdaşlığı genişləndirməyə yönəlmiş birgə təşəbbüslər vasitəsilə ikitərəfli münasibətləri inkişaf etdirməyə davam edəcəyik.

Dünyanın üzləşdiyi geosiyasi çətinliklər dövründə beynəlxalq təşkilatlarda iştirakımızla qlobal sülhə və sabitliyə birgə töhfə verəcəyimizə qəti şəkildə inanıram.

Zati-aliləri, bu inamla və Sizin ölkəmizə səfər etməyiniz arzusu ilə ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Qordana Silyanovska-DAVKOVA,***
***Şimali Makedoniya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Cənab Prezident!

Ölkənizin Müstəqillik Günü münasibətilə Sizə və dost Azərbaycan xalqına Monqolustan xalqı adından səmimi təbriklərimi çatdırıram.

Məmnuniyyətlə qeyd edirəm ki, Monqolustan ilə Azərbaycan arasında qarşılıqlı hörmətə, ortaq tarixi, mədəni dəyərlərə əsaslanan ənənəvi dostluq münasibətləri və əməkdaşlıq birgə səylərimizlə genişlənməkdə davam edir.

Zati-aliləri, ölkələrimiz arasındakı münasibətləri əhəmiyyətli iqtisadi əməkdaşlıqla daha da dərinləşdirmək, uzunmüddətli inkişaf siyasətimizdə müəyyən edilmiş prioritet sahələr çərçivəsində əlaqələri genişləndirmək, həmçinin hərtərəfli davamlı inkişafın təşviqində beynəlxalq birliyin səylərinə birgə töhfələr vermək üçün Sizinlə hər zaman işləməyə hazıram.

Cənab Prezident, Sizə və sevimli ailənizə möhkəm cansağlığı, rifah, dost Azərbaycan xalqına isə firavanlıq arzulayıram.

*Hörmətlə,*

***Uxnaaqiyn XURELSUX,***
***Monqolustanın Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Dost ölkənizin Müstəqillik Gününün növbəti ildönümü münasibətilə Sizə səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram. Fürsətdən istifadə edərək, dost ölkələrimiz və xalqlarımız arasında mövcud olan möhkəm əlaqələrin davamlı şəkildə inkişaf etməsini arzulayıram.

Zati-aliləri, Sizə uzun ömür, cansağlığı, Azərbaycan Respublikasına və onun dost xalqına davamlı tərəqqi və rifah arzularımı bildirirəm.

*Dərin hörmətlə,*

***Şeyx Məşəl əl-Əhməd əl-Cabir əl-SABAH,***
***Küveyt Dövlətinin Əmiri***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə səmimi təbriklərimi, xalqınıza davamlı tərəqqi və firavanlıq arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram.

Tam əminəm ki, Azərbaycan ilə Livan arasında mövcud olan dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın rifahı naminə gələcəkdə daha da möhkəmlənəcək və inkişaf edəcək.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Nəvaf SALAM,***
***Livan Respublikasının Baş naziri***

# Mixail Qaluzin Cənubi Qafqazda nəqliyyat əlaqələrinin inkişafı üçün sərhədlərin açılmasının zəruriliyini bəyan edib



**"Rusiya Cənubi Qafqazda əməkdaşlıq, sabitlik və iqtisadi inkişaf məkanı yaratmaq üçün "3+3" regional məşvərət platformasına vacib mexanizm kimi baxır".**

AZƏRTAC xəbər verir ki, bu barədə Rusiya xarici işlər nazirinin müavini Mixail Qaluzin Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumu (SPIEF- 2026) çərçivəsində keçirilən "3+3" platforması: Ümumi çağırışlar və strateji tərəfdaşlıq" adlı sessiyada çıxışı zamanı bildirib.

Rusiya xarici işlər nazirinin müavininin sözlərinə görə, Moskva Cənubi Qafqazın taleyinə və bu regionda gedən geosiyasi və iqtisadi proseslərə biganə qala bilməz.

Mixail Qaluzin qeyd edib: "İnanırıq ki, "3+3" platforması ideyası ölkələrimizin fikir ayrılıqlarının aradan qaldırılması və birləşdirici gündəm vasitəsilə Cənubi Qafqazda sabitlik və rifahın təmin edilməsi zərurətini ortaq şəkildə anlamalarına əsaslanır".

O bu formatın yaradılması təşəbbüsünün region daxilində meydana çıxdığını vurğulayıb.

Rusiya diplomatı qeyd edib: "Belə bir formatın yaradılması təşəbbüsü Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən müdrikliklə və uzaqgörənliklə irəli sürülüb".

Qaluzin xatırladıb ki, "3+3" formatı çərçivəsində ilk görüş 2021-ci ilin dekabrında Moskvada baş tutub, ardınca isə xarici işlər nazirlərinin Tehran və İstanbulda görüşləri keçirilib. Bu görüşlərdə ticarət, nəqliyyat, energetika, telekommunikasiya, həmçinin mədəni və humanitar sahələrdə əməkdaşlıq məsələləri müzakirə olunub.

Nazir müavininin sözlərinə görə, xarici işlər nazirlikləri rəhbərlərinin növbəti görüşü Bakıda və ya İrəvanda keçirilə bilər. Hazırda Azərbaycan və Ermənistan tərəfləri arasında məsləhətləşmələr davam edir.

M.Qaluzin Azərbaycanın təklif etdiyi və format iştirakçıları tərəfindən dəstəklənən regional məsuliyyət prinsipinə xüsusi diqqət yetirib.

"Bu yanaşmanın mahiyyəti ondan ibarətdir ki, Cənubi Qafqaz ölkələri özləri və onların əsas qonşuları qarşılıqlı maraq doğuran məsələlərin dairəsinin, həmin məqsədlərin həyata keçirilməsinin yollarının və vasitələrinin müəyyən edilməsində aparıcı rola malikdirlər", - deyə o bildirib.

Rusiya Federasiyası xarici işlər nazirinin müavini nəqliyyat, enerji və kommunikasiya əlaqələrinin inkişaf etdirilməsinin Cənubi Qafqazın iqtisadi potensialını açacağını, regionu qlobal nəqliyyat və logistika qovşağına çevirəcəyini vurğulayıb.

O, regiondan keçən "Şimal-Cənub" və "Şərq-Qərb" beynəlxalq nəqliyyat dəhlizlərinin, həmçinin enerji və rəqəmsal infrastruktur layihələrinin əhəmiyyətini qeyd edib.

"Cənubi Qafqaz Rusiya ilə Cənubi Asiya dövlətləri, Çin, Mərkəzi Asiya və Avropa arasında strateji bir əlaqə məkanına çevrilir", - deyə Qaluzin bildirib.

Onun sözlərinə görə, Rusiya regionun nəqliyyat və iqtisadi potensialının tamamilə açılmasını dəstəkləyir, qapalı formatlar yaratmadan inklüziv əməkdaşlığı müdafiə edir: "Bizim fikrimizcə, Cənubi Qafqazın tranzit potensialının inkişafında regiondakı bütün ölkələrin iştirakını təmin etmək vacibdir. Məsələn, Ermənistanın Azərbaycan və Türkiyə ilə, habelə Gürcüstanın Abxaziya və Cənubi Osetiya ilə sərhədlərini açmadan, tam nəqliyyat əlaqəsindən danışmaq mümkün deyil".

Rusiya xarici işlər nazirinin müavini həmçinin gələcəkdə "3+3" platformasının institusionallaşdırılması, o cümlədən iştirakçı ölkələrdən birində işçi ofisin və ya qarşılıqlı əlaqə üçün şəbəkə mexanizminin yaradılması məsələlərini nəzərdən keçirməyi təklif edib.

# Azərbaycanın enerji diplomatiyası coğrafi məhdudiyyətləri strateji üstünlüyə çevirən uğurlu modeldir

**"Müstəqillik dövründə Azərbaycanın əldə etdiyi ən mühüm nailiyyətlərdən biri enerji resurslarının dünya bazarlarına çıxarılması istiqamətində formalaşdırdığı uğurlu diplomatiya modelidir. Xəzər dənizinin sahilində yerləşən, lakin dünya okeanlarına birbaşa çıxışı olmayan ölkə kimi Azərbaycan enerji ehtiyatlarının ixracı məsələsində mürəkkəb geosiyasi və geoiqtisadi çağırışlarla üzləşsə də, uzaqgörən siyasət nəticəsində bu məhdudiyyətləri strateji üstünlüyə çevirməyə nail olub".**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında türkiyəli siyasi ekspert Cafer Dal bildirib.

Onun sözlərinə görə, Azərbaycanın enerji strategiyasının uğurunun əsasını Prezident İlham Əliyevin həyata keçirdiyi balanslaşdırılmış xarici siyasət və qarşılıqlı maraqlara əsaslanan regional əməkdaşlıq təşkil edir.

"Enerji ehtiyatlarına malik olmaq hər bir ölkə üçün üstünlük sayılsa da, həmin ehtiyatların dünya bazarlarına təhlükəsiz və davamlı şəkildə çatdırılması daha mürəkkəb prosesdir. Azərbaycanın dünya okeanlarına çıxışının olmaması enerji ixracı məsələsində əlavə diplomatik və siyasi səylər tələb edirdi. Rəsmi Bakı bu reallığı düzgün qiymətləndirərək qonşu dövlətlərlə etibarlı münasibətlər qurdu, regional əməkdaşlıq platformaları yaratdı və nəticədə enerji layihələrinin uğurlu icrasına nail oldu. Azərbaycanın təşəbbüsü və liderliyi ilə həyata keçirilən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, TANAP və TAP layihələri təkcə iqtisadi deyil, həm də siyasi baxımdan böyük əhəmiyyət daşıyır. Bu layihələr müxtəlif dövlətlərin maraqlarını bir platformada birləşdirərək regionda qarşılıqlı etimad və əməkdaşlığın möhkəmlənməsinə xidmət edib. Azərbaycanın enerji diplomatiyasının fərqləndirici cəhətlərindən biri layihələrin yalnız milli maraqlara deyil, tərəfdaş ölkələrin də iqtisadi və strateji maraqlarına cavab verməsidir. Azərbaycan enerji siyasətini heç vaxt rəqabət və qarşıdurma üzərində qurmayıb. Əksinə, ölkə əməkdaşlıq və qarşılıqlı fayda prinsiplərini ön plana çıxararaq region dövlətlərini ortaq məqsədlər ətrafında birləşdirə bilib. Bu yanaşma Azərbaycanın beynəlxalq nüfuzunu artırmaqla yanaşı, onu etibarlı tərəfdaş kimi tanıdıb", - deyə Cafer Dal qeyd edib.

Ekspertin fikrincə, xüsusilə "Cənub qaz dəhlizi" layihəsinin reallaşdırılması Azərbaycanın enerji diplomatiyasının ən mühüm uğurlarından biridir. Bu layihə nəticəsində Azərbaycan qazı Avropa bazarlarına çatdırılır və qitənin enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır.

Onun sözlərinə görə, Azərbaycanın son illərdə "yaşıl enerji" istiqamətində atdığı addımlar enerji siyasətinin yeni mərhələyə qədəm qoyduğunu göstərir. Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji" zonası elan edilməsi, Günəş və külək enerjisi layihələrinin həyata keçirilməsi, həmçinin "yaşıl enerji" ixracı ilə bağlı təşəbbüslər ölkənin gələcək enerji strategiyasının əsas istiqamətlərini müəyyənləşdirir: "Azərbaycan ənənəvi enerji resurslarının ixracı sahəsində qazandığı təcrübəni bərpaolunan enerji sektorunda da uğurla tətbiq edir. Bu gün ölkə həm karbohidrogen ehtiyatları, həm də "yaşıl enerji" potensialı hesabına regionun enerji mərkəzi statusunu daha da



gücləndirir. Azərbaycanın həyata keçirdiyi enerji diplomatiyası modeli bir çox ölkələr üçün uğurlu əməkdaşlıq nümunəsi kimi qiymətləndirilə bilər. Mürəkkəb geosiyasi şəraitdə milli maraqların qorunması, tərəfdaş ölkələrlə qarşılıqlı etimada əsaslanan münasibətlərin qurulması və çoxtərəfli əməkdaşlığın inkişaf etdirilməsi Azərbaycanın enerji siyasətinin əsas üstünlüklərindəndir. Məhz bu amillər ölkənin enerji sektorunda əldə etdiyi uğurların davamlılığını təmin edir və Azərbaycanın beynəlxalq enerji təhlükəsizliyində rolunu daha da artırır".

## Milli Məclisin iclasında

# Parlamentin növbədənkənar sessiyası öz işinə başladı

**İyunun 5-də Milli Məclisin 2026-cı ilin növbədənkənar sessiyasında ilk iclası keçirilib. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri Sahibə Qafarova növbədənkənar sessiyanı açıq elan etdikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.**




Milli Məclisin Sədri əvvəlcə iyunun 1-dən 3-dək Serbiya Respublikasına etdiyi işgüzar səfər barədə məlumat verib. Qeyd edib ki, səfərdə məqsəd Parlamentlərarası İttifaqın Qadın Parlamentarilərin Qlobal Konfransında iştirak etmək idi. Konfrans iyunun 2-də Serbiyanın paytaxtı Belqrad şəhərində keçirilib və "Paritetə doğru irəliləyiş: Gender stereotipləri və mənfi sosial normaların yaratdığı maneələrin aradan qaldırılması" mövzusuna həsr olunub.

Spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, konfransda etdiyi çıxışda Azərbaycanda qadınlar barəsində həyata keçirilən dövlət siyasətinə dair tədbir iştirakçılarına geniş məlumat verib. Həyatın bütün sahələrində qadınların təmsilçiliyinin artırılması istiqamətində görülən işlərdən danışıb.

O cümlədən Milli Məclisdə qadınların təmsil olunması və parlamentin fəaliyyətində qadın deputatların iştirakı ilə bağlı faktları konfrans iştirakçılarının nəzərinə çatdırıb.

Spiker konfransdakı çıxışında qadınların dəstəklənməsi mexanizmlərinin inkişafında və gender bərabərliyi prinsiplərinin möhkəmlənməsində Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncamların, milli fəaliyyət planlarının və dövlət proqramlarının rolunu da xüsusi qeyd edib.

Milli Məclisin Sədri konfransdakı çıxışında digər məsələlərlə yanaşı, onu da qeyd edib ki, real gender bərabərliyinin əldə olunması təkcə qanunvericiliyin təkmilləşdirilməsindən asılı deyil. İctimai şüurda dərin və köklü dəyişikliklər baş verməlidir. Hüquq bərabərliyinə nail olmaq yolunda ən böyük problem isə qadınların imkanlarını məhdudlaşdıran gender stereotipləri və neqativ sosial normalardır.

Spiker deyib ki, nümayəndə heyətinin üzvü olan Milli Məclisin deputatları konfrans çərçivəsində keçirilən tədbirlərdə fəal iştirak ediblər.

Qeyd edilib ki, səfər çərçivəsində Parlamentlərarası İttifaqın və ATƏT-in Parlament Assambleyasının prezidentləri, habelə Parlamentlərarası İttifaqın yeni seçilmiş baş katibi, vitse-prezidenti, İcraiyyə Komitəsinin üzvü və Qadın Parlamentarilər Forumu Bürosunun sədri, eləcə də Serbiya və Zimbabve parlamentlərinin sədrləri, Mərakeş və Mavritaniya parlamentlərinin sədr müavinləri ilə ümumən 9 görüş keçirib.

Görüşlərdə beynəlxalq parlament təşkilatları çərçivəsində iş birliyi, həmçinin qanunvericilik orqanları arasında ikitərəfli əməkdaşlıq məsələləri nəzərdən keçirilib. Qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

Milli Məclisin Sədri bildirib ki, səfər zamanı nümayəndə heyəti ilə birlikdə Belqradın Taşmaydan parkında Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət ediblər və Ulu Öndərin əziz xatirəsini dərin ehtiramla yad ediblər.

Çıxışına yekun vuran spiker Serbiya Respublikasına işgüzar səfərin uğurlu olduğunu deyib və nümayəndə heyətinin üzvlərinə minnətdarlığını bildirib.

Sonra iclasın gündəliyi təsdiqlənib və cari məsələlərlə bağlı müzakirələr keçirilib. Milli Məclisin komitə sədrləri Səməd Seyidov, Siyavuş Novruzov, deputatlar Bəhruz Məhərrəmov, Əziz Ələkbərov, Əli Məsimli, Naqif Həmzəyev, Elman Nəsirov, Tural Gəncəliyev, Razi Nurullayev, Vüqar Bayramov və Nizami Səfərov çıxış edərək gündəmdə duran bir sıra aktual məsələlərə münasibətlərini bildiriblər. Deputatlar ABŞ Prezidenti Donald Trampın bu yaxınlarda Azərbaycan Prezidentinə ünvanladığı məktub barədə də danışaraq bildiriblər ki, bu məktub ölkələr arasında münasibətlərin inkişafının göstəricilərindən biridir. Deputatların sözlərinə görə, ABŞ ilə Azərbaycan arasında formalaşan əməkdaşlıq təkcə iki ölkə üçün deyil, bütövlükdə region üçün yeni imkanlar yaradır.

Çıxışlarda Azərbaycanın bu həftə regionun ən böyük enerji platformalarından biri olan "Bakı Enerji Həftəsi"nə evsahibliyi etdiyi xatırlanıb. Qeyd olunub ki, tədbirin açılış mərasimində Prezident İlham Əliyev enerji təhlükəsizliyi, iqtisadi əməkdaşlıq və rəqəmsal transformasiya ilə bağlı mühüm strateji mesajlar səsləndirib. Bildirilib ki, "Bakı Enerji Həftəsi" çərçivəsində ilk dəfə təşkil edilən Azərbaycan-ABŞ iqtisadi dialoqunun nəticəsi olaraq imzalanan müqavilələr iki ölkə arasında ənənəvi enerji tərəfdaşlığının yüksək texnologiyalar, rəqəmsal iqtisadiyyat və süni intellekt sahələrini də əhatə edən strateji əməkdaşlıq formatına çevrildiyini nümayiş etdirir.

Millət vəkilləri kibertəhlükəsizlik məsələlərinə toxunaraq, rəqəmsal texnologiyaların dövlətlərin, iqtisadiyyatların və cəmiyyətlərin fəaliyyətində rolunun sürətlə artdığını deyiblər. Onlar Milli Kibertəhlükəsizlik Agentliyinin yaradılmasını mühüm addım kimi qiymətləndirərək bildiriblər ki, yeni qurum ölkənin kibertəhlükəsizlik sahəsində institusional potensialını gücləndirəcək, dövlət informasiya sistemlərinin və kritik informasiya infrastrukturunun qorunmasına, kibercinayətkarlıqla və kiberhücumlarla mübarizənin daha səmərəli təşkilinə xidmət edəcək.

Deputatlar həmçinin çıxışlarda Qərbi Azərbaycan toponimlərinin tarixi yaddaşda saxlanılması, ana dilimizin dövlət səviyyəsində qorunması, vətəndaşların rifahının yüksəldilməsi, qanunvericiliyin təkmilləşdirilməsi, idarəetmə mexanizmlərinin səmərəliliyinin artırılması və digər aktual məsələlər barədə fikirlər səsləndiriblər.

Sonra iclasda gündəlikdəki məsələlərin müzakirəsi başlayıb. İlk olaraq "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş) müzakirəyə çıxarılıb. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, qanun layihəsi Azərbaycan Respublikasının 30 dekabr 2025-ci il və 27 fevral 2026-cı il qanunlarına uyğun olaraq "Diplomatik xidmət haqqında" Qanuna diplomatik xidmətin xüsusiyyətləri nəzərə alınmaqla təklif olunan müvafiq dəyişiklikləri ehtiva edir.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov sənədlə bağlı rəhbərlik etdiyi komitənin rəyini səsləndirdikdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Daha sonra Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 7 mart tarixli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında qanun layihəsi barədə məlumat verib. Bildirilib ki, layihədə korrupsiyaya qarşı mübarizə sahəsində qanunvericilik bazasının davamlı olaraq təkmilləşdirilməsinə xidmət edən uyğunlaşdırma xarakterli dəyişikliklər əksini tapıb.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadə və Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov təmsil etdikləri komitələrin məsələ ilə bağlı müsbət rəylərini təqdim ediblər. Komitə sədri Fazil Mustafanın fikirləri dinlənildikdən sonra layihə səsə qoyularaq qəbul edilib.

Spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, gündəliyin növbəti 3 məsələsi birinci oxunuşda olan qanun layihələridir və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumat vermək üçün Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynliyə söz verib.

Komitə sədri deyib ki, qanun layihəsi Azərbaycan Respublikasında həyata keçirilən genişmiqyaslı struktur və idarəetmə islahatlarının tərkib hissəsi kimi Naxçıvan Muxtar Respublikasında idarəçilik modelinin təkmilləşdirilməsi məqsədilə hazırlanıb. Layihəyə əsasən, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi artıq 1-ci kateqoriya dövlət orqanı statusuna malik olacaq.

Təklif edilən digər dəyişikliklərə əsasən, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi və onun müavinləri vəzifələri inzibati vəzifələr təsnifatından çıxarılır, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin köməkçisi vəzifəsi isə üçüncü təsnifat vəzifələr siyahısına daxil edilir. Bu dəyişiklikdən sonra "Dövlət qulluğu haqqında" qanun Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi və onun müavinlərinə şamil olunmayacaqdır. Həmin vəzifələri tutan şəxslərin xidmət illəri nəzərə alınmaqla əməyinin ödəniş pilləsi "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 33-4.3-cü maddəsinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən ediləcək.

Layihənin müzakirəsində komitə sədrləri Zahid Oruc, Siyavuş Novruzov, deputatlar Razi Nurullayev, Vüqar Bayramov, Aydın Mirzəzadə, Vüqar Rəhimzadə, Ülviyyə Həmzəyeva çıxış edib, fikirlərini bildiriblər.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Növbəti - Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində və "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov məlumat verib. Təqdim olunan qanun layihəsində təklif edilən əlavə və dəyişikliklər təqsirləndirilən şəxs olmayan, lakin əmlak üzərinə həbs qoyulması barədə cinayət prosesini həyata keçirən orqanın qərarı ilə qanuni mənafeyinə toxunulan şəxslərin, cinayət prosesində iştirak edən digər şəxslər kateqoriyasına daxil edilməsi, həmin şəxslərin qanuni mənafeyinə toxunulan şəxs qismində cinayət prosesinə cəlb edilməsi, cinayət prosesində iştirak edən şəxslər kimi apellyasiya, kassasiya, əlavə kassasiya şikayəti vermək hüquqları və qaydalarını tənzimləyir.

Təklif olunan ən mühüm dəyişikliklərdən biri də cinayət mühakimə icraatı çərçivəsində əmlak üzərinə həbs qoyulması barədə cinayət prosesini həyata keçirən orqanın qərarının mülki mühakimə icraatı çərçivəsində deyil, məhkəmə nəzarəti qaydasında mübahisələndirilməsinin nəzərdə tutulmasıdır.

Müzakirədə deputat Vasif Qafarovun səsləndirdiyi fikirlərə layihə üzrə məruzəçi, deputat Bəhruz Məhərrəmov münasibət bildirəndən sonra sənəd səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Daha sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (birinci oxunuş) təqdim edib. Deputat vurğulayıb ki, Azərbaycan Prezidentinin imzası ilə parlamentə daxil olmuş qanun layihəsi cinayət təqibi ilə bağlı bütün halların hərtərəfli, tam və obyektiv araşdırılmasının səmərəliliyinin artırılmasına yönəlmiş mütərəqqi sənəddir. Bildirilib ki, qanun layihəsinə əsasən, Cinayət-Prosessual Məcəlləsində böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə sadələşdirilmiş icraat ilə bağlı bəzi müddətlərin artırılması nəzərdə tutulur. Belə ki, məhkəməyədək sadələşdirilmiş icraatın açılması və ya açılmasından imtina barədə qərarın qəbul edilməsi, təhqiqatın aparılması, prokuror nəzarətinin həyata keçirilməsi ilə bağlı müəyyən edilmiş bəzi prosessual müddətlərin artırılması təklif olunur. Dəyişikliyə əsasən, artıq məhkəməyədək sadələşdirilmiş icraat şəklində təhqiqat böyük ictimai təhlükə törətməyən aşkar cinayət üzrə məlumatın təhqiqatçıya, müstəntiqə və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora daxil olduğu vaxtdan 10 gün müddətində deyil, 30 gün müddətində aparılacaq.

Qeyd olunub ki, bununla yanaşı, Məcəllənin bir sıra maddələrində "şikayət" sözü "məlumat" sözü ilə əvəz edilir. Bu dəyişiklik bəzi hallarda məlumat verən şəxsin niyyətinin şikayət etmək deyil, sadəcə, baş vermiş cinayət hadisəsi barədə səlahiyyətli orqanları məlumatlandırmaqdan ibarət ola bilməsi ilə əlaqədardır.

Sənəddə hüquqi şəxslər tərəfindən də cinayət hadisəsi barədə məlumat verilməsinin mümkünlüyü nəzərə alınaraq, böyük ictimai təhlükə törətməyən aşkar cinayət üzrə yazılı məlumatda və ya şifahi məlumatın qəbul edilməsi barədə protokolda, həmçinin məhkəməyədək sadələşdirilmiş icraatın aparılması nəticələrinə dair yekun protokolda hüquqi şəxsə dair müvafiq məlumatların göstərilməsi ilə bağlı dəyişiklik nəzərdə tutulur.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Spiker Sahibə Qafarova gündəliyin son 3 məsələsinin ikinci oxunuşda qanun layihələri olduğunu söyləyib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) barədə məlumat verib. O, birinci oxunuş zamanı Gömrük Məcəlləsində nəzərdə tutulan dəyişikliklərin mahiyyəti, məqsədi və konseptual əsasları barədə ətraflı məlumat verildiyini, deputatların Məcəlləyə edilən dəyişikliklərin əhəmiyyətini vurğulayaraq, bu layihəni dəstəklədiklərini, eyni zamanda bəzi təkliflərin də səsləndirildiyini söyləyib.

Komitə sədri Azərbaycanın gömrük sisteminin iqtisadi idarəetmənin və tənzimləmənin mühüm istiqaməti kimi təşəkkül tapdığını, milli iqtisadiyyatın formalaşmasında onillikləri əhatə edən inkişaf mərhələlərindən keçdiyini qeyd edib. Bildirib ki, bu illər ərzində gömrük orqanları ölkəmizin iqtisadi sərhədlərinin qorunması, yerli istehsalçıların müdafiəsi sahəsində, habelə qaçaqmalçılıqla mübarizədə, iqtisadi təhlükəsizliyin təmin edilməsində, fiskal yığımların toplanılmasında mühüm rol oynayıb.

Diqqətə çatdırılıb ki, müzakirəyə çıxarılan layihə gömrük prosedurlarının sadələşdirilməsinə, rəqəmsallaşmanın geniş tətbiqinə, gömrük-biznes əməkdaşlığının daha da yaxşılaşmasına xidmət edir. Gömrük Məcəlləsinə təklif edilən dəyişikliklər gömrük sisteminin möhkəmləndirilməsini, onun müasir dövrün tələblərinə uyğunlaşdırılaraq modernləşdirilməsini, yeni çağırışların diqqət mərkəzində saxlanılmasını nəzərdə tutur. Bu dəyişikliklər Azərbaycanın beynəlxalq ticarət sisteminə inteqrasiyasını gücləndirəcək, ölkənin tranzit imkanlarının genişlənməsinə töhfə verəcək və bunun üçün müvafiq hüquqi baza yaradacaq.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Bundan sonra Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib. Komitə sədri qeyd edib ki, sənəddə təklif olunan dəyişikliklər sahibkarlığın inkişafına, təsərrüfat fəaliyyəti ilə məşğul olan insanların torpaq sahələrinin hər qarışından səmərəli istifadə etməsinə imkan yaradır. O, sahələrdə mövcud olan yabanı bitkilərin, yaşıllıqların təsərrüfatlara müəyyən maneələr yaratdığını, qanuna edilən dəyişikliklərin bilavasitə həmin sahələrdə kənd təsərrüfatı fəaliyyətinə mane olan yaşıllıqların götürülməsinin və onun mexanizminin hüquqi əsaslarının yaradılmasını nəzərdə tutduğunu bildirib.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədr müavini Fatma Yıldırım layihə barədə bu komitənin müsbət rəy verdiyini söyləyib.

Məsələ ətrafında aparılan müzakirələrdə deputatlar Razi Nurullayev və Naqif Həmzəyev qeyd və təkliflərini açıqlayıblar. Komitə sədri Tahir Rzayev səsləndirilən fikirlərə münasibət bildirib.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsindən (ikinci oxunuş) bəhs edib. Deputat qanun layihəsi barədə birinci oxunuş zamanı geniş məlumat verildiyini, sənəddə hər hansı əlavə dəyişikliyin edilmədiyini deyib, bəzi məqamlara münasibət bildirib.

Layihədə bir sıra qanunlarda və qanun layihələrində qadağan edilən müvafiq əməllərə, o cümlədən narkoloji xəstələr üçün fəaliyyət məhdudiyyəti nəzərdə tutulmuş peşə növlərinə və vəzifələrə işə qəbul edilməsinə, tibbi arayış, tibbi rəy olmadan işçinin müvafiq peşə və ya vəzifəyə işə qəbul edilməsinə, barəsində məlumatlandırma icraatı tətbiq edilən kolların kəsilməsi barədə yalan və təhrif olunmuş məlumatın verilməsinə, maliyyə icarəsi fəaliyyətinə dair hesabatların təqdim edilməməsinə, yaxud düzgün təqdim edilməməsinə, ərzaq balansının tərtibi ilə bağlı zəruri məlumatların təqdim edilməməsinə görə inzibati məsuliyyətin müəyyən edilməsi təklif olunur.

Məsələ ilə bağlı müzakirələrdə komitə sədri Azər Əmiraslanov, deputat Aydın Hüseynov fikirlərini səsləndirdikdən sonra qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

***"Azərbaycan"***




# Azərbaycanın enerji və inkişaf modeli

## Prezident İlham Əliyevin milli maraqlara əsaslanan strategiyası dünyada böyük maraq yaradıb

**"Biz milli maraqlar üzərində dayanan çox praqmatik siyasət həyata keçirtdik... ...Biz hər bir işi strategiyamız əsasında etdik. Bütün taktiki gedişlərimiz həmin strategiyaya əsaslanırdı... ...Beləliklə, Azərbaycanın inkişafı, - istər sosial, iqtisadi, hərbi, istərsə də xarici siyasət olsun, - bütün bunlar onu nümayiş etdirir ki, təbii sərvətlərdən düzgün istifadə olunan zaman onlar bir çox üstünlüklərə yol aça bilər".**

Prezident İlham Əliyevin iyunun 1-də "Bakı Enerji Həftəsi"nin açılış mərasimində etdiyi tarixi və dərinməzmunlu çıxışı müasir Azərbaycanın keçdiyi inkişaf yolunun, onun qlobal enerji təhlükəsizliyindəki rolunun və gələcəyə yönəlmiş strateji baxışının mükəmməl xülasəsi idi. Prezidentin bu nitqi həm də Azərbaycanın unikal inkişaf modelinin bir daha dünyaya dolğun təqdimatı oldu.

### Təbii sərvətlərdən düzgün istifadə

Azərbaycanın müstəqilliyinin ilk illərində üzləşdiyi ağır iqtisadi böhran, torpaqlarımızın işğalı və humanitar fəlakət şəraitində xilas yolu məhz təbii sərvətlərdən düzgün istifadə edilməsindən keçirdi. Ulu Öndər Heydər Əliyevin sayəsində 1994-cü ildə "Əsrin müqaviləsi"nin timsalında əsası qoyulan müdrik neft siyasəti ölkəmizin müstəqil dövlət kimi yaşamasının və qlobal gücə çevrilməsinin bünövrəsi oldu. Bu gün "Şahdəniz", Bakı-Tbilisi-Ceyhan (BTC), "Cənub qaz dəhlizi" kimi nəhəng layihələr qlobal enerji təhlükəsizliyini təmin edir. Digər tərəfdən, milli maraqlara əsaslanan enerji siyasəti ölkəmizi gücləndirir, dünyada nüfuzumuzu artırır. Bu da xarici təsirlərin qarşısını almağa imkan yaradır.

Azərbaycanın ən böyük uğuru təbii sərvətlərdən əldə olunan gəlirlərin effektiv idarə edilməsidir. Enerji resurslarından gələn qazanc rifaha, inkişafa, sosial infrastruktura, təhsilə, səhiyyəyə və güclü ordunun qurulmasına yönəldilib. Məhz neft və qaz kapitalının insan və hərbi kapitala çevrilməsi strategiyası 44 günlük Vətən müharibəsində tarixi Qələbəmizi təmin edən ən mühüm amillərdən biri oldu.

Uğurlu enerji siyasəti həyata keçirən Azərbaycanın inkişaf yolunu "Bakı Enerji Həftəsi"nin açılış mərasimində diqqətə çatdıran Prezident İlham Əliyev söylədi ki, 30 il ərzində işğal altında qalmış torpaqlarımızı azad edən güclü ordu qurduq və cəmi 44 gün ərzində Ermənistanı tamamilə məğlub edərək kapitulyasiya aktını imzalamağa məcbur etdik: "Əlbəttə ki, müharibədə qələbə dedikdə, sadəcə, pul və hətta silahlar nəzərdə tutulmur. Söhbət döyüş ruhundan gedir. Lakin gəlin etiraf edək, ordunu qurmaq üçün pulumuz olmasaydı, yəqin ki, bu gün hələ də torpaqlarımız işğal altında olardı. Beləliklə, Azərbaycanın inkişafı, - istər sosial, iqtisadi, hərbi, istərsə də xarici siyasət olsun, - bütün bunlar onu nümayiş etdirir ki, təbii sərvətlərdən düzgün istifadə olunan zaman onlar bir çox üstünlüklərə yol aça bilər".

Xüsusilə son illərdə qlobal geosiyasi böhranlar fonunda Avropanın alternativ və etibarlı qaz mənbələrinə ehtiyacı pik həddə çatıb. Ölkəmiz bu kritik məqamda qitənin enerji təhlükəsizliyinin sütununa çevrilib. Azərbaycan qazını idxal edən ölkələrin sayının qısa müddətdə 12-dən 16-ya yüksəlməsi və onların 10-nun Avropa İttifaqı üzvü olması, Bakının vəd etdiyi strateji tərəfdaşlığının Avropa üçün əvəzolunmaz olduğunu nümayiş etdirir.

Onu da vurğulayaq ki, dövlətimizin rəhbərinin "Bu gün Avropa enerji bazarının "Cənub qaz dəhlizi" olmadan necə olacağını təsəvvür etmək çətindir" fikri reallığa əsaslanan ən obyektiv qənaətdir.

### Resursların alternativ enerjiyə yönəldilməsi

Prezident İlham Əliyev öz nitqində qlobal müstəvidə neft və qaz hasil edən ölkələrə qarşı aparılan qarayaxma kampaniyalarına və əsassız təzyiqlərə qarşı kəskin, praqmatik mövqe nümayiş etdirdi və haqlı olaraq vurğuladı ki, ölkələr torpaqlarında neft və qazın olmasına görə günahlandırılmamalıdır: "...Ölkələr neftin olub-olmaması ilə deyil, gəlirlərdən necə istifadə etdiklərinə görə mühakimə edilməlidir. Diqqət yetirilməlidir ki, öz ölkəsinin inkişafı, xalqının daha yaxşı yaşayış şəraitinin təminatı, "yaşıl gündəlik" məsələlərinə enerjinin istehsalından əldə edilən vəsaitləri onlar necə sərmayə kimi yatırırlar. Düşünürəm ki, Azərbaycan çox bariz nümunədir".

Azərbaycanın yüksək imici onun ənənəvi enerjidən qazandığı vəsaitləri "yaşıl enerji" yatırmasından da aydın görünür. Ölkəmizin növbəti yüz il üçün həm öz, həm də tərəfdaşlarının tələbatını ödəməyə kifayət edəcək qaz ehtiyatı olsa da, dövlət daxili və xarici investorlarla birlikdə bərpaolunan enerji mənbələrini sürətlə inkişaf etdirir.

Gələn ilin sonunadək günəş və külək enerjisi gücünün 2 qiqavata, 2032-ci ilə qədər isə 8 qiqavata çatdırılması hədəflənir. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda artıq 300 meqavatdan çox hidroenerji potensialı işə salınıb.

"Qara dəniz Enerji Kabeli" və Mərkəzi Asiyadan uzanacaq "yaşıl enerji" dəhlizləri ilə Azərbaycan gələcəkdə həm də "yaşıl enerji" ixracatçısına çevrilir.

Yeri gəlmişkən, bildirək ki, ABŞ Prezidenti Donald Tramp "Bakı Enerji Həftəsi"nə ünvanladığı məktubunda, "31-ci "Bakı Enerji Həftəsi"ni keçirdiyiniz vaxtda Sizə və Azərbaycan xalqına öz təbriklərimi çatdırıram. Bu nailiyyət Azərbaycanın enerji təhlükəsizliyi sahəsində göstərdiyi liderlik keyfiyyətlərinin sübutudur", - deyə xüsusi vurğulayıb.

ABŞ kimi dünyanın siyasi və iqtisadi nəhəngi olan bir ölkənin liderinin sözügedən məktubunda ifadə olunan yüksək qiymət bir daha sübut edir ki, Azərbaycanın tətbiq etdiyi enerji modeli təkcə regional deyil, qlobal miqyasda nümunəvi xarakter daşıyır.

Resursların idarə edilməsində şəffaflıq, xarici investisiyalara açıqlıq, daxili sabitlik və qonşularla qurulan düzgün diplomatik münasibətlər, dənizə birbaşa çıxışı olmayan ölkə üçün unikal nailiyyətdir. Bu mənada Azərbaycanın inkişaf modelini xüsusilə postmünaqişə və keçid dövrü yaşayan digər dövlətlər üçün ən real və uğurlu örnək saymaq olar.

Vurğulandığı kimi, Azərbaycan təbii resurslarını düzgün və səmərəli idarə edən və bütöv bir qitənin enerji təhlükəsizliyində xüsusi rol oynayan qlobal oyunçudur. Otuz il əvvəl xarici kapital və investor asılılığında olan Azərbaycan bu gün artıq qlobal kapital bazarlarında özü şərtləri diktə edən gücə çevrilib.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# "Cənub qaz dəhlizi"nin ehtiyat mənbəyi

## "Şahdəniz" üzrə Hasilatın Pay Bölgüsü Sazişinin imzalanmasından 30 il ötür

**2026-cı il dünyanın nəhəng karbohidrogen yataqlarından biri olan "Şahdəniz"in yubiley ilidir. Belə ki, 30 il əvvəl - 1996-cı il iyunun 4-də Bakıda SOCAR və xarici şirkətlər arasında Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" yatağı üzrə Hasilatın Pay Bölgüsü haqqında Saziş (HPBS) imzalanıb. HPBS Milli Məclis tərəfindən ratifikasiya edilərək həmin il oktyabrın 17-də qüvvəyə minib.**

"Şahdəniz" həmin yataqdır ki, Azərbaycanı dünyada qaz ixracatçısı kimi tanıdıb. Bu gün şaxələnərək dünyanın 16 ölkəsinə qaz nəql edən "Cənub qaz dəhlizi"nin əsas ehtiyat mənbəyi məhz bu yataqdır.

"Şahdəniz" layihəsinin operatoru olan BP-dən aldığımız məlumatda vurğulanır ki, bu, dünyanın ən böyük qaz-kondensat yataqlarından biridir və şirkətin indiyə qədər kəşf etdiyi ən böyük qaz yatağıdır. 20 ilə yaxındır bu yataq Cənubi Qafqaz Boru Kəməri (CQBK) vasitəsilə Azərbaycan, Gürcüstan və Türkiyəni təhlükəsiz və etibarlı şəkildə qazla təchiz edir. 2020-ci ilin dekabrında "Cənub qaz dəhlizi"nin tamamlanması nəticəsində "Şahdəniz" Xəzərdən minlərlə mil uzaqda yerləşən Avropa istehlakçılarını qazla təmin etməklə Avropa üçün yeni enerji təchizatı mənbəyinə çevrilib.





Xatırladaq ki, "Şahdəniz" Xəzər dənizinin dərinsulu şelfində, Bakıdan 70 kilometr cənub-şərqdə yerləşir və yatağın ərazisində suyun dərinliyi 50 metrdən 600 metrədək dəyişir, sahəsi isə 140 kvadratkilometrdən çoxdur.

1999-cu ildə kəşf edilmiş yataqda ilkin hesablamalara görə, təxminən 1 trilyon kubmetr qaz və 2 milyard barel kondensat ehtiyatı var. "Şahdəniz"dən ilk hasilat 2006-cı ildə əldə edilib. Bu o deməkdir ki, həm də yataqdan ilk hasilatın 20 ili tamam olur.

"Şahdəniz"in "yaş"ı çox olmasa da, salnaməsi zəngindir. Belə ki, 2013-cü il dekabrın 17-də "Şahdəniz" konsorsiumu yatağın işlənməsinin ikinci mərhələsi üçün yekun investisiya qərarını elan etdi. İkinci faza 2018-ci ildə hasilata başladı.

Keçən il "Şahdəniz Alfa" və "Şahdəniz Bravo" platformalarından ümumilikdə təxminən 27 milyard standart kubmetr qaz və təxminən 4 milyon ton (təqribən 32 milyon barel) kondensat hasil olunub. İlk hasilat başlayandan cari ilin birinci rübünün sonunadək yataqdan 271 milyard kubmetr qaz və təxminən 53 milyon ton kondensat çıxarılıb.

"Şahdəniz"in quyuları özünün məhsuldarlığı ilə də seçilir. BP-nin dünya üzrə ən yüksək hasilat göstəricisinə malik 20 quyusundan 17-si bu yataqdadır. Bu isə yataq layının yüksək keyfiyyətini və əməliyyat mükəmməlliyini aydın şəkildə nümayiş etdirir.



Hazırda "Şahdəniz" yatağının ən məhsuldar quyusundan hasilat gündə 28 min barel neft ekvivalentinə çatır. İndiyə qədər "Şahdəniz"də ümumilikdə 34, o cümlədən "Şahdəniz-1"də 11, "Şahdəniz-2"də 23 quyu qazılıb. Bu quyulardan 32-si hazırda istismardadır.

2006-cı ildə istifadəyə verildikdən etibarən CQBK, eləcə də genişləndirilmiş CQBK vasitəsilə daxili bazarlar da daxil olmaqla təxminən 271 milyard kubmetr "Şahdəniz" qazı ixrac edilib. Cari ilin birinci rübünün sonuna "Şahdəniz" layihəsi üzrə fəaliyyətlərə ümumilikdə 31 milyard dollar əsaslı xərclər çəkilib.

"Şahdəniz" layihəsi texniki təhlükəsizlik üzrə də yüksək göstəricilər əldə edib. Bu həm də ətraf mühitə məsuliyyətlə yanaşan bir layihədir. İndiyədək layihə çərçivəsində 16 Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi və 98 dəniz, quru və sahilyanı ərazilər üzrə monitorinq tədqiqatları aparılıb.

Beləliklə, "Şahdəniz" yatağının kəşf edilməsi və işlənməsi Azərbaycanın regional və beynəlxalq miqyasda iri qaz təchizatçısı kimi artan rolunu gücləndirərək ölkənin qarşıdan gələn onilliklər ərzində neft və qaz gəlirlərinin artmasına zəmin yaradıb. Bu layihə Azərbaycanı ən irihəcmli birbaşa xarici investisiya ilə təmin edib və iqtisadiyyatımızı daha da gücləndirib. Ölkəmiz quruda yerləşən yeni obyektlərə, dəniz qurğularına və ixrac infrastrukturuna sahib olub. Bunların hamısı qabaqcıl texnologiyalardan istifadə olunmaqla beynəlxalq standartlara uyğun inşa edilib.

"Şahdəniz" üzrə sazişin imzalanmasının 30-cu ildönümü Azərbaycanın neft-qaz sənayesinin yeni tarixində mühüm bir mərhələdir. Bu, təkcə SOCAR, BP və "Şahdəniz" sazişi üzrə digər tərəfdaşlar üçün deyil, bütün xalqımız üçün tarixi əhəmiyyət daşıyan bir gündür.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Məşhur Çin şirkəti Azərbaycanla əlaqələr qurmaqda maraqlıdır

**Enerji sektorunun regionda ən nüfuzlu tədbirlərindən biri hesab olunan 31-ci Beynəlxalq Xəzər Neft və Qaz ("Caspian Oil and Gas") sərgisi bu il iyunun ilk üç günündə dünyanın aparıcı neft-qaz şirkətlərini bir araya gətirmişdi. Sərginin iştirakçıları arasında Çinin neft-qaz infrastrukturunun tanınmış şirkəti olan "China Petroleum Pipeline Engineering Co. Ltd" (CPP) də yer almışdı.**

Məlumat üçün bildirək ki, 1973-cü ildə təsis olunan CPP yarım əsrdən artıq fəaliyyət tarixi ərzində enerji sənayesinin müxtəlif istiqamətlərində mühüm layihələrin həyata keçirilməsində iştirak edib və qlobal miqyasda etibarlı tərəfdaş kimi tanınıb. CPP-nin əsas fəaliyyət istiqamətlərinə magistral neft və qaz kəmərlərinin tikintisi, neft və qaz anbarlarının yaradılması, dəniz və quru boru kəmərlərinin layihələndirilməsi və quraşdırılması, həmçinin enerji infrastrukturlarının istismarı və texniki dəstəyi daxildir. Şirkət indiyədək ümumi uzunluğu 120 min kilometrdən artıq olan magistral boru kəmərlərinin tikintisini həyata keçirib. Bu layihələr sırasında Qərb-Şərq Qaz Kəməri, Trans-Asiya Qaz Kəməri, Şensi-Pekin Qaz Kəməri və Çin-Myanma Boru Kəməri kimi strateji əhəmiyyətli enerji marşrutları yer alır.

Şirkət yalnız quru ərazilərdə deyil, dəniz infrastrukturu layihələrində də geniş təcrübəyə malikdir. CPP müxtəlif ölkələrdə dənizaltı qaz kəmərlərinin quraşdırılması işlərini həyata keçirib, irihəcmli neft və neft məhsulları saxlama terminalların tikintisində iştirak edib. Bununla yanaşı, Çində ilk yeraltı neft anbarının inşasını həyata keçirərək, bu sahədə mühüm mühəndislik uğuruna da imza atıb.

CPP dünyanın aparıcı enerji şirkətləri ilə əməkdaşlıq edir. Tərəfdaşları sırasında "ExxonMobil", BP, Shell, Saudi Aramco, CNOOC və SINOPEC kimi beynəlxalq enerji nəhəngləri yer alır. Bu əməkdaşlıqlar şirkətin qlobal enerji bazarında mövqeyinin möhkəmlənməsinə və müxtəlif ölkələrdə iri layihələrə cəlb olunmasına imkan yaradıb. Hazırda CPP Çinlə yanaşı, Yaxın Şərq, Afrika, Mərkəzi Asiya, Cənub-Şərqi Asiya, Okeaniya və Cənubi Amerika regionları daxil olmaqla 10-larla ölkədə fəaliyyət göstərir.




Son illər şirkət rəqəmsallaşma və "ağıllı enerji" infrastrukturlarının yaradılmasına xüsusi diqqət ayırıb. Boru kəmərlərinin rəqəmsal monitorinqi, avtomatlaşdırılmış idarəetmə sistemləri, məlumatların operativ emalı və intellektual şəbəkələrin qurulması CPP-nin inkişaf strategiyasının əsas istiqamətləri sırasındadır. Şirkət enerji sektorunda səmərəliliyin artırılması və təhlükəsizliyin gücləndirilməsi məqsədilə innovativ texnologiyaların tətbiqini genişləndirir. Onu da deməyi unutmayaq ki, CPP Çin Milli Neft-Qaz Korporasiyasının tərkibində fəaliyyət göstərir.

"Bakı-Ekspo" Mərkəzində keçirilən 31-ci Xəzər Neft və Qaz sərgisində şirkətin pavilyonuna yaxınlaşaraq, aparıcı mühəndis Anna Vangla söhbət etdik. Çinli mühəndis təəssüratlarını bizimlə bölüşdü: "Bakı Enerji Həftəsi"ndə ilk dəfə iştirak edirik. Böyük məmnunluq hissilə deyim ki, birinci gündən tədbirin miqyasını, peşəkar təşkilatçılığını və beynəlxalq əhəmiyyətini hiss etmək mümkündür. Burada dünyanın müxtəlif ölkələrindən enerji sektorunun aparıcı nümayəndələri bir araya gəlir, yeni əməkdaşlıq körpüləri qurulur. İnanıram ki, sərgidə iştirakımız təkcə yeni işgüzar əlaqələrin deyil, həm də uzunmüddətli tərəfdaşlıqların əsasını qoyacaq. Azərbaycanın enerji sektoru ilə əməkdaşlıq imkanlarını müzakirə etmək və yeni perspektivləri dəyərləndirmək bizim üçün xüsusi önəm daşıyır".

Həmsöhbətimiz ölkəmizlə bağlı fikirlərini söyləyərkən üzündəki xoş təbəssüm gözümüzdən yayınmadı: "Azərbaycana ilk səfərimi illər əvvəl etmişdim. O zaman Bakı ilə yaxından tanış olmaq üçün kifayət qədər vaxtım olmamışdı. Bu dəfə isə şəhəri daha yaxından kəşf etməyi planlaşdırıram. Xəzərin sahilində ucalan bu şəhər tarixlə müasirliyin nadir vəhdətini yaradır. İçərişəhərin daş yaddaşı, Dənizkənarı Bulvarın nəfəs gətirən mənzərələri və Bakının zəngin mədəni irsi ilə tanış olmaq istəyirəm. Bakı haqqında təəssüratlarım olduqca müsbətdir. Şəhər son illər böyük inkişaf yolu keçib, siması tamamilə yenilənib. Müasir memarlıq nümunələri ilə tarixi irsin harmoniyası insanda xüsusi heyranlıq yaradır. Lakin mənə ən çox xoş gələn azərbaycanlıların səmimiyyəti və qonaqpərvərliyidir. Harada olmağımızdan asılı olmayaraq, insanların isti münasibətini hiss edirik. Məhz bu amillər Bakını təkcə inkişaf edən bir paytaxt deyil, həm də insanın yenidən qayıtmaq istədiyi şəhərə çevirir".

CPP-nin "Bakı Enerji Həftəsi"ndə iştirakı bir daha göstərdi ki, müasir enerji sənayesində uğurun əsasını beynəlxalq əməkdaşlıq, innovasiya və təcrübə mübadiləsi təşkil edir. Anna Vang və şirkətin digət təmsilçiləri ilə apardığımız söhbətlərdən aydın oldu ki, enerji sahəsində əməkdaşlıq yalnız texnologiya və iqtisadi maraqlarla məhdudlaşmır. Bu münasibətlərin dərin qatında qarşılıqlı etimad, səmimiyyət və insanlara xas isti münasibət dayanır. Məhz bu görünməz, lakin güclü bağlar gələcəyin daha geniş və davamlı tərəfdaşlıqlar üçün möhkəm körpüsünü yaradır.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Azərbaycan Ümumdünya Ətraf Mühit Gününə evsahibliyi edib









**Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı (UNEP) ilə tərəfdaşlıq çərçivəsində Bakıda Ümumdünya Ətraf Mühit Gününə (WED) evsahibliyi edib.**





AZƏRTAC xəbər verir ki, tədbir "Təbiətdən ilham alaraq. İqlim naminə. Gələcəyimiz naminə" mövzusunda keçirilib.

Tədbirdə əvvəlcə Azərbaycan Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi Muxtar Babayev Prezident İlham Əliyevin tədbir iştirakçılarına müraciətini oxuyub.

Tədbirdə çıxış edən ekologiya və təbii sərvətlər naziri Rəşad İsmayılov yaşadığımız ətraf mühitin, faydalandığımız təbiətin - meşələrin və biomüxtəlifliyin, okean və dənizlərin, çayların, nəfəs aldığımız havanın ortaq sərvətimiz olduğunu deyib: "Biz iqtisadi inkişafı, sosial rifahı və ekoloji tarazlığı vəhdətdə təmin etməliyik. Azərbaycan bu yanaşmanı hər zaman dəstəkləyir və dayanıqlı inkişafı prioritet hesab edir".

Nazir ölkəmizin yaşıl inkişaf və bərpaolunan enerji mənbələrindən istifadə sahəsində genişmiqyaslı layihələr icra etdiyini diqqətə çatdırıb. O, 2030-cu ilə qədər bərpaolunan enerjinin payının 30 faizə çatdırılmasının hədəfləndiyini deyib: "Bu bizə Paris Sazişinin tərəfi kimi 2035-ci ilə qədər istixana effekti yaradan qaz emissiyalarını azaltmaq üçün zəmin yaradır. Əfsuslar olsun ki, uzun illər ərzində Ermənistanın işğalı altında qalmış ərazilərimizdə təbii sərvətlərə, ekosistemlərə, flora və faunaya ciddi ziyan vurulub, ekosid, urbisid və kultursid törədilib. Hazırda işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış Dövlət Proqramının icrası çərçivəsində Qarabağ və Şərqi Zəngəzur regionunda həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləri ekoloji yanaşmalar əsasında aparılır. Azərbaycan Qarabağ və Şərqi Zəngəzur regionlarında ekoloji bərpa prosesinin dəstəklənməsi məqsədilə BMT-nin Ətraf Mühit Proqramından ekspert dəstəyi alıb və buna görə təşkilata minnətdarlığımızı bildiririk".

BMT-nin Ətraf Mühit Proqramının (UNEP) icraçı direktoru İnger Andersen Azərbaycanın iqlim fəaliyyəti sahəsində həm qlobal, həm regional, həm də milli səviyyədə mühüm və strateji rol oynamaqda davam etdiyini diqqətə çatdırıb. Bildirilib ki, COP29-a evsahibliyi edən Azərbaycan bu istiqamətdə əhəmiyyətli liderlik nümayiş etdirib.

O xatırladıb ki, ötən ay Bakı Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına evsahibliyi edib. "Bu forum dünya şəhərlərində iqlim dayanıqlılığına, təbiətə və şəhər inkişafına diqqət yetirilməsinin vacibliyini ön plana çıxardı. İqlim dəyişikliyi, həqiqətən də, hamımızın diqqət mərkəzində olmalı bir məsələdir. Qlobal temperatur yüksəlir, iqlim dəyişikliklərinin təsirləri güclənir və planet bizə müxtəlif siqnallar göndərir. Bu siqnallar özünü istilik dalğaları, quraqlıqlar, daşqınlar, səhralaşma, qum və toz fırtınaları şəklində göstərir. Bu təsirlər hamımıza zərər vurur, lakin ən çox əziyyət çəkənlər yoxsullar və həssas əhali qruplarıdır", - deyə İnger Andersen vurğulayıb.

BMT-nin Baş katibi Antonio Quterreş tədbir iştirakçılarına ünvanladığı videomüraciətdə iqlim dəyişikliyinin yaratdığı zərərlərin temperaturun yüksəlməsi ilə məhdudlaşmadığını, çirklənmiş havadan torpaqların deqradasiyasına, ekosistemlərin çökməsinə və biomüxtəlifliyin yox olmasına qədər bir çox problemlə üz-üzə olduğumuzu diqqətə çatdırıb. Dünyamızın sağlamlığının təhlükə altında olduğu və aclıq probleminin daha da dərinləşdiyi vurğulanıb.

O bildirib ki, dünya müvəqqəti olaraq temperatur artımının 1,5 dərəcə həddini aşacağı bir dövrə doğru irəliləyir.

"Temperaturdakı hər əlavə dərəcə və ya onun kiçik bir hissəsi belə daha böyük zərərlərə səbəb olur və bunun təsirini ən çox həssas əhali qrupları hiss edir. Bizim vəzifəmiz bu həddin aşılmasını mümkün qədər kiçik, qısamüddətli və təhlükəsiz etmək, daha sonra isə qlobal temperaturu sürətlə yenidən aşağı salmaqdır. Bu isə emissiyaların kəskin şəkildə azaldılması, qalıq yanacaqlardan mərhələli və ədalətli keçidlə uzaqlaşaraq bərpaolunan enerji mənbələrinə keçidin sürətləndirilməsi deməkdir. Xərclərin azaldılması və real enerji təhlükəsizliyinin təmin olunması üçün yeganə dayanıqlı yol məhz budur. Metan emissiyalarının azaldılması yaxınmüddətli istiləşməni məhdudlaşdırmağın ən sürətli və ən az xərc tələb edən yollarından biridir. Meşələrin, torpaqların və dənizlərin qorunması, artıq hiss olunan dağıdıcı iqlim təsirlərinə uyğunlaşmaq üçün icmalara dəstək verilməsi də böyük əhəmiyyət daşıyır. Bu, həmçinin inkişaf etməkdə olan ölkələrə verilən iqlim maliyyələşdirilməsi vədlərinin yerinə yetirilməsi deməkdir ki, insanların həyatı xilas edilsin, dolanışıq vasitələri qorunsun və iqtisadiyyatlar gücləndirilsin", - deyə Antonio Quterreş vurğulayıb.

Tədbir iştirakçılarına videomüraciət ünvanlayan Türkiyənin ətraf mühit, şəhərsalma və iqlim dəyişikliyi naziri, COP31-in sədri Murat Kurum COP31 Sədrliyi olaraq Bakı Maliyyə Məqsədi başda olmaqla, COP29-da irəli sürülmüş öhdəliklərin yerinə yetirilməsinə nəzarət edəcəklərini qeyd edib. O bildirib ki, çoxtərəfli sistemin etibarlılığı yalnız hədəflər müəyyən etməklə deyil, verilən vədlərin yerinə yetirilməsi, qəbul edilən qərarların praktikada tətbiqi və insanların həyatına toxunan konkret nəticələrin əldə olunması ilə təmin edilir. Həmin yanaşma ilə COP31 yalnız yeni öhdəliklərin müzakirə edildiyi bir zirvə olmayacaq. COP31 tətbiqin, əməkdaşlığın və konkret nəticələrin ön plana çıxdığı bir tədbir olacaq. Çünki dünya artıq, sadəcə, yeni vədlər eşitmək deyil, verilən vədlərin həyata keçirildiyini görmək istəyir.

COP30-un prezidenti Andre Korrea do Lago tədbirin iştirakçılarına videomüraciətində deyib: "Bu, çox vacib bir fürsətdir və eyni zamanda hamımızın bu mövzu ətrafında bir araya gəlməsi üçün əhəmiyyətli bir imkandır. Məqsədimiz United Nations Environment Programme, COP29 və COP30-un əl-ələ verərək real nəticələrin əldə olunmasına doğru irəliləməsini təmin etməkdir".

O, COP30-un artıq çox mühüm bir addım olduğunu deyib və qeyd edib ki, bunun sayəsində biz, həqiqətən də, icra və həyata keçirmə mərhələsinə daxil oluruq: "Buna görə də bir araya gəldiyinizə, həqiqətən, nələr etməli olduğumuzu müzakirə etdiyinizə görə sizə səmimi təşəkkür edirəm. Ümid edirəm ki, mübarizəmizi birlikdə davam etdirmək üçün yaxın zamanda dünyanın hansısa bir yerində yenidən görüşəcəyik".

BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbax tədbir iştirakçılarına müraciətində bildirib: "WUF13 zamanı Bakı Davamlılıq Koalisiyası COP sədrlərini və BMT-nin Məskunlaşma Proqramını bir araya gətirərək, Azərbaycan hökumətinin qlobal gündəmləri birləşdirməyə nə qədər ciddi yanaşdığını nümayiş etdirərək şəhər və iqlim gündəmlərini birləşdirən və Paris Sazişi ilə Yeni Şəhərsalma Proqramı arasında uyğunluğu gücləndirən inteqrasiyalı yanaşmanın irəliləyişinə əsas platforma yaradıb. WUF13 çərçivəsində qəbul edilən Bakı Fəaliyyətə Çağırış sənədi bizə xatırladır ki, şəhərlərimiz həyatı təmin edən təbii sistemlərlə ahəngdar şəkildə inkişaf etməlidir və Ümumdünya Ətraf Mühit Gününün mövzusu ilə ayaqlaşır: "Təbiətdən ilham alaraq. İqlim naminə. Gələcəyimiz naminə". Bakı Fəaliyyətə Çağırış sənədi davamlı şəhər inkişafının təməl daşı kimi mənzilin rolunu vurğulayır və hamı üçün inklüziv, əlverişli və iqlimədavamlı mənzillərə qətiyyətlə keçidi tələb edir. O, təbiətə əsaslanan həllər, ekosistemlərin bərpası, daha yaşıl şəhər məkanlarının layihələndirilməsi və dayanıqlılığın gücləndirilməsi üçün yenilənmiş öhdəliklərə çağırır ki, insan məskənləri nəinki ətraf mühitə təsirini azaltsın, həm də cəmiyyətin davamlılığını fəal şəkildə inkişaf etdirsin. Şəhər inkişafını təbiətin müdrikliyi ilə uyğunlaşdırmaqla, biz gələcək nəsillər üçün davamlı və ümidli gələcəyi təmin edə, şəhərlərimizi iqlim fəaliyyətinin və əhatəli rifahın mühərriklərinə çevirə bilərik", - deyə o vurğulayıb.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının icraçı katibi Saymon Stil tədbirin iştirakçılarına videomüraciəti zamanı bildirib ki, 2026-cı ilin hələ yarısına çatmış olsaq da, bu ilin verdiyi dərs artıq aydındır: iqlim fəaliyyəti, iqtisadi sabitlik, milli təhlükəsizlik bütün dünyada insanların rifahı üçün həyati əhəmiyyət daşıyır: "Biz bu dinamikanı qoruyub saxlamalı və fəaliyyətimizi sürətləndirməliyik. Elmin tələb etdiyi sürətlə irəliləmək, iqtisadiyyatları möhkəmləndirmək və insan həyatlarını xilas etmək üçün bunu etməliyik. Bu isə o deməkdir ki, qlobal iqlim öhdəlikləri sürətli və ədalətli şəkildə həyata keçirilməlidir. Bu, 2030-cu ilə qədər dünyada bərpaolunan enerji gücünün üç dəfə artırılması deməkdir. Bu, qalıq yanacaqlardan uzaqlaşmaq, meşələrin qırılmasının dayandırılması, Azərbaycanın sədrliyi dövründə COP29-da razılaşdırılmış yeni iqlim maliyyələşdirilməsi hədəfinin həyata keçirilməsi deməkdir. Bu istiqamətdə Azərbaycanın davam edən liderliyini yüksək qiymətləndirirəm".

Serbiyanın ətraf mühitin mühafizəsi naziri Sara Pavkov bütün dünyada iqlim dəyişikliyi, biomüxtəlifliyin itirilməsi, torpaq deqradasiyası, çirklənmə və su ehtiyatları üzərində artan təzyiq kimi mürəkkəb və bir-biri ilə əlaqəli çağırışlarla üz-üzə olduğumuzu vurğulayıb. Qeyd olunub ki, həmin problemlər sərhəd tanımır və beynəlxalq ictimaiyyətdən dayanıqlı inkişaf, həmrəylik və tərəfdaşlıq prinsiplərinə əsaslanan birgə, əlaqələndirilmiş və inklüziv yanaşma tələb edir: "Buna görə də bu reallıqlarla mübarizədə birlik nümayiş etdirməliyik. Bu məqsədlə təbiətin gücündən faydalanaraq innovativ, dayanıqlı, elmi əsaslara söykənən və ekosistemlərin davamlılığını nəzərə alan həllər tapmalıyıq. Təbiətin gücündən ilham almaqla çağırışları fürsətlərə çevirə bilərik. Serbiya da məhz buna görə əməkdaşlığın gücləndirilməsinə və uzunmüddətli, dayanıqlı nəticələr verə biləcək həllərin birgə müəyyənləşdirilməsinə xüsusi önəm verir. Azərbaycanı Ümumdünya Ətraf Mühit Günü 2026-nın nümunəvi təşkilinə görə ən yüksək qiymətləndirmə ilə təbrik edirik. Bu tədbir uzaqgörənliyin, fədakarlığın və kollektiv fəaliyyətin gücünün bariz nümunəsidir və gələcək ev sahibi ölkələr üçün yüksək standart müəyyən edir. Serbiya üçün bu həm böyük ilham mənbəyi, həm də Ümumdünya Ətraf Mühit Günü 2027-ni Belqradda daha böyük təsir səviyyəsinə çatdırmaq üçün məsuliyyətli bir çağırışdır".

Çıxışlardan sonra tədbir bədii hissə ilə davam edib, həmçinin ölkəmizə, onun təbiətinə dair videoçarxlar nümayiş olunub.

Tədbir çərçivəsində həmçinin Ümumdünya Ətraf Mühit Günü çərçivəsində açıq hava sərgisi təşkil olunub.

Beynəlxalq tədbir panel müzakirələrlə işini yekunlaşdırıb.

# Xəzər dənizində səviyyə dəyişikliklərinin səbəbləri və regional əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparılıb

**Bakı şəhərində keçirilən 5 İyun - Ümumdünya Ətraf Mühit Günü çərçivəsində "Xəzər dənizi yol ayrıcında: Dəniz səviyyəsinin azalması və regional fəaliyyət üzrə elmi-analitik müzakirə" mövzusunda yüksəksəviyyəli tədbir keçirilib.**




AZƏRTAC xəbər verir ki, tədbir Ekologiya və Təbii Sərvətlər Nazirliyi, BMT-nin Ətraf Mühit Proqramı (UNEP) və Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında Çərçivə Konvensiyası Katibliyinin birgə təşkilatçılığı ilə təşkil olunub.




Tədbirin açılışında ekologiya və təbii sərvətlər nazirinin müavini Rauf Hacıyev çıxış edərək, Xəzər dənizində müşahidə olunan səviyyə azalmasının yaratdığı ekoloji, sosial və iqtisadi risklərə diqqət çəkib, bu istiqamətdə elmi əsaslı yanaşmaların, məlumat mübadiləsinin əhəmiyyətini vurğulayıb.

Panel müzakirələrində dövlət qurumlarının nümayəndələri, yerli və beynəlxalq ekspertlər, elmi-tədqiqat institutlarının mütəxəssisləri, eləcə də beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər. Müzakirələr zamanı Xəzər dənizində səviyyə dəyişikliklərinin səbəbləri, iqlim dəyişmələrinin təsirləri və regional əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparılıb.

# "Su səviyyəsinin 5 metr enməsi Xəzər suitilərinin çoxalma sahələrinin 57-81 faizinin itirilməsinə səbəb ola bilər"

**"Xəzər dənizi nisbətən kiçik səviyyə enmələrinə belə son dərəcə həssasdır. Xüsusilə də bu, ümumi sahənin təxminən üçdəbirini, yəni 115 min kvadratkilometrini təşkil edən Şimali Xəzərə aiddir. Hətta ən optimist ssenaridə, yəni su səviyyəsinin 5-8 metr azalması halında belə, mühüm yaşayış mühitlərinin və ekoloji baxımdan əhəmiyyətli ərazilərin çox böyük hissəsinin itirilməsi baş verə bilər".**



AZƏRTAC xəbər verir ki, bunu Lids Universitetinin mühazirəçisi Simon Qudman Bakıda Ümumdünya Ətraf Mühit Gününə həsr olunmuş beynəlxalq tədbir çərçivəsində keçirilən "Xəzər dənizi dönüş nöqtəsində: Dəniz səviyyəsinin azalması və regional fəaliyyət üzrə elmi analitik müzakirə" adlı panel müzakirədə çıxış edərkən deyib.

S.Qudman qeyd edib ki, Xəzərin əsas növləri hesab olunan Xəzər suitisi və nərəkimilər üçün də vəziyyət olduqca narahatedicidir: "Su səviyyəsinin 5 metr enməsi Xəzər suitilərinin mövcud çoxalma sahələrinin təxminən 57-81 faizinin itirilməsinə səbəb ola bilər. Eyni zamanda nərəkimilərin yayılma arealında da ciddi azalma baş verəcək və onların çay sistemlərinə çıxışı əhəmiyyətli dərəcədə məhdudlaşacaq. Bu isə həmin növlərin yaşayışına və çoxalmasına ciddi təsir göstərəcək".

# *BƏƏ politoloqu:* "Bakı və Əbu-Dabi ikitərəfli əməkdaşlığın yeni gündəliyini formalaşdırır"

**"Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında münasibətlər getdikcə strateji və institusional xarakter alır, iqtisadiyyat və təhlükəsizlikdən texnologiya və təhsilə qədər geniş sahələri əhatə edir".**



BƏƏ politoloqu Salem Alketbi bu fikri AZƏRTAC-ın saytında yayımlanan "Azərbaycan və dünya" proqramının son buraxılışında bildirib. Onun sözlərinə görə, 2026-cı ilin aprel ayında Bakıda keçirilən Azərbaycan və BƏƏ arasında Strateji Tərəfdaşlıq üzrə Əməkdaşlıq Komitəsinin ikinci iclası bu tendensiyanın mühüm təsdiqi olub.

Ekspert qeyd edib ki, tərəflər uzunmüddətli qarşılıqlı fəaliyyətin davamlı mexanizmlərini hazırlayır və 2025-2029-cu illər üçün birgə yol xəritəsi çərçivəsində konkret layihələr həyata keçirirlər.

O, iki dövlət arasında əməkdaşlığın çoxdan ənənəvi diplomatiyadan kənara çıxdığını və getdikcə daha əhatəli olduğunu vurğulayıb.

Politoloqun sözlərinə görə, Azərbaycan və BƏƏ təkcə ikitərəfli deyil, həm də Yaxın Şərq və Cənubi Qafqazdakı daha geniş proseslər kontekstində vacib tərəfdaşlara çevrilir.

# *Türk ekspert:* "Ankara və Bakının qlobal nəqliyyatda əhəmiyyəti durmadan artacaq"

**"Qlobal transformasiya və son onilliklərin çağırışları fonunda türk dünyasının, xüsusilə Azərbaycan və Türkiyənin nəqliyyat və logistika sektorunda əhəmiyyəti kəskin şəkildə artıb. Bu reallıq ABŞ, Avropa İttifaqı və türk dövlətlərinin iştirak etdiyi böyük layihələrə açıq maraq göstərən digər aktorlar tərəfindən diqqətdən kənarda qalmayıb".**




Bu fikri beynəlxalq münasibətlər və siyasət üzrə türkiyəli ekspert Damla Taşkın AZƏRTAC-a verdiyi müsahibədə səsləndirib. Onun sözlərinə görə, iki qardaş ölkə arasında sıx əməkdaşlıq Ankara və Bakının mövqelərinin möhkəmləndirilməsi üçün xüsusilə əhəmiyyətlidir və prezidentlər Rəcəb Tayyib Ərdoğan və İlham Əliyevin diplomatiyası prosesə güclü təkan verib.

Ekspert Zəngəzur dəhlizinin Orta dəhlizin mühüm bir hissəsi kimi istifadəyə verilməsi ilə bağlı aktiv müzakirələri vurğulayıb. O qeyd edib: "Müasir dünyada ənənəvi nəqliyyat dəhlizləri müharibələrin və böhranların səbəb ola biləcəyi qəfil şoklara qarşı həssasdır. Bu baxımdan Orta dəhliz, Hicaz dəmir yolu və ya "İnkişaf Yolu" layihəsi kimi alternativ marşrutların əhəmiyyəti artmaqdadır. Bu marşrutların dəyəri getdikcə daha aydın görünür", - deyə D.Taşkın bildirib.

Agentliyin həmsöhbəti Türkiyə və Azərbaycanın qlobal ticarət və nəqliyyatdakı əhəmiyyətinin qarşıdakı illərdə durmadan artacağına əminliyini ifadə edib.

"Nəqliyyat aktiv müzakirə mövzusu olaraq qalır və bu sahəyə investisiyalar artır. Əminəm ki, nəqliyyat və logistika təşəbbüslərinin həyata keçirilməsində müşahidə olunan müsbət tendensiya digər sahələrə də yayılacaq. Türk Dövlətləri Təşkilatı bunun üçün vacib platforma rolunu oynayır", - deyə türkiyəli ekspert qeyd edib.

# Azərbaycanın enerji manifesti: suveren iradənin təntənəsi

**"Bakı Enerji Həftəsi" Azərbaycanın qlobal enerji xəritəsindəki güclənən mövqeyini növbəti dəfə təntənəli şəkildə nümayiş etdirən siyasi hadisə, Prezident İlham Əliyevin tədbirin rəsmi açılış mərasimindəki konseptual çıxışı isə Azərbaycanın qlobal geosiyasi və geoiqtisadi arxitekturadakı sarsılmaz mövqeyini bir daha nümayiş etdirən tarixi əhəmiyyətə malik mesajlar paketi idi.**

Daha dəqiq desək, səslənən tezislər, sadəcə, qazanılan uğurların hesabatı deyil, həm də dövlətimizin milli maraqlarını və beynəlxalq hüququ ön plana çıxaran, qlobal güclərə ünvanlanmış kəsərli bir manifest xarakteri daşıyırdı. Bu mənada dövlət başçısı öz çıxışında Bakının qlobal enerji təhlükəsizliyindəki rolunu konkret rəqəmlər və faktlarla əsaslandıraraq "Azərbaycanın qlobal enerji bazarında etibarlı tərəfdaş kimi tanınması və bizim təşəbbüslərimizin regionun və Avropanın enerji xəritəsini yenidən formalaşdırdığını" deməsi təsadüfi deyildi.

**Milli Məclisin deputatı Bəhruz MƏHƏRRƏMOV** qəzetimizə açıqlamasında deyib ki, proseslərin praktik gedişi, xüsusən keçən il qaz alan ölkələrin sayının 12, hazırda isə 16-ya çatması faktını xüsusi qabartmaqla, Prezident ilk növbədə həm Azərbaycanın beynəlxalq öhdəliklərinə sadiqliyinə, həm də ölkəmizin Avropanın enerji təhlükəsizliyinin onurğa sütununu təşkil edən, əvəzolunmaz strateji tərəfdaşı kimi mövqeyinin daha da güclənməsinə diqqəti yönəldərək reallıqların Bakının lehinə dəyişməkdə olduğunu nəzərə çarpdırdı: "Dövlət başçısının da ifadə etdiyi kimi, "Bizə ehtiyac var. Bizim qazımıza ehtiyac var və biz bu çağırışlara məsuliyyətlə yanaşırıq". Həqiqətən də, cəmi bir neçə il əvvəl Azərbaycanın təbii qazını alan ölkələrin coğrafiyası ilə bugünkü mənzərə arasında kəskin müsbət fərq var və bu fərq artmaqda davam edir. COP29 ərəfəsində Azərbaycanı "qazıntı yanacağı" ölkəsi olmaqda ittiham edən bəzi Qərb dairələrinin ikiüzlü siyasətini ifşa etməklə cənab Prezidentin çıxışının məzmunu, eyni zamanda ekoloji populizmə qarşı ən yaxşı "praqmatizm dərsi" oldu. "Biz bəzi beynəlxalq media resurslarında və Qərb dairələrində Azərbaycana qarşı əsassız hücumların şahidi oluruq. Bizi qazıntı yanacağına sahib olduğumuza görə günahlandırırlar. Bu, tamamilə ədalətsizlikdir. Tanrının bizə verdiyi təbii sərvətlərə görə heç kim bizi ittiham edə bilməz. Bu, bizim günahımız deyil, bu, bizim üstünlüyümüzdür" deyərək dünyanın hələ uzun müddət qazıntı yanacağı olmadan yaşaya bilməyəcəyinə bir daha diqqət çəkən dövlət başçısı haqlı olaraq öz enerji təhlükəsizliyini xilas etmək üçün Bakıdan daha çox qaz istəyən dairələrin bizi qınamasını absurd adlandırdı. Bu riyakarlığı ifşa etməklə cənab İlham Əliyev bir daha ölkəmizin milli maraqları çərçivəsində öz təbii resurslarından suveren şəkildə istifadə edəcəyini bildirməklə müstəqil siyasi iradəmizin sarsılmazlığını qətiyyətlə göstərdi. Yəni Azərbaycan diktə ilə hərəkət edən ölkə deyil, diktə edən və qlobal gündəliyi müəyyənləşdirən suveren aktordur. Biz öz milli maraqlarımızı qətiyyətlə qoruyur, eyni zamanda beynəlxalq hüququ hər şeydən uca tuturuq. Heç bir kənar təzyiq və ya "yaşıl pərdə" arxasında gizlənən siyasi manipulyasiya Bakının strateji kursunu dəyişməyə qadir deyil".

Deputat qeyd edib ki, digər tərəfdən, biz yalnız ənənəvi yanacaq növlərində kortəbii israrın tərəfdarı deyilik və Bakı Enerji Həftəsi çərçivəsində "yaşıl enerji" layihələrinə ayrılan diqqət Bakının həm ənənəvi, həm də bərpaolunan enerjinin sintezinin lokomotivi olduğunu sübut edir. Azərbaycan bu gün neft-qaz gəlirlərini birbaşa gələcəyin "yaşıl texnologiya"larına investisiya edir. Prezidentin də qeyd etdiyi kimi, COP29-a evsahibliyi etməyimiz bu mövqeyin beynəlxalq səviyyədə təsdiqi, habelə qlobal səviyyədə qəbulu sayılmalıdır. Dövlət başçısı bunu da bildirmişdir: "Bizim məqsədimiz təkcə qazıntı yanacağı ixrac etmək deyil, həm də "yaşıl enerji"nin mühüm təchizatçısına çevrilməkdir. Biz neft və qazdan əldə etdiyimiz gəlirləri bərpaolunan enerji mənbələrinin yaradılmasına yönəldirik".



B.Məhərrəmov vurğulayıb ki, Azərbaycan hazırda beynəlxalq tərəfdaşları ilə birlikdə Xəzər dənizindən Avropaya uzanacaq "yaşıl enerji" dəhlizlərinin layihələndirilməsi üzərində işləyir: "Bu, ölkəmizin qlobal iqlim dəyişikliyi ilə mübarizəyə verdiyi real və praqmatik töhfədir. Siyasi populizmdən uzaq olan bu yanaşma həm iqtisadi mənfəəti, həm də ekoloji məsuliyyəti özündə birləşdirir. ABŞ Prezidenti Donald Trampın Bakı Enerji Həftəsinə ünvanladığı məktubda Azərbaycanı "regionda çox mühüm tərəfdaş" adlandırması da məhz bu zəmində şərh olunmalıdır və cənab Prezidentin yürütdüyü balanslaşdırılmış və qətiyyətli diplomatiyanın növbəti beynəlxalq etirafıdır. Ağ Evdən gələn bu ismarış göstərir ki, qlobal güclər Azərbaycanın regiondakı mərkəzi rolunu və onsuz heç bir böyük layihənin baş tutmayacağını tam dərk edirlər. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan həm Şərq, həm də Qərb üçün etibarlı, proqnozlaşdırıla bilən və müstəqil tərəfdaş statusunu möhkəmləndirib".

Deputat bildirib ki, Prezident İlham Əliyevin Bakı Enerji Həftəsindəki çıxışı Azərbaycanın enerji strategiyasının milli suverenliyin sarsılmaz zəmanəti olduğunu bir daha təsdiq etdi. Cari gedişat, o cümlədən beynəlxalq reaksiyalar da göstərir ki, Prezident İlham Əliyev elə bir geosiyasi konfiqurasiyaya nail olub ki, Azərbaycan həm ənənəvi, həm də gələcəyin "yaşıl enerji" xəritəsində güc mərkəzi olaraq qala biləcək. Bakıdan verilən mesajlar bütün dünyaya bəyan etdi ki, Azərbaycan öz yolunu özü seçir və bu yol regiona sabitlik, Avropaya təhlükəsizlik, qlobal miqyasda isə ədalətli əməkdaşlıq vəd edir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Artıq müvəqqəti sığınacaqların deyil, firavan gələcəyin xronikası yazılır

**Azərbaycan dövlətinin yürütdüyü siyasətin mərkəzində hər zaman insan amili və vətəndaş rifahı dayanır. Ötən otuz il ərzində məcburi köçkün soydaşlarımızın sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ölkəmizdə misilsiz layihələr icra olunub. Məcburi köçkünlərlə bağlı həyata keçirilən hüquqi və sosial islahatlar Azərbaycanın postmünaqişə dövründə qarşıya qoyduğu strateji hədəflərin tərkib hissəsidir. Uzun illər ərzində məcburi köçkünlərin müdafiəsinə yönəlmiş xüsusi mexanizmlər öz tarixi missiyasını yerinə yetirərək, bu gün mövcud reallıqlara uyğun şəkildə yenidən formalaşdırılır.**



**Milli Məclisin deputatı Kamran BAYRAMOV** qəzetimizə açıqlamasında deyib ki, məcburi köçkünlərin sosial və humanitar problemlərinin həlli üçün ölkəmizdə möhkəm hüquqi baza formalaşdırılıb: "Bu məqsədlə dövlət başçısı tərəfindən 75 fərman və sərəncam imzalanıb, parlamentdə 11 qanun qəbul edilib. 2004-cü ildə təsdiqlənən xüsusi dövlət proqramı isə bu sahədə genişmiqyaslı layihələrin yol xəritəsinə çevrilib. Görülən ardıcıl tədbirlər nəticəsində 1990-cı illərin ağır mirası olan çadır düşərgələri 2007-ci ildə, fin tipli qəsəbələr isə 2016-cı ildə tamamilə ləğv edilib. Ölkə rəhbərliyinin tapşırığı ilə 121 yeni qəsəbə və müasir yaşayış kompleksi tikilib. Bununla da 62 mindən çox ailənin, yəni 300 mindən çox soydaşımızın mənzil-məişət şəraiti köklü şəkildə yenilənib. Dövlət dəstəyi təkcə mənzillə məhdudlaşmayıb, həm də insan kapitalının qorunmasına yönəlib. Bu diqqətin nəticəsidir ki, təkcə 2025-2026-cı tədris ilində ali və orta ixtisas məktəblərinə ödənişli qəbul olan 3923 məcburi köçkün statuslu tələbənin təhsil xərcləri tamamilə dövlət büdcəsi hesabına qarşılanıb".

Deputat diqqətə çatdırıb ki, artıq əsas məqsəd vətəndaşların müvəqqəti məskunlaşma şəraitində deyil, öz doğma torpaqlarında dayanıqlı və firavan həyat qurmalarını təmin etməkdir. İşğaldan azad edilmiş ərazilərdə yaradılan müasir yaşayış məntəqələri, geniş sosial infrastruktur və məşğulluq imkanları bu məqsədin uğurla həyata keçirildiyini göstərir. Eyni zamanda keçid dövründə sosial müdafiə tədbirlərinin davam etdirilməsi dövlətin vətəndaş amilinə verdiyi yüksək dəyərin təzahürüdür. "Bu yeni strateji mərhələdə doğma yurdlarına köçən vətəndaşların müasir standartlara cavab verən daimi yaşayış sahələri ilə tam təmin olunması dövlət siyasətinin mərkəzində dayanır. Beləliklə, Böyük qayıdış yalnız insanların doğma yurdlarına qayıdışı deyil, həm də onların sosial rifahının, təhlükəsizliyinin və inkişaf perspektivlərinin təmin olunması deməkdir. Bu proses Azərbaycanın sosial dövlət modelinin gücünü və vətəndaşına göstərdiyi ardıcıl qayğını bir daha nümayiş etdirir", - deyə o əlavə edib.

K.Bayramov qeyd edib ki, göründüyü kimi, artıq müvəqqəti sığınacaqların deyil, doğma torpaqlarda qurulan müasir şəhərlərin, yeni iş yerlərinin açılmasının və firavan gələcəyin xronikası yazılır. Dövlətin öz vətəndaşına olan bu ardıcıl qayğısı isə xalq-iqtidar birliyinin ən böyük rəmzi olaraq tarixə həkk olunur.

*Ə.QABİLQIZI,*
*"Azərbaycan"*

# Osman KEPENEK: "Orta dəhliz Azərbaycanın regional liderliyini möhkəmləndirir"

**"Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xəttinin yükdaşıma qabiliyyətinin illik 1 milyon tondan 5 milyon tona çatdırılması təkcə texniki nailiyyət deyil, həm də Azərbaycanın son onillikdə formalaşdırdığı genişmiqyaslı strateji baxışın mühüm tərkib hissəsi kimi qiymətləndirilməlidir".**



Bunu AZƏRTAC-a açıqlamasında Türkiyənin siyasi şərhçisi, "Akademik Araşdırmalar" beyin mərkəzinin prezidenti Osman Kepenek bildirib. Onun sözlərinə görə, dünya təcrübəsi göstərir ki, iqtisadiyyatını yalnız neft, təbii qaz və digər təbii sərvətlər üzərində quran ölkələr uzunmüddətli perspektivdə müxtəlif iqtisadi risklərlə üzləşirlər. "Azərbaycan isə enerji resurslarından əldə olunan gəlirləri dayanıqlı iqtisadi modelin formalaşdırılmasına yönəltməklə mövcud üstünlüklərini uzunmüddətli inkişaf amilinə çevirməyə çalışır. Orta dəhlizin inkişaf etdirilməsi və BTQ xəttinin daha yüksək yükötürmə imkanları ilə yenidən istifadəyə verilməsi də məhz bu iqtisadi strategiyanın konkret nəticələrindən biridir. BTQ artıq yalnız nəqliyyat və enerji marşrutu funksiyasını yerinə yetirmir, eyni zamanda Azərbaycanın geostrateji mövqeyini gücləndirən mühüm siyasi alətə çevrilib. Azərbaycan özünü yalnız enerji ixrac edən ölkə kimi deyil, həm də Xəzər dənizinin şərq sahillərində yerləşən Mərkəzi Asiya dövlətləri və hətta Çin üçün əvəzolunmaz "Şərq-Qərb" nəqliyyat dəhlizi kimi mövqelendirir", - deyə Osman Kepenek bildirib.

O qeyd edib ki, dünya geosiyasətində baş verən dəyişikliklər bu strategiyaya əlavə dinamika qazandırıb. Rusiya-Ukrayna müharibəsindən sonra Rusiya ərazisindən keçən Şimal dəhlizinin qlobal logistika baxımından etibarlılığı əhəmiyyətli dərəcədə zəifləyib. Təchizat zəncirlərində yaranan problemlər və beynəlxalq ticarət şəbəkələrində müşahidə olunan həssaslıq əvvəllər alternativ hesab edilən marşrutları əsas seçimlərdən birinə çevirib. Azərbaycan bu geosiyasi transformasiyanı vaxtında qiymətləndirərək nəqliyyat və logistika infrastrukturuna investisiyaları sürətləndirib. Orta dəhlizin 2026-cı ilin fevralında keçirilmiş Münxen Təhlükəsizlik Konfransında Avrasiya bağlantıları, nəqliyyat şəbəkələri və təchizat təhlükəsizliyi ilə bağlı müzakirələrin əsas mövzularından biri olması da bunun göstəricisidir. Konfrans çərçivəsində aparılan müzakirələrdə Orta dəhlizin Avropa ilə Asiya arasında iqtisadi və strateji əlaqələrin gücləndirilməsi baxımından əhəmiyyətinə xüsusi diqqət yetirildi. Azərbaycan Prezidenti İlham Əliyev də layihəni regional əməkdaşlıq, iqtisadi inteqrasiya və sabitlik məqsədləri ilə əlaqələndirdi. Bu, Orta dəhlizin yalnız nəqliyyat marşrutu deyil, eyni zamanda regional əməkdaşlığı təşviq edən diplomatik və geosiyasi vasitə kimi qəbul olunduğunu göstərir.

"Orta dəhlizin qarşısında duran bəzi struktur problemlər də nəzərə alınmalıdır. Marşrutun əsas zəif tərəflərindən biri fasiləsiz quru və dəmir yolu bağlantısının tam formalaşmamasıdır. Şimal marşrutundan fərqli olaraq, Orta dəhlizdə Xəzər dənizinin hələ də bərə vasitəsilə keçilməsi zərurəti mövcuddur və əlverişsiz hava şəraiti müəyyən hallarda yükdaşımaların tempinə təsir göstərə bilər. Həmçinin Xəzər hövzəsində limanların yükötürmə imkanlarının artırılması istiqamətində əlavə investisiyalara ehtiyac var. BTQ-nin potensialından tam istifadə olunması üçün rəqəmsallaşma prosesinin sürətləndirilməsi, gömrük prosedurlarının optimallaşdırılması və region ölkələri arasında koordinasiyanın institusional əsaslarla möhkəmləndirilməsi vacibdir. BTQ-nin modernləşdirilməsi Azərbaycan üçün iqtisadiyyatın şaxələndirilməsi, geosiyasi çəkisinin artırılması və regional inteqrasiyada aparıcı aktora çevrilməsi baxımından çoxşaxəli strateji addımdır. Yükötürmə qabiliyyətinin artırılması bu istiqamətdə atılmış mühüm mərhələdir", - deyə Osman Kepenek bildirib.

O əlavə edib ki, növbəti mərhələdə Azərbaycan fiziki infrastrukturla yanaşı, institusional və rəqəmsal transformasiyanı da eyni strateji baxış çərçivəsində həyata keçirməlidir. Münxendə keçirilən görüşlər zamanı Prezident İlham Əliyev regional bağlantıların yalnız dəmir yolu layihələri ilə məhdudlaşmayacağını, eyni zamanda Xəzər dənizinin dibi ilə fiber-optik kommunikasiya xəttinin çəkilməsi istiqamətində də işlərin aparıldığını bildirib.

Osman Kepenek sonda vurğulayıb ki, həyata keçirilən bütün bu layihələr nəticəsində Orta dəhlizin funksionallığı daha da artacaq və Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə birlikdə Azərbaycan Avrasiyanın yeni logistika memarlığının əsas dayaqlarından birinə çevriləcək.

# Milli Məclisin komissiyası CNN-in informasiya təxribatına dair bəyanat yayıb




**Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyası CNN-in məqsədyönlü informasiya təxribatına dair bəyanat yayıb.**

AZƏRTAC-ın məlumatına görə, bəyanatda qeyd edilib ki, 2026-cı il iyunun 5-də CNN transmilli media şirkəti "İsrail İran müharibəsi zamanı region üzrə gizli şəbəkənin bir hissəsi olaraq Azərbaycana qoşun göndərdi" başlıqlı məqaləsində adları açıqlanmayan mənbələrə istinad edərək Azərbaycana qarşı informasiya təxribatına yol verib.

Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiyası bu məlumatın Yaxın Şərqdə sülh prosesinə, habelə Azərbaycanın milli maraqlarına və beynəlxalq nüfuzuna xələl gətirmək məqsədilə yayıldığını və dezinformasiya kampaniyasının bir hissəsi olduğunu bəyan edir.

"İlk növbədə qeyd olunmalıdır ki, mühüm diplomatik və siyasi hadisələr, qlobal beynəlxalq tədbirlər və ya proseslərin astanasında CNN və oxşar media quruluşları tərəfindən Azərbaycana qarşı hədəflənmiş informasiya kampaniyasının aparılması artıq birinci hal deyil.

Komissiyanın apardığı monitorinq zamanı müəyyən edilib ki, adıçəkilən məqalə paylaşıldıqdan dərhal sonra "fürsətçi amplifikasiya" taktikası və prosesi nəticəsində bu anti-Azərbaycan narrativ dünya üzrə əksər nüfuzlu media orqanlarında, habelə "X", "Threads", "Facebook" və "Telegram" kimi sosial media platformalarında sürətlə yayılaraq kampaniya halını alıb.

Məqalə müəlliflərinin sonda daim Azərbaycanın əleyhinə olan mövqeyi ilə seçilən və vaxtilə "Soros Fondu"nun maliyyələşdirdiyi media layihələrində fəaliyyət göstərən şəxsə müraciət etməsi isə məsələnin haradan qaynaqlandığını ehtimal etməyə əsas verir.

Müvafiq dövlət qurumlarımız tərəfindən də dəfələrlə bəyan edildiyi kimi, ölkəmizdə heç bir xarici dövlətin hərbi qüvvələri (qoşunları) və ya bazaları yoxdur və Azərbaycan Respublikasının ərazisindən üçüncü dövlətlərə qarşı hansısa qeyri-dost fəaliyyətlərin aparılması mümkün deyil.

Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiya CNN-i bu məqalənin əsassızlığı barədə açıqlama verməyə və ya iddialarını sübut edəcək faktları ictimaiyyətə təqdim etməyə çağırır.

Əks halda CNN doğrulanmamış və anonim mənbələrə söykənərək geniş beynəlxalq əhatə dairəsinə malik materiallar yaymaqla hibrid təhdidlərin vacib komponentləri sayılan informasiya əməliyyatları, saxta narrativlər və dezinformasiya kampaniyalarında alət rolunu oynadığını bir daha təsdiq etmiş olacaq", - deyə Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyasının bəyanatında vurğulanıb.

# CNN-dən əsassız iddiaların yayıldığı məqalənin təkzib edilməsini gözləyirik

**İyunun 5-də "CNN World" xəbər kanalının internet səhifəsində dərc olunmuş məqalədə Azərbaycan ərazisinin guya İrana qarşı hərbi və ya kəşfiyyat əməliyyatları üçün istifadə edilməsi, guya İsrailə məxsus qüvvələrin Azərbaycan ərazisində yerləşdirilməsi barədə əks olunmuş iddialar tamamilə əsassızdır və onları qətiyyətlə rədd edirik.**

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadənin "CNN World"də dərc olunmuş məqalədə Azərbaycanla bağlı əsassız iddialara dair şərhində yer alıb.

Bildirilib ki, sözügedən məqalədə yer alan iddialar Azərbaycan tərəfindən dəfələrlə təkzib edilib və bu mövqe CNN-in sorğusuna cavab olaraq əvvəlcədən redaksiyaya rəsmi qaydada təqdim edilib.

Heç bir tutarlı sübut ortaya qoyulmadan, anonim mənbələrə əsaslanan və Azərbaycanın rəsmi mövqeyini nəzərə almayan iddiaların yayımlanması jurnalistikanın obyektivlik, qərəzsizlik və peşəkar etika prinsipləri ilə ziddiyyət təşkil edir.

Dəfələrlə bəyan edildiyi kimi, Azərbaycan ərazisinin hər hansı üçüncü dövlətə qarşı hərbi əməliyyatlar, kəşfiyyat fəaliyyəti və ya digər düşmən xarakterli məqsədlər üçün istifadə olunması barədə iddiaların heç bir əsası yoxdur. Ölkəmiz bu kimi fəaliyyətlərə heç vaxt icazə verməyib və verməyəcək.

"Azərbaycan regionda sülhün, sabitliyin və mehriban qonşuluq münasibətlərinin təşviqinə sadiqdir. Bu kimi əsassız və heç bir sübuta əsaslanmayan iddialar növbəti dezinformasiya cəhdidir. CNN-dən əsassız iddiaların yayıldığı bu məqalənin təkzib edilməsini gözləyirik", - deyə şərhdə qeyd edilib.

# CNN-in Azərbaycanla bağlı iddiaları kobud informasiya manipulyasiyasıdır

**İyunun 5-də CNN özünün uydurduğu "mənbələrə" istinad edərək İsrailin İranla apardığı müharibə zamanı guya Azərbaycan ərazisindən istifadə etməsi ilə bağlı iddiaların yer aldığı material yayımlayıb. Dünyanın tanınmış transmilli media şirkətinin heç bir fakta istinad etmədən açıq-aşkar feyk məlumat tirajlamasını məqsədli şəkildə həyata keçirilmiş kobud informasiya manipulyasiyası hesab edirik.**

AZƏRTAC xəbər verir ki, bu fikirlər Medianın İnkişafı Agentliyinin açıqlamasında yer alıb.

Bildirilib ki, dezinformasiya yaymaqla media etikasının dəyərlərinə və xəbərdə balansın qorunması kimi peşəkar jurnalistikanın təməl prinsiplərinə məhəl qoymayan CNN özünün reputasiyasını ləkələməklə yanaşı, həm də hibrid müharibənin propaqanda aləti kimi çıxış edib.

CNN-in yaydığı dezinformasiya Azərbaycana və bütünlükdə regional təhlükəsizliyə qarşı yönəlmiş siyasi təxribatdır. Bu məlumatın yayılması beynəlxalq ictimaiyyətdə çaşqınlıq yaratmaqla yanaşı, regional sabitliyə və dövlətlərarası münasibətlərə zərbə vurmağa, regionda gərginlik yaratmağa hesablanıb.

Dəfələrlə ən yüksək rəsmi səviyyədə bəyan edilib ki, Azərbaycan Respublikası ərazisindən heç bir halda İran İslam Respublikasına qarşı istifadə olunmayıb və bu qəbildən olan uydurma, qərəzli məlumatlar kobud informasiya manipulyasiyasıdır.




"Regional təhlükəsizliyi təhdid edən, media etikası və jurnalist peşəkarlığı prinsiplərinə zidd formada məlumat yayaraq ictimai rəyi çaşdırmağa çalışan CNN-dən təkzib verməsini və Azərbaycandan üzr istəməsini tələb edirik", - deyə açıqlamada qeyd olunub.

# XİN Azov dənizində Azərbaycan vətəndaşlarının olduğu gəmilərə hücumla bağlı açıqlama yayıb

**Dünən gecə saatlarında heyətində ümumilikdə 25 nəfər Azərbaycan vətəndaşının olduğu iki xarici yük gəmisinə dron hücumları həyata keçirilib. Gəmilər Azərbaycan dövlətinə məxsus deyil.**

Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, bu fikri Nazirliyin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə Azov dənizində Azərbaycan vətəndaşlarının olduğu gəmilərin vurulması ilə bağlı yerli medianın sualını cavablandırarkən deyib. A.Hacızadə bildirib ki, hücum nəticəsində ümumilikdə 5 nəfər vətəndaşımızın həlak olduğu, 3 nəfərin isə yaralandığı barədə Rusiya tərəfindən müvafiq məlumat daxil olub. Yaralılar Yeysk şəhər xəstəxanasına yerləşdiriliblər.

"Hazırda məsələ ilə bağlı Xarici İşlər Nazirliyi tərəfindən aidiyyəti dövlət qurumlarımız, ölkəmizin diplomatik nümayəndəlikləri, habelə müvafiq ölkələrin səlahiyyətli qurumları ilə əlaqələndirmə işləri həyata keçirilir. Rusiyadakı səfirliyimizin bir neçə əməkdaşı hadisə yerinə yola düşüb. Vətəndaşlarımızın vəziyyəti, onların ölkəyə qaytarılması və zəruri konsulluq dəstəyinin göstərilməsi məsələləri diqqətdə saxlanılır.

Həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə şəfa tapmasını arzulayırıq", - deyə o əlavə edib.

# Leyla Əliyevanın təşəbbüsü ilə icra olunan "Gənc arıçı" layihəsi Yevlaxda uğurla yekunlaşıb









**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Gənc arıçı" layihəsi Yevlax rayonunda uğurla yekunlaşıb.**

AZƏRTAC xəbər verir ki, layihə çərçivəsində Yevlax rayonundan müraciət edən 20 gənc ailə seçilərək cari il ərzində xüsusi təlim proqramına cəlb olunub. Təlimlər zamanı iştirakçılara təcrübəli arıçılar tərəfindən həm nəzəri biliklər, həm də praktik bacarıqlar aşılanıb. Proqramı başa vuran iştirakçılara arıçılıq təsərrüfatı qurmaq üçün arı ailələri, pətəklər, arıçı geyimləri, balsüzən aparat və digər zəruri avadanlıqlar təqdim edilib. Bununla da gənc ailələrin müstəqil təsərrüfat fəaliyyətinə başlaması üçün lazımi şərait yaradılıb.

Növbəti dövrdə isə layihə iştirakçılarına təsərrüfatlarının inkişafı, məhsuldarlığın artırılması, istehsal etdikləri təbii bal məhsullarının təqdimatı və satışı istiqamətində dəstək göstərilməsi davam etdiriləcək.

Xatırladaq ki, "Gənc arıçı" layihəsi IDEA İctimai Birliyi, Gənclər Fondu, Dövlət Məşğulluq Agentliyi və ABAD publik hüquqi şəxsin tərəfdaşlığı ilə 2021-ci ildən həyata keçirilir. Bu günədək layihə çərçivəsində ölkənin müxtəlif regionlarında yaşayan 80-dən çox gənc ailəyə arıçılıq təsərrüfatının qurulmasına dəstək göstərilib. Layihə iştirakçılarının istehsal etdikləri təbii bal məhsulları müxtəlif bal festivalları və yarmarkalarında təqdim olunub.

Layihənin xüsusi məqamlarından biri də Leyla Əliyevanın ötən dövr ərzində regionlara səfərləri zamanı "Gənc arıçı" layihəsinin iştirakçılarını evlərində ziyarət etməsi, onların təsərrüfatları ilə tanış olması, fəaliyyətləri ilə maraqlanması və dəstək göstərməsidir.

Qeyd edək ki, "Gənc arıçı" layihəsinin əsas məqsədi biomüxtəlifliyin qorunmasında mühüm rol oynayan arıların ölkə üzrə yayılma arealının genişləndirilməsi, arıçılığın ekosahibkarlıq forması kimi regionlarda təşviqi, ekoloji cəhətdən təmiz kənd təsərrüfatı fəaliyyətlərinin dəstəklənməsi və keyfiyyətli təbii bal istehsalının artırılmasıdır.

Layihə eyni zamanda gənc ailələrin sosial rifahının yaxşılaşdırılmasına, regionlarda dayanıqlı məşğulluğun təmin olunmasına və ailə təsərrüfatlarının inkişafına töhfə verir.

# Bakı Zooloji Parkında Amur pələngi balaları dünyaya gəlib

**Bakı Zooloji Parkında biomüxtəlifliyin qorunması istiqamətində sevindirici və mühüm bir hadisə qeydə alınıb.**





AZƏRTAC xəbər verir ki, nəsli kəsilmək təhlükəsi altında olan Amur pələnginin iki balası dünyaya gəlib.

Amur pələngi öz yarımnövləri içərisində böyüklüyünə görə birincidir. O, qütb və qonur ayıdan sonra quruda yaşayan üçüncü ən böyük yırtıcı hesab olunur. Təbii arealı əsasən Uzaq Şərqi və Çini əhatə edir. Hazırda bu növ Beynəlxalq Təbiəti Mühafizə Birliyinin (IUCN) "Qırmızı siyahı"sına və Rusiya Federasiyasının "Qırmızı Kitab"ına daxil edilib.

Qeyd edək ki, Bakı Zooloji Parkı təbiətin mühafizəsi və biomüxtəlifliyin qorunmasında mühüm rol oynayır. Parkın əsas məqsədi Azərbaycanın "Qırmızı Kitab"ına daxil edilmiş, sayı azalan və nəsli kəsilmək təhlükəsi altında olan heyvan növlərinin qorunub saxlanılması, onların çoxaldılması və yenidən təbiətə buraxılmasıdır.

Belə ki, Azərbaycanın "Qırmızı Kitab"ına daxil olan nəcib maral və ceyranların, həmçinin Dağıstan turunun və Hindistan tirəndazının Zooloji Parkın ərazisində sayı artırılaraq yenidən təbii areallarına qaytarılıb.

# Laçında "Yeni yaşayış məhəlləsi" salınır: layihə yüzlərlə iş yerinin yaranmasına töhfə verəcək

**"Laçın şəhərində növbəti iri layihənin icrasına başlanılır. Şəhərin inzibati ərazisində inşa ediləcək "Yeni yaşayış məhəlləsi" həm mənzil fondunun genişləndirilməsi, həm də yerli əhalinin məşğulluq imkanlarının artırılması baxımından mühüm əhəmiyyət daşıyır".**



AZƏRTAC xəbər verir ki, bu barədə Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin rəsmisi Hüseyn Quliyev bildirib. O qeyd edib ki, artıq layihə üzrə hazırlıq və mobilizasiya işlərinə start verilib. Tikinti müddəti 24 ay olaraq müəyyənləşdirilib. Hazırda ərazidə şaquli planlama və tikinti sahəsinin hazırlanması istiqamətində işlər aparılır.

"Ümumi sahəsi 57 min 470 kvadratmetr olan yeni yaşayış məhəlləsi Laçının şəhərsalma konsepsiyasına uyğun şəkildə layihələndirilib. Burada yalnız yaşayış binalarının deyil, sakinlərin rahatlığı və sosial rifahı üçün zəruri olan ictimai məkanların da yaradılması nəzərdə tutulur. Layihə çərçivəsində idman meydançaları, uşaq oyun sahələri, söhbətgahlar, yaşıllıq zolaqları və istirahət məkanları salınacaq.



Layihəyə əsasən ərazidə 19 çoxmənzilli yaşayış binası inşa ediləcək. Bunlardan 11-i iki bloklu, 8-i isə bir bloklu olacaq. Binalar 3, 4 və 5 mərtəbədən ibarət olmaqla, ümumilikdə, 340 mənzili əhatə edəcək. Layihədə 57 ədəd birotaqlı, 122 ədəd ikiotaqlı, 98 ədəd üçotaqlı, 44 ədəd dördotaqlı və 19 ədəd beşotaqlı mənzilin tikilməsi nəzərdə tutulur", - deyə o qeyd edib.

Nümayəndəliyin rəsmisi onu da bildirib ki, məhəllənin mühüm üstünlüklərindən biri də yaşayış və iqtisadi fəaliyyət imkanlarının bir arada yaradılmasıdır. Belə ki, çoxmənzilli binaların zirzəmi hissələri avtomobil dayanacağı kimi layihələndirilib. Eyni zamanda 10 yaşayış binasının birinci mərtəbəsində qeyri-yaşayış və ticarət sahələri nəzərdə tutulub. Bundan əlavə, ayrıca fərdi ticarət obyekti də inşa ediləcək. Ümumilikdə 3500 kvadratmetr sahənin ticarət və xidmət obyektləri üçün ayrılması gələcəkdə yeni biznes təşəbbüslərinin formalaşmasına, xidmət sektorunun genişlənməsinə və əlavə məşğulluq imkanlarının yaranmasına şərait yaradacaq.

Layihənin sosial-iqtisadi əhəmiyyətini artıran əsas məqamlardan biri isə tikinti prosesində yerli sakinlərin məşğulluğuna üstünlük verilməsidir. Bu barədə danışan Hüseyn Quliyev əlavə edib ki, satınalma şərtlərinə uyğun olaraq qalib podratçı şirkətə tikinti işləri zamanı yerli əmək resurslarından istifadə etməsi tövsiyə olunub. Bu yanaşma layihənin yalnız tikinti infrastrukturu ilə məhdudlaşmadığını, eyni zamanda bölgədə iqtisadi aktivliyin yüksəldilməsinə və yeni iş yerlərinin yaradılmasına xidmət etdiyini göstərir. Layihənin icrası tikinti sektorunda çalışan peşə sahibləri üçün yeni əmək imkanları yaradacaq, gələcəkdə fəaliyyət göstərəcək ticarət və xidmət obyektləri isə daimi məşğulluğun formalaşmasına töhfə verəcək.

"Laçında həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma proqramının tərkib hissəsi olan "Yeni yaşayış məhəlləsi" şəhərin müasir inkişaf konsepsiyasına uyğun yaşayış mühitinin formalaşdırılmasına, iqtisadi canlanmanın sürətlənməsinə və sakinlərin rifahının yüksəlməsinə xidmət edəcək. Layihənin tamamlanması ilə sahibkarlıq fəaliyyəti üçün də yeni imkanlar yaranacaq və bölgənin sosial-iqtisadi inkişafına əlavə təkan veriləcək", - deyə nümayəndəliyin rəsmisi vurğulayıb.

# Rəqəmsal mühitin təhlükəsizliyi uşaqlarımız üçün mühümdür

## Bu, onları psixoloji travmalardan qoruyacaq





**Müasir dövrdə virtual aləm, sosial şəbəkələr təkcə böyüklərin deyil, uşaq və yeniyetmələrin də həyatının ayrılmaz hissəsinə çevrilib. Uşaqlar internet platformaları, sosial şəbəkələr vasitəsilə asudə vaxtlarını keçirir, müxtəlif insanlarla ünsiyyət qururlar. Lakin rəqəmsal platformalar müsbət tərəfləri ilə yanaşı, ciddi kiber-təhdidlər, psixoloji travmaları da özündə ehtiva edir.**

Xüsusən son dönəmlərdə yeniyetmələr arasında sosial şəbəkələrdə təhqir, şantaj və təcrid olunma halları kütləviləşib. Bu, uşaqlarda depressiya, özünəqapanma meyillərini kəskin şəkildə artırır. Şiddət, narkotik maddələrin təbliği və başqa kontentlər uşaqların psixikasını ciddi şəkildə zədələyir. Alqoritmlər uşaqları saatlarla ekrana bağlamaq üçün proqramlaşdırılıb. Bu isə diqqət dağınıqlığına, yuxu pozğunluğuna, real dünyadan qopmaya səbəb olur.

Dünyanın bir çox inkişaf etmiş ölkəsi bu təhlükənin qarşısını almaq üçün hüquqi addımlar atmağa başlayıb. Çünki problemin yalnız valideyn nəzarəti ilə həll olunmadığı sübuta yetirilib. Avstraliya hökuməti 16 yaşdan kiçik şəxslərin sosial şəbəkələrdən istifadəsinə məhdudiyyətlər tətbiq edib. Sosial media platformaları ayda neçə uşağın sosial şəbəkə hesabını bağladıqları barədə məlumat təqdim etməlidirlər. Fransa "rəqəmsal yetkinlik" yaşını 15 olaraq müəyyənləşdirib.

Çin "gənclik rejimi" tətbiq edərək uşaqlar üçün oyun və sosial media vaxtını gündəlik 40 dəqiqə ilə məhdudlaşdırıb, gecə saatlarında isə giriş bağlanır. ABŞ-də 14 yaşdan aşağı uşaqların sosial media hesabı açmasını qadağan edən qanun qəbul edilib. Böyük Britaniya "Onlayn Təhlükəsizlik Aktı" vasitəsilə texnologiya şirkətlərinə uşaqları zərərli məzmundan qorumaq öhdəliyi qoyub, əks halda milyardlarla funt-sterlinq cərimə nəzərdə tutulur.

Avropa İttifaqı Rəqəmsal Xidmətlər Aktı (DSA) çərçivəsində yetkinlik yaşına çatmayanların şəxsi məlumatlarının hədəfli reklamlar üçün toplanmasını qadağan edib.

Azərbaycanda da uşaqların rəqəmsal təhlükəsizliyi məsələsi dövlətin diqqət mərkəzindədir. Bununla əlaqədar olaraq Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə təqdim olunub.

Layihəyə əsasən, 16 yaşı tamam olmamış şəxslərin platformada fərdi rəqəmsal hesablarının yaradılmasına yol verilməyəcək. Təklif olunan dəyişikliyə əsasən, provayderlər bu qanun qüvvəyə mindikdən sonra 16 yaşdan aşağı uşaqlara məxsus mövcud fərdi rəqəmsal hesablara girişin məhdudlaşdırılmasını, şəxsin 16 yaşının tamam olmasını təsdiq edən məlumat təqdim edilmədikdə həmin hesabların və fərdi məlumatlarının silinməsini təmin etməli və bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat verməlidirlər.

16-18 yaşarası uşaqların həyatına, sağlamlığına, cinsi toxunulmazlığına, şərəfinə, ləyaqətinə və qanunla qorunan digər hüquq və azadlıqlarına təhlükə yaradan zərərli məzmunların yayılmasının qarşısının alınması üçün provayder platformada fasiləsiz rejimdə fəaliyyət göstərən və operativ müdaxiləni təmin edən rəqəmsal həlləri tətbiq etməlidir. Belə halların qarşısının alınması üzrə provayderin texniki müdaxilə müddəti zərərli məzmunun aşkar edildiyi andan etibarən 24 saatdan artıq olmamalıdır.

Nəticə etibarilə sosial şəbəkələr idarə olunmadıqda uşaq və yeniyetmələrin həm mənəvi, həm də fiziki sağlamlığını təhdid edən rəqəmsal silaha çevrilir. Azərbaycanda bu məsələyə dair qanunvericilik bazasının beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi təqdirəlayiq və zəruri addımdır. Lakin unutmayaq ki, rəqəmsal gigiyenanın təmin edilməsi təkcə qanunların deyil, həm də cəmiyyətin, təhsil müəssisələrinin və valideynlərin birgə məsuliyyətidir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# "BTQ dəmir yolu xətti regional nəqliyyat sisteminin ayrılmaz hissəsinə çevrilmiş strateji təşəbbüsdür"

**"Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xəttinin tam gücü ilə fəaliyyətə başlaması regionun beynəlxalq ticarət baxımından cəlbediciliyini əhəmiyyətli dərəcədə artırır. Bu layihə iqtisadi, siyasi və mədəni ölçüləri ilə qlobal və regional nəqliyyat şəbəkəsinin mühüm elementlərindən birinə çevrilib".**




Bunu AZƏRTAC-a açıqlamasında türk siyasi şərhçi Emre Diner bildirib.

O hesab edir ki, Bakı-Tbilisi-Qars dəmir yolu xətti yalnız nəqliyyat marşrutu kimi qiymətləndirilməməlidir. 2017-ci il oktyabrın 30-da istismara verilən və iştirakçı ölkələr arasında iqtisadi, siyasi və mədəni əməkdaşlığa mühüm töhfə verən bu layihə regional çərçivələri aşaraq qlobal miqyasda strateji əhəmiyyət daşıyır. BTQ xətti 1990-cı illərdən sonra müstəqillik qazanan türk dövlətlərinin zəngin təbii resursları, iqtisadi potensialı və geniş istehlak bazarı ilə bağlı formalaşdırılan "Yeni İpək Yolu" konsepsiyasının mühüm hissələrindən biri hesab edilməlidir. Bu səbəbdən Avropa İttifaqı ölkələri, ABŞ, Rusiya və Çin kimi beynəlxalq siyasətə və iqtisadiyyata təsir göstərən əsas aktorlar layihə çərçivəsində baş verən prosesləri diqqətlə izləyir və öz siyasətlərini buna uyğun formalaşdırırlar. Bununla yanaşı, qlobal güclər bu marşrutda iştirak etsələr belə, region ölkələrinin, xüsusilə tranzit ölkələrin ciddi iqtisadi dividendlər əldə edəcəyi də reallıqdır.

Türk siyasi şərhçi vurğulayıb ki, BTQ xətti iqtisadi faydalarla yanaşı, marşrut üzərində yerləşən dövlətlərin siyasi təsir imkanlarını da artıracaq. Xüsusilə bu layihə Azərbaycana mühüm üstünlüklər qazandırır. Gürcüstan və Azərbaycan üzərində ABŞ və Rusiya kimi böyük güclərin təsir imkanlarının müəyyən qədər azalması mümkündür. Azərbaycan və Gürcüstan daha müstəqil xarici siyasət həyata keçirmək üçün əlavə imkanlar əldə edə bilərlər. Layihə Türkiyə üçün də geosiyasi, geostrateji və geoiqtisadi baxımdan mühüm əhəmiyyət daşıyır. Türkiyənin Azərbaycan və Gürcüstanla əməkdaşlıq çərçivəsində Xəzər hövzəsində və Cənubi Qafqazda təsir imkanlarını daha da artıracağı gözlənilir. BTQ xətti sayəsində Türkiyə yenidən formalaşan geosiyasi və geostrateji mühitdə regional və qlobal nüfuzunu daha da gücləndirəcək.

"Gələcəkdə Ermənistanla Azərbaycan arasında tam normallaşma prosesinin başa çatması BTQ xəttinin potensialını daha da artıracaq və layihədən əldə edilən faydaları genişləndirəcək. Bu marşrut vasitəsilə ölkələr yeni bazarlara çıxış əldə edəcəklər. Uzunmüddətli perspektivdə həm Azərbaycan, həm də Türkiyə üçün mühüm iqtisadi imkanlar yaranacaq. Türkiyə sərnişin və yükdaşımalarında Mərkəzi Asiya bazarlarına daha sürətli, təhlükəsiz və sərfəli çıxış əldə edəcək. Türkiyə tranzit daşımalar sahəsində mövqeyini gücləndirmək məqsədilə logistika mərkəzlərinin yaradılmasını da davam etdirir. Bu mərkəzlərdən ikisinin BTQ xəttinin keçdiyi Qars və onun yaxınlığında yerləşən Ərzurum bölgəsində yaradılması planlaşdırılır. Logistika mərkəzlərinin tam fəaliyyətə başlaması, yol təhlükəsizliyinin təmin olunması, gömrük prosedurlarının təkmilləşdirilməsi, xidmət keyfiyyətinin artırılması və texnoloji problemlərin aradan qaldırılması əsas hədəflər sırasındadır. Beləliklə, Türkiyə turizm sektoru ilə yanaşı, logistika sahəsində də iqtisadiyyatına ciddi töhfə vermiş olacaq", - deyə ekspert qeyd edib.

Onun fikrincə, Yeni İpək Yolu layihəsi Azərbaycan və Türkiyə üçün yalnız iqtisadi deyil, həm də mədəni baxımdan böyük əhəmiyyət daşıyır. "Türk mədəniyyət coğrafiyasını birləşdirən bu dəmir yolu xətti Azərbaycan, Türkiyə və bütövlükdə türk dünyasında birlik və həmrəylik anlayışının güclənməsinə mühüm töhfə verəcək. Ticarətdə türk dilindən istifadənin genişləndirilməsi, nəqliyyat, mədəniyyət və investisiya layihələrinin sürətləndirilməsi bu prosesə əlavə üstünlüklər qazandıra bilər. BTQ xətti Azərbaycan və Mərkəzi Asiya ölkələrinin neftdənkənar sektorlarının inkişafına da müsbət təsir göstərəcək. Bu layihə yeni logistika mərkəzlərinin yaradılmasına imkan verəcək. Həm Azərbaycan, həm də Türkiyə regional logistika habına çevrilərək iqtisadi və siyasi mövqelərini daha da gücləndirəcəklər", - deyə Emre Diner əlavə edib.

Ekspert sonda bir daha vurğulayıb ki, Bakı-Tbilisi-Qars dəmir yolu xətti yalnız iqtisadi layihə deyil, eyni zamanda siyasi və mədəni ölçüləri ilə qlobal və regional nəqliyyat sisteminin ayrılmaz hissəsinə çevrilmiş strateji təşəbbüsdür.

Onun fikrincə, Yeni İpək Yolu layihəsi Azərbaycan və Türkiyə üçün yalnız iqtisadi deyil, həm də mədəni baxımdan böyük əhəmiyyət daşıyır. "Türk mədəniyyət coğrafiyasını birləşdirən bu dəmir yolu xətti Azərbaycan, Türkiyə və bütövlükdə türk dünyasında birlik və həmrəylik anlayışının güclənməsinə mühüm töhfə verəcək. Ticarətdə türk dilindən istifadənin genişləndirilməsi, nəqliyyat, mədəniyyət və investisiya layihələrinin sürətləndirilməsi bu prosesə əlavə üstünlüklər qazandıra bilər. BTQ xətti Azərbaycan və Mərkəzi Asiya ölkələrinin neftdənkənar sektorlarının inkişafına da müsbət təsir göstərəcək. Bu layihə yeni logistika mərkəzlərinin yaradılmasına imkan verəcək. Həm Azərbaycan, həm də Türkiyə regional logistika habına çevrilərək iqtisadi və siyasi mövqelərini daha da gücləndirəcəklər", - deyə Emre Diner əlavə edib.

Ekspert sonda bir daha vurğulayıb ki, Bakı-Tbilisi-Qars dəmir yolu xətti yalnız iqtisadi layihə deyil, eyni zamanda siyasi və mədəni ölçüləri ilə qlobal və regional nəqliyyat sisteminin ayrılmaz hissəsinə çevrilmiş strateji təşəbbüsdür.

# "Azərbaycan" qəzetinin 1918-1920-ci illərdə çap olunmuş tam külliyyatından XIV cildi işıq üzü görüb

**Azərbaycan Xalq Cümhuriyyətinin orqanı olan və müstəqillik tariximizi əks etdirən "Azərbaycan" qəzetinin bütün nömrələri öz dövründə həyata keçirdiyi missiya ilə yanaşı, bu gün də qiymətli mənbələr kimi tarixi əhəmiyyətini qoruyub saxlayır.**




Özündə tariximizin parlaq səhifələrini əks etdirən "Azərbaycan" qəzetinin bir mənbə kimi dərindən və hərtərəfli tədqiqi, orada yer alan materialların bugünkü və gələcək nəsillər üçün daha rahat şəkildə əlçatanlığının təmin olunması məqsədilə qəzetin ərəb əlifbasından latın qrafikalı müasir Azərbaycan əlifbasına çevrilməsi (transliterasiyası) həyata keçirilir. Bu mühüm layihənin ideya müəllifi ADA Universitetinin rektoru səfir Hafiz Paşayevdir.

AZƏRTAC xəbər verir ki, ADA Universitetinin təşəbbüsü və dəstəyi ilə "Azərbaycan" qəzetinin 1918-1920-ci illərdə çap olunmuş tam külliyyatından XIV cildi latın qrafikasında nəşr edilərək oxucuların ixtiyarına verilib. Doqquzuncu cild 1919-cu ilin noyabr ayını (311-333-cü nömrələri) əhatə edir.

ADA Universitetinin rektoru Hafiz Paşayev topluya yazdığı "Ön söz"də layihənin əhəmiyyətindən, "Azərbaycan" qəzetinin tariximizdəki müstəsna rolundan bəhs edib. O, 1918-1920-ci illərdə nəşr olunan "Azərbaycan" qəzetinin tam külliyyatının ərəb qrafikalı əlifbadan latın qrafikalı müasir Azərbaycan əlifbasına köçürülərək lüğət, izahlar, şərhlər və adlar göstəricisi əlavə edilməklə nəşrə hazırlanmasının önəmini və belə bir nəşrin tədqiqatçılar, bütövlükdə isə oxucular üçün böyük maraq doğuracağını vurğulayıb.

Toplunun XIV cildində hökumət əmrləri, xarici və yerli xəbərlər, xarici mətbuatdan xülasələr, müxtəlif məsələlərə dair müəllif yazıları, Azərbaycan Parlamentində müzakirə olunan qanun layihələri barədə materiallar, həmçinin bədii ədəbiyyat nümunələri yer alıb. Yeni cilddə qonşu ermənilərin xalqımıza qarşı apardığı işğalçılıq və separatçılıq siyasətini əks etdirən məqalələr də dərc olunub. Həmin məqalələr öz əhəmiyyəti, tarixi faktların zənginliyi, bir çox hallarda ilkin mənbə funksiyası daşıması ilə müasir araşdırmaçılar, xüsusilə tarixçilər üçün olduqca qiymətli mənbələrdir. Məqalələri oxuyarkən tarixin təkrarlandığının, əsrin əvvəllərindəki Azərbaycanda baş verən hadisələrlə bugünkü Azərbaycanda baş verən hadisələr arasındakı paralellərin, oxşarlıqların, müəyyən məqamlarda eyniyyətin şahidi oluruq. Məsələn, "Ermənistanda" (4 noyabr, nömrə 313) başlıqlı məqalədə oxuyuruq: "Yerkir" qəzetəsinin əxbaratına nəzərən [xəbərlərinə görə], Türkiyə Qara dəniz sahillində [sahillərində] həyatın namüsait şərait altında olmasından dolayı, Qarasu, Ordu, Qaranlı və Samsun erməniləri böyük dəstələrlə Qafqaziyaya mühacirət etməyə başlamışlardır. Onlara verilən itminanlara [təminatlara] da baxmayaraq, 1915-ci sənə hadisətinin təkərrüründən qorxurlar. Onlar yerlərində qalmadansa, mühacirət edərək fəqr [yoxsulluq] və ehtiyac içində yaşamağı tərcih edirlər, Göründüyü kimi, məqalə tarixdən nəticə çıxarmaq üçün olduqca əhəmiyyətli və vacibdir. Bu mənada ADA Universitetinin xeyirxah təşəbbüsü Azərbaycan xalqının tarixi mirasını qorumaq və gələcək nəsillərə ötürmək baxımından alqışa layiqdir. Həmin nömrədə "Teatro və Musiqi" rubrikasında "Yezid ibn Müaviyə" başlıqlı elan da maraqlıdır: "Bu gün seşənbə [çərşənbə axşamı] günü, təşrini-saninin (noyabrın) 4-də axşam Dövlət Teatrosunda məşhur müvərrix [tarixçi] Corci Zeydanın "Kərbəla yangısı" nam [adlı] əsərindən iqtibas edilmiş "Yezid ibn Müaviyə" nam faciə mövqeyi-tamaşaya qoyulacaqdır. Həmin faciə Mehdi bəy Hacıbababəyov tərəfindən səhnəyə salınmışdır.

Faciə dörd məclis, yeddi şəkildədir. Həmin tamaşa yeni dekorasiya və libaslarla oynanacaqdır.

Tamaşa axşam saat 8 tamamda başlanacaqdır. Biletlər satılır teatrın kassasında..."

Regional əməkdaşlıq və etibarlı tərəfdaşlıq ideyalarını ehtiva edən "Qonşuluq" (5 noyabr, nömrə 314) sərlövhəli məqalə isə o dövrün geosiyasi reallıqlarını işıqlandırmaqla bərabər, müasir dövrün regional münasibətləri baxımından da böyük aktuallıq kəsb edir: "...Azərbaycanın İrandan ötrü ən səmimi bir xeyirxah olduğunu dəlil və sübutlarla isbata bir o qədər də ehtiyac yoxdur. Burasını iranilər özləri yaxşı bilmədur. Aramızda dini, siyasi, ictimai və iqtisadi olaraq ən sıxı bir mərbutiyyət [bağlılıq] və yaxınlıq mövcud olduğu halda, Azərbaycan İrana qarşı bədxahanə bir vəziyyət ixtiyarına yol verməz..."

Qəzetin mətnlərini filologiya üzrə fəlsəfə doktoru Mehdi Gəncəli, filoloq, tərcüməçi Azad Ağaoğlu transliterasiya edib. Nəşrin elmi redaktoru isə akademik Teymur Kərimlidir.

Qeyd edək ki, "Azərbaycan" qəzetinin 1918-1920-ci illərdə nəşr olunmuş 443 nömrəsinin transliterasiya ilə 20 cilddə çapı nəzərdə tutulub.

# Ermənistanın 7 iyun sınağı

## Parlament seçkilərinin nəticələri ölkənin taleyini və erməni xalqının aqibətini müəyyənləşdirəcək

**Ermənistanda sabah parlament seçkiləri keçiriləcək. Mövcud vəziyyət elədir ki, bu ölkədə baş tutacaq seçkilər Ermənistanın daxili məsələsi olmaqla kifayətlənmir. Seçkilərin nəticəsinin Azərbaycan-Ermənistan sülh danışıqlarının gələcəyinə, Ankara-İrəvan normallaşma prosesinə və başqa məsələlərə dolayı yolla təsir göstərəcəyi reallıqdır.**



Parlament seçkilərində mübarizə əsasən üç fərqli siyasi qüvvə arasında gedir. Nikol Paşinyanın rəhbərlik etdiyi "Mülki Müqavilə" partiyası seçkiyə Azərbaycanla sülh prosesini yekunlaşdırmaq, qərbyönlü kursu davam etdirmək, Rusiya ilə məsafə saxlamaq vədləri ilə gedir. İkinci fiqur Samvel Karapetyan və onun "Güclü Ermənistan" Alyansıdır. Karapetyanın rəhbərlik etdiyi bu qüvvə Rusiya ilə münasibətləri bərpa etməyi, Paşinyanın siyasi xəttini tamamilə aradan qaldırmağı hədəfləyir.

Seçki mübarizəsində fəallıq göstərən üçüncü qüvvə isə sabiq prezident Robert Koçaryan və "Ermənistan" blokudur. Bu blok "Qarabağ klanı"nın və terrorçu Daşnaksütyunun təmsil olunduğu revanşist qanaddır. Onlar Azərbaycanla sülhə qarşı çıxır, hakimiyyəti ələ almaq üçün ən radikal metodlardan istifadə etməkdən çəkinmirlər. Qaqik Sarukyan və "Çiçəklənən Ermənistan" partiyası isə oliqarxların maraqlarını təmsil edən, populist bəyanatlar səsləndirən və mövcud şəraitə görə mövqe tutan müxalif qüvvədir.

Yəni Robert Koçaryan, Samvel Karapetyan və Qaqik Sarukyanın rəhbərlik etdiyi qüvvələr birbaşa revanşist siyasi düşərgəni təmsil edirlər. Beləliklə, bir tərəfdə Azərbaycanla əməkdaşlıq və barışın faydalarından bəhs edən Nikol Paşinyan, digər tərəfdə isə Bakını "təhdid" kimi görən, ermənilərə yeni fəlakətlər vəd edən revanşistlər hakimiyyət uğrunda mübarizəyə qalxıblar.

Rəy sorğularına görə Nikol Paşinyan rəqiblərindən xeyli irəlidədir. Onun "Mülki Müqavilə" partiyası sorğularda təxminən 29-30 faiz səslə birincidir. Samvel Karapetyan 6-9 faiz səslə ikinci sırada qərarlaşıb. R.Koçaryana etimad göstərənlər isə 4 faizi keçmir. Sorğularda diqqətçəkən məqam 22 faiz seçici kütləsinin hələ də qərarsız olmasıdır. Ekspertlərin fikrincə, seçkinin taleyini bu kütlə müəyyən edəcək.

Paşinyan rəqiblərindən daha orijinal və rəngli kampaniya aparır. O, seçki kampaniyasını qonşularına qarşı ərazi iddialarından imtina etmiş "Real Ermənistan" şüarı üzərində qurub. Bu çərçivədə Paşinyan Azərbaycanla yekun sülh sazişinin imzalanmasını, Türkiyə ilə normallaşmanı, Qərblə münasibətlərin gücləndirilməsini və ölkənin iqtisadi problemlərinə fokuslanan daha realist idarəetmə modelini müdafiə edir.

Baş nazirin qarşısındakı revanşist müxalifət isə birbaşa lobbi və kilsənin təlimatları ilə oturubdurur. Separatçılığı müdafiə edən bu qüvvələrin hakimiyyəti ələ alması sülh gündəliyinin pozulması, region üçün qeyri-müəyyənlik və gərginlik kimi qiymətləndirilir.

Sorğular hakim komandanın üstünlüyünü, seçkidə qalib olmaq şansının daha çox olduğunu göstərsə də, nəticələrdən sonra həm daxili siyasi proseslər, həm də Ermənistan-Rusiya münasibətlərində yeni gərginlik mərhələsinin yaranması ehtimalı qalmaqdadır. Analitiklərin qənaətincə, seçkidən sonra əsas mübarizə küçələrdə və siyasi müstəvidə davam edə bilər.

Son günlərdə revanşistlərə səs vermək üçün Rusiyada yaşayan Ermənistan vətəndaşlarının rüşvət müqabilində ölkəyə göndərilməsi barədə məlumatlar yayılır. Parlamentin sədri Alen Simonyan belə şəxslərin qeyd-şərtsiz həbs olunacağını bildirib. Ermənistan Baş naziri Nikol Paşinyan isə "üçbaşlı müharibə koalisiyası"nın liderləri - Koçaryan, Karapetyan və S.Sarkisyanın həbs edilməsini zəruri sayıb və onları casus adlandırıb. O bildirib ki, bu şəxslər bütün fəaliyyətlərini himayə altında həyata keçiriblər, bu gün də belədir: "Robert Koçaryan siyasətə müstəqil şəkildə girməyib. 2023-cü ildə onun xarici ölkəyə ünvanladığı xahiş-yalvarış üzə çıxıb, onu siyasətə gətirənlərə deyir ki, yenidən ona kömək etsinlər. O həbsxanaya gedəcək".

Seçki ərəfəsində sui-qəsd cəhdinə məruz qalmış Paşinyanın bu qaniçənləri sıradan çıxarmaq istəyi başadüşüləndir. Çünki Robert Koçaryan və Serj Sarkisyanın hakimiyyətə gəlişləri və idarəçilik dövrləri təkcə Azərbaycanla müharibə kontekstində deyil, həm də Ermənistanın daxili siyasi müstəvisində caniliklə birbaşa xarakterizə olunur. Bu iki terrorçunun siyasi karyerası Azərbaycan torpaqlarında törətdikləri hərbi cinayətlərdən başlayıb. Onlar Qarabağda törədilən qətliamları özləri üçün siyasi kapitala çeviriblər. 1998-ci ildə silah gücü və hədə-qorxu ilə hakimiyyəti qəsb ediblər.

Bu hakimiyyətin ən qanlı səhifəsi 1999-cu ildə Ermənistan parlamentində törədilən terrordur. Canilər öz rəqiblərinin qanı üzərində diktatura qurublar. Sarkisyanın hakimiyyəti Koçaryandan təhvil alması prosesi də qanlı olub. 2008-ci ildə Sarkisyanın prezident seçilməsinə qarşı çıxan ermənilərin üzərinə ordu və ağır texnika yeridilib, 10 nəfər həlak olub, yüzlərlə insan yaralanıb. Yəni Koçaryan və Sarkisyanın müharibə caniliyi ilə siyasi caniliyi bir-birini tamamlayır. O baxımdan, belə şəxslərin yenidən hakimiyyət başına keçməsi erməni xalqı üçün arzuolunan deyil.

Nəticə etibarilə, sabah keçiriləcək seçkilər Ermənistan üçün dövlətçilik tarixinin ən kritik geosiyasi sınaqlarından biridir. Seçicilər sandıq başında real sülh, qonşularla normal birgəyaşayış və suveren gələcək vəd edən Paşinyanla, ölkəni yenidən müharibə alovuna, kilsə-lobbi diktaturasına və yadellilərin girovluğuna sürükləmək istəyən qanlı xətt arasında seçim edəcək. Erməni xalqının seçimi ya bölgədə çoxdan gözlənilən yekun sülhün qapısını açacaq, ya da Ermənistanı daxili xaosun qurbanına çevirəcək.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Qərbi Azərbaycanın düşüncə və mədəniyyət tariximizdə yeri

**Qərbi Azərbaycan və bu tarixi torpaqlara qayıdış konsepsiyası hazırda ölkə siyasətinin prioritet istiqamətlərindən biridir. Söhbət yalnız 1988-ci ildə öz tarixi yurdlarını itirməkdən və ora ləyaqətli qayıdış konsepsiyasının həyata keçirilməsindən deyil, Qərbi Azərbaycanın, ümumiyyətlə, tariximizdəki yeri və əhəmiyyətindən gedir.**

Bu konsepsiyada iki əsas məsələ ehtiva olunur: Azərbaycan tarixinin və mədəniyyətinin tam halda işlənib öyrənilməsi və onun milli kimliyin formalaşmasında rolunun müəyyən edilməsi. Bu addımın əhəmiyyətini göstərən həm 24 dekabr 2022-ci ildə Prezident İlham Əliyevin Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olması və bir qrup ziyalılarla görüşü, həm də məhz Qərbi Azərbaycana aid müəyyən tarixi hadisələrin dövlət səviyyəsində qeyd olunması haqqında sərəncamlar imzalaması oldu. Mirzə Qədim İrəvaninin 200 illiyinin, Aşıq Ələsgərin 200 illik yubileyi və abidəsinin ucaldılması, İrəvan mahalı Uluxanlı məktəbinin 125, İrəvan müəllimlər seminariyasının 140 illiklərinin qeyd olunması öz mədəniyyətinə, düşüncəsinə sahib çıxmaq, əsrlər boyu parçalanan, təhrif edilən milli kimliyinin bərpası deməkdir.

Əhəmiyyətli məqamlardan biri də budur ki, Qərbi Azərbaycana diqqət və dinc yolla öz tarixi vətəninə qayıdış məhz Qarabağ və Şərqi Zəngəzur torpaqlarının işğaldan azad olunmasından sonra aktuallaşdı. Çünki dövlət başçısının da qeyd etdiyi kimi, "Azərbaycan xalqının çoxəsrlik dövlətçilik tarixində Azərbaycan bugünkü qədər güclü olmamışdır. Ona görə müstəqil Azərbaycanın tarixini tədqiq edən, təbliğ edən bir çox əsərlərə ehtiyac var". Başqa sözlə desək, Azərbaycan coğrafi sərhədləri ilə yanaşı, mənəvi, mədəni sərhədlərini də bərpa etməyə başladı. Xatırladaq ki, 44 günlük müharibə zamanı Ali Baş Komandan öz müsahibələrində Dağlıq Qarabağ adlı qondarma problemin 1988-ci ildə başlanmasından daha çox, məhz XIX əsrin əvvəllərindən başlayaraq, azərbaycanın torpaqlarının müqavilələrlə, razılaşmalarla parçalanmasından, ərazisində süni Ermənistan dövləti yaradılmasından, yerli əhalinin sıxışdırılaraq yerinə ermənilərin köçürülməsindən danışırdı. Belə nəticə çıxarmaq olur ki, Qərbi Azərbaycan özündə elə bir tarixi təməl ehtiva edir ki, yad qüvvələr onu işğal etməklə xalqı əsrlər boyu formalaşmış kimliyindən uzaq salmaq istəmişlər və müəyyən mənada buna nail olmağa başlamışlar.

### Qərbi Azərbaycan - dünənlə bu gün arasında körpü

Qərbi Azərbaycan bir vaxtlar rəsmilər tərəfindən süni Ermənistan dövləti yaratmaq xətrinə ölkəmizdən qoparılan ərazilərdir. Bununla belə, hər nə qədər beynəlxalq səviyyədə rəsmi sərhədlər onu ayırsa da, ümumi tarixdə mədəniyyətdən, düşüncədən ayrılmayıb və bütövün hissəsi olaraq qalıb. Deməli, burada artıq silahlar və hərbi gücdən deyil, ləyaqət, yumşaq güc və güclü diplomatiyadan danışmalıdır. Ən vacibi isə, əvvəlcə bu addımı atan şəxslərin özləri Qərbi Azərbaycanın əhəmiyyətini, rolunu, zəruriliyini dərk etməlidir.

AMEA-nın 80 illik yubileyi ilə bağlı keçirilən yığıncaqda dövlət başçısı İlham Əliyev alimlər qarşısında duran prioritet mövzular sırasında Qərbi Azərbaycan üzərində xüsusi dayandı. Bununla prezident əvvəla, bu torpaqların qədim köklərinin öyrənilməsinin zəruriliyini vurğuladı: "Azərbaycan vətəndaşları, Azərbaycan gəncləri bizim zəngin tariximizi bilməlidirlər. Bilməlidirlər ki, Azərbaycan xalqının tarixi, dövlətçilik tariximiz, xalqımızın qurub-yaratma qabiliyyəti çoxəsrlidir. Azərbaycan xalqı böyük coğrafiyada yaşayıb və yaşayır". Bu, xalqın böyüklüyünün, dərin kökə və sabit kimliyə malik olduğunun təsdiqidir və hər bir vətəndaşa, xüsusilə gənclərə böyük bir güvən hissi verir. Bu, dünənlə qürur duyulsa da, keçmişlə kifayətlənmək deyil, uzunəsrlik bir xalqın bu günü və gələcəyi üçün məsuliyyət hissinin doğulması üçün şərtdir. Öz tarixini bilib və kimliyini bu kök üzərində formalaşdırmaq, başqa bir xalqı təqlid etməklə onun kölgəsinə çevrilmək təhlükəsindən qorunmaq üsuludur.

Bu gün sabah üçün tarixdirsə, deməli, bu günün şərəfli səhifələri gələcək nəslə bütün dolğunluğu və həqiqəti ilə ötürülməlidir. Xatırladaq ki, bəzən qürurla "biz tarixi yaradırıq, başqaları yazır" deməyimiz bizim öz əleyhimizə çevrilib, faktlar təhrif olunub və bu, yalanın ayaq tutub yeriməyinə imkan yaradıb. Böyük Zəfərdən sonra dövlət başçısı qılıncla bərabər, qələmin də vacibliyini vurğulayır: "Bizim şanlı Vətən müharibəmizin... hər bir mərhələsi, hər bir günü öyrənilir, öyrənilib və bir çox beynəlxalq hərbi ali məktəblərində də tədqiq edilir". Deməli, onu ən yüksək səviyyədə, tarixin həmin anına layiq şəkildə yazmaq ilk növbədə bizim öz öhdəliyimiz olmalıdır.




Qərbi Azərbaycan özündə böyük mədəniyyətin, şanlı tarixin əhəmiyyətli bir hissəsini ehtiva edir və ondan imtina məhz həmin hissələrdən imtina deməkdir. Əbu Turxanın dediyinə görə, "Cəmiyyətin inkişafında qazanılan hər hansı bir nailiyyət sonradan davam etdirilmirsə, o, böyük müddət intervalında tarixi prosesə daxil ola bilmir". Deməli, tarixin kəsilməzliyi prinsipinə uyğun olaraq yalnız keçmiş sağlam bünövrə üzərində qurulmuş yenilik inkişafa və yüksəlişə səbəb ola bilər. Tarix tarixdə qalmamalıdır, ondan nəticə çıxarılmalıdır, çünki dünənini unudan sabahına əliboş gedər.

Qərbi Azərbaycan bu gün coğrafi olaraq başqa dövlətin tərkibindədir, ancaq mədəniyyəti, kökü olduğu kimi qalır. Bu baxımdan, dövlət başçısının yaddaşın vacibliyini vurğulaması və diqqəti Qərbi Azərbaycan torpaqlarının öyrənilməsinə yönəltməsi taleyüklü məsələdir. Bir var, azərbaycanlı uzaq ellərdə yaşayıb yaradır, Vətəninin orda bir parçasına, simvoluna çevrilir, bir də var tarixi torpaqlarımız taleyin hansısa hökmü ilə yadların tapdağında bizsiz qalıb. Qarabağ torpaqlarına qayıdanda da şahidi olduq ki, torpaq öz sahibi olmayanda viran olur. Zəngəzur, Göyçə, İrəvan da öz sahibinə qovuşmalıdır. Sadəcə, Prezidentin də fərqli zamanlarda dönə-dönə qeyd etdiyi kimi, sülh yolu ilə. Lakin bunun üçün əvvəlcə düşüncələr formalaşmalı, inamlı olmalıdır ki, qarşıdakını da inandıra bilsin. Dövlət başçısı qeyd edir ki, "Azərbaycan alimləri, mən bilirəm və izləyirəm ki, bu istiqamətdə bir çox elmi əsərlər yaradıb. Onların sayı daha çox olmalıdır." Başqa sözlə desək, ərazinin, dövlətin tarixi düşüncənin tarixi ilə qoşa yaradılmalı və yazılmalıdır.

### Qərbi Azərbaycan - ziyalılar məskəni

Qərbi Azərbaycan yalnız tarixin deyil, ümumiyyətlə, Azərbaycan mədəniyyətinin və düşüncə tarixinin əhəmiyyətli hissəsidir. Azərbaycan torpağında həmişə fərqli millətlər mehriban yaşayıb və bu xüsusiyyət daxilən xalqın hər vətəndaşına xasdır. Qədimdən bəri qərbi azərbaycanlılar öz tarixi köklərinə bağlı olmaqla yanaşı, başqa yerlərdə yaşadığı məkana öz istedadı, qabiliyyəti, ağlı ilə ləyaqətlə xidmət etməyi bacarıblar. Təəssüf ki, məhz bu xoş münasibətindən, qonşuya mehribanlığından sui-istifadə edən xainlər Azərbaycanın torpaqları üzərində yeni bir dövlət qurub, ərazilərini işğal ediblər. Ulu Öndər tarixi çıxışlarının birində deyir: "İndi Ermənistan adlanan ərazi, Qərbi Azərbaycan - İrəvan mahalı, Göyçə mahalı, Zəngibasar mahalı, Zəngəzur mahalı - bunlar hamısı müsəlmanlar, azərbaycanlılar yaşayan diyarlar olubdur. Təəssüf ki, bu ərazilərdən, diyarlardan müsəlmanlar çıxarılıblar, indi bu ərazilərdə bir nəfər də olsun müsəlman yoxdur. Bu da Ermənistan millətçiliyi, erməni ekstremizmi, erməni şovinizmi siyasətinin nəticəsidir. Əgər Qafqazda islam sivilizasiyası haqqında danışırıqsa, həqiqəti demək lazımdır". Bu sözlərdə gələcək üçün iki mühüm ismarış var: birincisi, məhz bütöv Azərbaycan xalqı Qafqazda islam sivilizasiyanın qurucusu və inkişaf etdirən qüvvə olub və olacaqdır. İkincisi, hər nə qədər torpaqlar başqa millətlər tərəfindən işğal edilsə də, lap üzərində dövlət qurulsa da, tarixi kökləri məhv etmək mümkün deyil. "İrəvanda Azərbaycan təhsil tarixi" kitabında müəllif Cəlal Allahverdiyevin də vurğuladığı kimi, "Azərbaycan etnomədəni və tarixi coğrafiyası hazırkı inzibati-siyasi coğrafiyasından dəfələrlə böyükdür. Xalqımızın yaratdığı maddi və mədəni irs bu gün bir çox ölkələrin inzibati-siyasi sərhədləri içərisində qalsa da, o mirasın bizə aid olması gerçəkliyini dəyişmir".

Qərbi Azərbaycanda təhsilin, mədəniyyətin, fəlsəfi təfəkkürün inkişafını öyrənəndə belə məlum olur ki, bu ərazilər cənubi Qafqazda bir maarifçilik mərkəzi olmuşdur. Orada bir tərəfdən, başqa millətlərdən gələn təhsil işçiləri, tanınmış təhsil ocaqlarının filialları açılmış, digər tərəfdən, yerli maarifçi, ziyalı şəxslər fəaliyyət göstərmişdir. Ümumilikdə Azərbaycanın düşüncə və mədəniyyət tarixinə nəzər salanda belə məlum olur ki, millətin maariflənməsində, təhsil və mədəniyyətinin inkişafında, bütövlükdə elit təbəqənin formalaşmasında məhz Qərbi Azərbaycan ziyalıları bir mənbə, özək rolunu oynamışdılar.

Əslində, bu fakt bizimlə yanaşı, həmin torpaqlarda indi kök salmağa çalışan xalqlara da məlumdur. Lakin bir qanunauyğunluq da var ki, torpaqda daha dərindən var olan mədəniyyət üst qatda, yaxın zamanlarda süni yolla qurulan psevdo-mədəniyyəti əritmək, yox etmək gücünə malikdir. Bu səbəbdən həmin ərazilərdəki Azərbaycan mədəniyyətinə qarşı bir soyqırımı - mədəni genosid törədilmiş və o, hələ də davam etməkdədir. Qeyd etmək lazımdır ki, mədəni genosid fiziki və siyasi genosiddən fərqli olaraq, təkcə müharibə dövrlərində deyil, dinc zamanlarda da həyata keçirilə bilən bir cinayətdir. Bu isə onun daha gizli, lakin daha təsirli və davamlı xarakter daşımasına səbəb olur. Məhz bu xüsusiyyətinə görə mədəni genosid çox zaman dünya ictimaiyyətinin diqqətindən kənarda qalır. Çünki bu cür siyasətlər bəzən mövcud hakimiyyət tərəfindən "daxili islahat", "tarixi düzəliş" və ya "mədəni inteqrasiya" adı altında legitimləşdirilir. Tarixçi alimlərimizin, məsələn, Könül Səmədovanın, Cəbi Bayramovun, Kərim Şükürovun öz əsərlərində faktlar əsasında təsdiq etdiyi kimi, hələ sovet dövründə Göyçə, Zəngəzur və Qarabağ bölgələrində Azərbaycan mənşəli toponimlərin dəyişdirilməsi, kənd və şəhərlərin adlarının erməniləşdirilməsi, azərbaycanlıların yaratdığı xalı və xalçaların erməni mədəniyyəti kimi təqdim olunması, tarixi abidələrin isə müxtəlif bəhanələrlə dağıdılması mədəni genosidin tipik nümunələrindəndir. Yaxud tarixdən də məlum olduğu kimi, İrəvanda yalnız dini deyil, dünyəvi təhsil də verən mədrəsələr, məktəblər tədricən məhv edilmiş, əsərlər yox edilmiş, ziyalılar qətlə yetirilmişdir. Mədəni genosidin ilk və ən mühüm hədəfi bir xalqın tarixi köklərini, mədəni keçmişini və mənəvi irsini unutdurmaqdır. Bunun üçün həmin xalqın tarixi mənbələri saxtalaşdırılır, abidələr dağıdılır, toponim və etnonimlər dəyişdirilir. Tarixi yaddaşın silinməsi nəticəsində xalq öz kimliyini itirməyə başlayır və yad ideoloji təsirlər qarşısında müdafiəsiz qalır. Məhz bu prizmadan baxanda Qərbi Azərbaycana qayıdışın və həmin əraziyə məxsus mədəniyyətin, tarixin öyrənilməsinin nə dərəcədə əhəmiyyətli olması məlum olur.

❖ ❖ ❖

Bugünkü Azərbaycanın siyasətinə, Qərbi Azərbaycana dinc yolla qayıtmaq istəyinə və bunun üçün apardığı mübarizəyə baxsaq, maraqlı bir nəticəyə gəlmək mümkündür: azərbaycançılıq ideologiyası elə bir gücə malikdir ki, nəinki ölkəmizin tarixi sərhədlərini bərpa edə bilir, həm də qədim torpaqlarındakı köklərini də dirçəltməyə qadirdir.

*Könül BÜNYADZADƏ,*
*AMEA-nın müxbir üzvü, professor*

# REGİONLAR

## Gəncədə "Heydər Əliyev məktəbi" layihəsinə start verilib

**Yeni Azərbaycan Partiyasının (YAP) Gəncə şəhər təşkilatının birgə təşkilatçılığı ilə "Heydər Əliyev məktəbi" layihəsinə start verilmişdir.**



İştirakçılar əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri düzmüşlər. Sonra Göygöl rayonu ərazisində yerləşən "Xan Yurdu" etnoqəsəbəsində layihənin açılış mərasimi olmuşdur. Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canlarından keçən şəhidlərin xatirələri birdəqiqəlik sükutla yad edildikdən sonra tədbiri giriş sözü ilə YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov açmışdır. Qeyd olunmuşdur ki, "Heydər Əliyev məktəbi"nin keçirilməsində əsas məqsəd Ümummilli Lider Heydər Əliyevin zəngin dövlətçilik irsini və ideyalarını partiya üzvlərinə daha əhatəli çatdırmaqdır. Layihə çərçivəsində gənclərin sosial fəallığının artırılması, liderlik bacarıqlarının inkişaf etdirilməsi və asudə vaxtlarının səmərəli təşkili üçün "dəyirmi masa"lar, maarifləndirici görüşlər, intellektual oyunlar, müxtəlif əyləncəli proqramlar və ekskursiyalar təşkil olunacaq.

Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov çıxış edərək qeyd etmişdir ki, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu uğurlu gənclər siyasəti nəticəsində ölkədə vətənpərvər, milli dəyərlərə bağlı və müasir düşüncəli gənc nəsil formalaşıb: "Azərbaycan gəncləri bu gün həm müasir elmi biliklərə yiyələnir, həm də milli-mənəvi dəyərlərə sadiqliyini qoruyub saxlayırlar. Ölkədə gənclərin hərtərəfli inkişafı üçün yaradılan geniş imkanlar onların peşəkar bilik və bacarıqlarının artırmalarına, beynəlxalq təcrübə qazanmalarına və müxtəlif sahələrdə uğurlar əldə etmələrinə hər cür şərait yaradılıb".

Tədbirdə çıxış edən digər natiqlər layihənin əhəmiyyətindən bəhs edərək bu cür təşəbbüslərin gənclərin vətənpərvərlik ruhunda formalaşmasına, dövlətçilik ənənələrinin öyrənilməsinə və ictimai fəallıqlarının artırılmasına mühüm töhfələr verdiyini qeyd etmişlər.

Açılış mərasimindən sonra gənclər arasında komanda şəklində idman yarışları keçirilmiş, əyləncəli proqramlar təşkil olunmuşdur.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Zəmilərin sakitliyi pozuldu

### Neftçalada arpa biçininə başlanılıb

**Neftçala arpa biçininə ən tez başlayan rayondur. Bunun da başlıca səbəbi torpaq və iqlim şəraitidir. Buradakı əkinəyararlı torpaqlar bir vaxtlar Xəzər dənizinin suları altında olan, dənizin geri çəkilməsi ilə quruya çevrilmiş sahələrdir.**

Şübhəsiz ki, bu proses əsrlər öncə baş vermişdir. İndi həmin sahələr qumsal olduğundan günəşin istiliyini daha aktiv qəbul edir ki, bu da bitkilərə öz təsirini göstərir. Rayonun Xəzərkənd kəndindəki ərazilər bu cəhətdən daha xarakterikdir. Xəzərkənd torpaqları suvarılmadığı üçün burada taxıl daha tez yetişir.

Rayonda bir neçə gündür biçinə start verilib. İlk günlər bu iş seçmə yolu ilə həyata keçirilir. Fermerlər mütəxəssislərlə birlikdə arpa zəmilərinə baxış keçirdikdən sonra kombaynlar sahəyə girir. İki-üç gündən sonra biçin kütləvi şəkildə hər tərəfdə aparılacaq.

İyun ayının 3-nə kimi 500 hektarda biçin aparılıb. Hər hektarın məhsuldarlığı orta hesabla 25,8 sentnerdir ki, bu da əvvəlki illərin göstəricilərindən çoxdur. Taxılçı fermerlər məhsuldarlıqdan razılıq edirlər.

Yazın yağmurlu keçməsi bəzi sahələrdə kənd təsərrüfatına müəyyən ziyan vursa da, əksinə, taxılçılığa xeyirli olmuşdur. Buğda zəmilərindən daha yüksək məhsuldarlıq gözlənilir. Məlumat üçün bildirək ki, cari ilin məhsulu üçün keçən ilin payızında Neftçalada 43 min 598 hektara taxıl toxumu səpilib. Bunun 5 min 100 hektarı buğda, qalan 38 min 498 hektarı arpadır. Əkin zamanı toxumla birlikdə torpağa ammofos gübrəsinin verilməsi və aqrotexniki tələblərə vaxtında, habelə keyfiyyətlə əməl olunması yüksək məhsuldarlıq üçün zəmin yaratmışdır.



Biçinin optimal müddətdə itkisiz və qəzasız aparılması üçün "Aqroservis" ASC rayon filialında mütəxəssislərin, fermerlərin və kombaynçıların iştirakı ilə müşavirə keçirilib. Neftçala Dövlət Aqrar İnkişaf Mərkəzində biçinlə əlaqədar qərargah yaradılıb. Biçin kampaniyasının gedişinə nəzarət olunur. Sahələrdə 120 kombayn işləyir.

*S.QUBADOĞLU,*
*"Azərbaycan"*

## ADAU-da akademik Məmmədtağı Cəfərovun 90 illiyi qeyd edilib

**Azərbaycan Dövlət Aqrar Universitetində (ADAU) görkəmli alim, Əməkdar elm xadimi, akademik Məmmədtağı Cəfərovun anadan olmasının 90 illiyi qeyd edilmişdir.**

Tədbir iştirakçıları əvvəlcə akademikin məzarını ziyarət edərək onun xatirəsini yad etmiş, məzarı önünə gül dəstələri düzmüşlər. Sonra tədbir iştirakçıları universitetdə Məmmədtağı Cəfərovun ömür və yaradıcılıq yolunu əks etdirən sərgi ilə tanış olmuşlar.

Tədbiri giriş sözü ilə ADAU-nun rektoru Zəfər Qurbanov açaraq akademikin Azərbaycanda aqrar elm və təhsilin inkişafına verdiyi töhfələrdən danışmış, alimin zəngin elmi irsi və fundamental tədqiqatlarının uzun illər Azərbaycanda aqrar elmin inkişaf istiqamətlərinin formalaşmasında mühüm rol oynadığını diqqətə çatdırmışdır.

Akademik Məmmədtağı Cəfərovun həyat və yaradıcılığına həsr olunan videoçarxın nümayişindən sonra Gəncə Şəhər İcra Hakimiyyəti başçısının müavini Adil Tağıyev, AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova, Respublika Ağsaqqallar Şurasının sədr müavini, akademik Abel Məhərrəmov, Milli Məclisin deputatları Naqif Həmzəyev və Müşfiq Cəfərov, AMEA Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyev,



Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun direktoru, professor İbrahim Cəfərov, AMEA-nın müşaviri, akademik Adil Qəribov, ADAU-nun kafedra müdiri, professor Hasil Fətəliyev çıxış edərək Məmmədtağı Cəfərovun yüksəkixtisaslı kənd təsərrüfatı mütəxəssislərinin hazırlanmasında və aqrar təhsilin inkişafında göstərdiyi xidmətlərdən danışmışlar.

Çıxış edən Şəlalə Cəfərova həyat yoldaşına göstərilən ehtirama və diqqətə görə təşkilatçılara və iştirakçılara minnətdarlığını ifadə etmiş, belə tədbirlərin görkəmli alimlərin həyat və fəaliyyətinin gələcək nəsillərə çatdırılmasında mühüm əhəmiyyət daşıdığını qeyd etmişdir.

*S.YUNİSOĞLU,*
*"Azərbaycan"*

● Reportaj

## Təbiətin şıltaqlığı pambıqçıları qorxutmur

**Sahənin o başından cərgələr arası ilə aşağı sürətlə gələn kultivator bizə çatanda dayanır. Traktorun sürücüsü Novruz Abasov kabinədən düşüb bizə yaxınlaşır. Baş aqronom Füzuli Quliyev bizi mexanizatorla tanış edir: "Müəssisəmizin ən işgüzar mexanizatorlarından biridir. Artıq 17 ildir ki, bu işlə məşğuldur. Sahibkarların hamısı ondan razılıq edirlər. Çalışır bir dənə də olsun pambıq kolunun burnu qanamasın".**

Baş aqronom torpaq mülkiyyətçisi Lətif Dadaşovla və mexanizator Novruzla birlikdə cərgələr arasına çəkilən kultivasiyanı diqqətlə nəzərdən keçirirlər. Aqronom mexanizatora: "Ay Novruz, iş orqanları hər iki tərəfdən cərgədən bir az aralıdır. Məsləhətdir, onları cərgəyə tərəf 5-6 santimetr çəkəsən. Onda işçi orqanlar bitkilərə lazımi yaxınlıqdan gedər. Bu da boy atmaqda olan kolların dibini yaxşı yumşaldar və onların inkişafını sürətləndirər". Mexanizator "Baş üstə, indicə həll edərəm", - deyib traktorun kabinəsinə qalxır, bir neçə açar götürüb deyilən tapşırığı yerinə yetirməyə başlayır. Baş aqronom F.Quliyev fermer L.Dadaşova üzünü tutaraq: "Vaxtında dərmanlama apardın, nəticəsi də pis deyil. Demək olar ki, trips xəstəliyindən əsər-əlamət qalmayıb. Hava şəraitinə görə bitkilər bir qədər zəif inkişaf edib. Eybi yoxdur, havalar istiləşdikcə hər şey qaydasına düşəcək", - deyir.

Burada marağımızı gizlədə bilməyib: "Sizcə, bu il havaların belə keçməsi kənd təsərrüfatına necə təsir göstərir" - sualı ilə baş aqronoma müraciət edirik. O isə: "Hər şeyin düzünü Allah bilər", - deyib köksünü ötürür. - "Amma onu bilirəm ki, böyük Yaradan insanı heç vaxt ümidsiz qoymaz. Görünür, bu da bir sınaqdır". Müsahibim qlobal iqlim dəyişmələrindən söz açaraq bunun beynəlxalq problem olduğunu yada salır, mətbuatda yazılan informasiyalara toxunur, sonra da deyir: "Hələ bizim ölkəmiz şükürlüdür. Dünya dağılır, qardaş. Bəlkə, bunlar ölkələrə, onların başında duranlara bir xəbərdarlıqdır. Yaradan demək istəyir ki, dayanın, durun, tikib-qurduqlarınızı xarabalıqlara çevirməyin, günahsız gənclərin, uşaqların, qadınların, qocaların ölümünə bais olmayın! Havanı, ekologiyanı ən çox bu müharibələr zəhərləyir, pozur. Şükürlər olsun ki, bizdə o miqyasda təbii fəlakətlər yoxdur. Havaların yağmurlu keçməsi də bəzi istisnaları nəzərə almasaq, elə də fəlakət deyil. Əksinə, yağmurlar nəticəsində zəmilərdə bol arpa-buğda hasilə gəlib. Fermerlər artıq biçinə başlayıblar. Pambıqçılıqda yaranan müəyyən gecikmələrə gəldikdə havalar qızdıqca inkişaf inşallah sürətlənəcək".

Baş aqronomla söhbət zamanı onu da öyrəndik ki, hazırda pambıq sahələrinin bəzisində birinci, bəzisində ikinci kompleks becərmə gedir. Paralel olaraq sahələr alaq otlarından təmizlənir. Bunun üçün hər gün tarlalara 150-200 qız-gəlin çıxıb kətmənləmə aparır. F.Quliyev bunlarla yanaşı, onu da bildirdi ki, iyun ayının 15-dən pambığın birinci suvarılmasına başlanılacaq. O vaxta qədər sahələr alaq otlarından tam təmizlənəcək və kultivatorla hər hektara ən azı 200 kiloqram azot və ya karbamid gübrəsi veriləcək.



Söhbət "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC-nin Salyanın Qızılağac kəndində yerləşən İstehsalat və Tədarük Məntəqəsinin əkin sahəsindən gedir. Baş aqronom F.Quliyev bildirdi ki, müəssisə keçən il uğurlu nəticələr qazanıb. 1000 hektar sahənin hər hektarından orta hesabla 37,3 sentner məhsul əldə edilib. Fermerlərdən Ramal Abdullayev, Taleh Ağaşov, Rza Gözəlov daha yüksək nəticələrə nail olublar. Onlar hər hektardan 50 sentner civarında "ağ qızıl" hasil ediblər.

Bu ilin əvvəlində məntəqə fermerlərlə 1056 hektarda pambıq əkib-becərmək üçün müqavilə bağlayıb. Fermerlər müəssisə tərəfindən əkin zamanı keyfiyyətli toxumla təmin olunub və əkin vaxtında başa çatdırılıb. Hazırda becərmə işləri gündən-günə sürətləndirilir. Torpaq mülkiyyətçiləri becərmə texnikası, mineral gübrələr, xəstəliklərə qarşı mübarizə aparmaq üçün dərman peraparatları, habelə sahələrin alaq otlarından təmizlənməsi və suvarma işlərinin görülməsi ilə bağlı avans olaraq pul alıblar. Bütün bunlar isə havaların sabit keçmədiyi bir şəraitdə fermerləri daha yaxşı işləməyə, dövlət başçısının aqrar sektorun inkişafı ilə bağlı keçirilən müşavirədə verdiyi tapşırıqları layiqincə həyata keçirməyə və hər hektardan 50 sentner məhsul götürməyə ruhlandırır.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Dost gəlişi bayram olur

### Mingəçevirin nümayəndə heyəti Belarusun Polotsk şəhərinə səfər edib



**Belarus Respublikasının Polotsk şəhərində keçirilən "Şəhər günü" tədbirlərinə Mingəçevirin nümayəndə heyəti də qatılıb. Polotsk Rayon İcraiyyə Komitəsinin sədri Vasili Şilovun dəvəti ilə həyata keçirilən səfərdə Mingəçevir şəhərini şəhər icra hakimiyyəti başçısının müavini Fərid Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.**

Mingəçevir Bələdiyyəsinin sədri Anar İsmayılov və "Mingəçevir Tekstil" MMC-nin direktoru Əli Əsədovun da iştirak etdikləri səfər çərçivəsində nümayəndə heyəti Polotsk şəhərinin rəhbərliyi ilə görüş keçirərək şəhərlər arasında mövcud əməkdaşlıq əlaqələrinin inkişaf perspektivlərini müzakirə edib. Görüşlər zamanı iqtisadiyyat, sənaye, kommunal təsərrüfat, təhsil, mədəniyyət və digər sahələrdə qarşılıqlı təcrübə və gələcək əməkdaşlıq istiqamətləri barədə fikir mübadiləsi aparılıb.

Nümayəndə heyəti həmçinin "Şəhər günü" münasibətilə təşkil olunan rəsmi qəbulda, mədəni-kütləvi tədbirlərdə, sərgilərdə və bayram proqramına daxil edilmiş digər tədbirlərdə iştirak edib. Səfər zamanı Polotsk şəhərinin tarixi-mədəni irsi və sosial-iqtisadi inkişaf göstəriciləri ilə yaxından tanışlıq imkanı da olub.

Qeyd edək ki, Mingəçevir və Polotsk şəhərləri arasında qardaşlaşma və əməkdaşlıq münasibətləri uzun illərdir uğurla davam edir. Nümayəndə heyətinin bu səfəri iki şəhər arasında dostluq əlaqələrinin daha da möhkəmləndirilməsi, iqtisadi, humanitar və mədəni əməkdaşlığın genişləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## Ağstafanın Köçvəlili kəndi fasiləsiz içməli su ilə təmin olunub

**Bölgələrdə içməli su infrastrukturunun yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində Ağstafa rayonunun Köçvəlili kəndində içməli su layihəsi icra olunub.**

Layihə çərçivəsində Köçvəlili kəndində mərkəzləşdirilmiş su təchizatı sisteminin yaradılması məqsədilə mövcud su təchizatı sistemi genişləndirilərək yeni su xətləri inşa edilib. Bu məqsədlə yaşayış məntəqəsində ümumilikdə 3,5 km uzunluğunda su xətti çəkilib və 296 fərdi yaşayış evinə birləşmə verilib. Eyni zamanda əhaliyə verilən suyun dəqiq uçotunun aparılması və sudan səmərəli istifadə olunması məqsədilə hər bir abonent su sayğacı ilə təmin edilib.

Köçvəlili kəndinin 1349 nəfər əhalisinin gündəlik suya olan tələbatını yeni yaradılmış su təchizatı sistemi vasitəsilə tam şəkildə təmin etmək mümkün olacaq.

Qeyd edək ki, Ağstafa şəhərinin mövcud su təchizatı sistemi Vurğun qəsəbəsində yerləşən 6 subartezian quyusundan götürülən suyun məhsuldarlığı sutkada 4900 kubmetr olan əks-osmos tipli sutəmizləyici qurğuda təmizlənərək şəbəkəyə ötürülməsi hesabına fəaliyyət göstərir.

2026-cı ilin mart-aprel aylarında su mənbəyi sahəsində yerləşən mövcud sutəmizləyici qurğular kompleksində membranlar yeniləri ilə əvəz edilib, digər avadanlıqlarda isə təmir işləri aparılıb.

## Masallıda kütləvi veloyürüş keçirilib

**Masallıda Dünya Velosiped Günü münasibətilə veloyürüş təşkil olunub.**

Rayon icra hakimiyyəti, Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə baş tutan idman tədbiri rayonda sağlam həyat tərzinin təbliği, velosiped idmanına marağın artırılması və gənclərin asudə vaxtının səmərəli təşkil olunması məqsədini daşıyıb. Təşkilatçılar qeyd ediblər ki, bu cür kütləvi idman tədbirlərinin mütəmadi keçirilməsi rayonda ekoloji təmiz nəqliyyat vasitələrinə olan marağı artırmaqla yanaşı, gənc nəslin fiziki sağlamlığının möhkəmlənməsinə mühüm töhfə verir.

Gənclərin, idmançıların və rayon ictimaiyyətinin böyük maraq göstərdiyi veloyürüş rayon icra hakimiyyətinin qarşısındakı mərkəzi meydandan start götürüb. Təhlükəsizlik qaydalarına tam riayət olunmaqla təşkil edilən yürüş iştirakçıları şəhid İntiqam Əsgərli küçəsi, Bakı və Heydər Əliyev prospektləri üzrə hərəkət edərək müəyyən olunmuş marşrutu qət ediblər. Yüksək coşqu və idman ruhu ilə keçən veloyürüş Masallı Olimpiya İdman Kompleksinin qarşısında yekunlaşıb.

Tədbirin sonunda qaliblər müəyyən olunub, iştirakçılara Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsi tərəfindən sertifikatlar təqdim edilib.



*"Azərbaycan"*





# Mədəniyyət





● Ustad sənətkarlarımız

# Səhnə işığında keçən ömür

## Xalq artisti Rafiq ƏZİMOV: "Teatr mənim ömür yolum, həyatım, özümü təsdiq vasitəmdir"

**İlk dəfə telefonla danışıb görüş vaxtını dəqiqləşdirəndə səsindəki sakitlikdən, danışığındakı mehribanlıqdan hiss etdik ki, görüşmək istədiyimiz insan ömrünün 88-ci ilini yaşasa da, vaxtın qədrini bilən, ömrünü intizama və məsuliyyətə söykəyən sənətkardır. Razılaşdığımız vaxtda Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının qarşısında görüşəndə də ilk baxışda diqqəti çəkən ağ saçları yox, illərin hikmətini daşıyan baxışları, çöhrəsindəki nur, səsindəki təmkin və daxilindən gələn qəribə bir rahatlıq oldu.**



O, sadəcə aktyor deyil, Azərbaycan teatrının və kinosunun bir neçə nəslini yaddaşında yaşadan canlı tarixmiş. 64 ildən çoxdur ki, hər gün eyni ünvana - teatra, tamaşaya, obraza, tamaşaçı görüşünə tələsir. Söhbət Xalq artisti, "Şöhrət" ordenli Rafiq Əzimovdan gedir. Qocaman sənətkar bizi köhnə tanışı kimi mehribanlıqla qarşılayıb teatra, özünün qrim otağına dəvət edir. Mənalı baxışları ilə otağı süzüb, "bu otaq çox böyük sənətkarlar görüb", - deyir. Sonra da əlavə edir: "Oturduğum bu masada vaxtilə İsmayıl Osmanlı əyləşərdi".

Rafiq Əzimovun həyat yolunu təsadüflər yox, sənət eşqi ilə müəyyən edib. Uşaqlıq illərində yaşadığı məhəllə onun ilk universiteti olub. Azərbaycanın tanınmış şairləri, aktyorları, yaradıcı insanlarının həmin məhəllədə yaşaması, böyük sənət adamlarını yaxından görməsi gələcək aktyorun təxəyyülündə başqa bir dünya yaradıb. Kiçik yaşlarında tar məktəbinə gedib. Sazda da ifa etməyi bacarıb. Teatra gəlişindən danışan qocaman sənətkar deyir ki, ilk sənət hekayəsi dram dərnəklərində başlayıb. Əvvəl Əli Qurbanovun, sonra Lütvi Məmmədbəyovun rəhbərlik etdiyi kollektivlərdə özünü sınayıb.



Təsadüfi bir hadisə onun taleyini dəyişib. "Xalq Teatrı Lənkərana qastrola gedirdi. Tamaşada çıxış etməli olan aktyor gəlməmişdi. Həmin aktyorun yaratdığı obrazın sözlərini əzbər bildiyimi, onu əvəz edə biləcəyimi dedim. Beləliklə, başqa çıxış yolu olmadığı üçün məni səhnəyə buraxdılar. Xalq artisti deyir ki, bəzən insanın taleyi məhz belə məqamlarda müəyyənləşir. Onun da taleyi belə olub. Sonra Rafiq Əzimov Teatr İnstitutuna qəbul edilib.

Tələbəlik illərində görkəmli pedaqoq Məhərrəm Haşımovun sinfində təhsil alır. Həmin dövrü bu gün də minnətdarlıqla xatırlayaraq, "o müəllimlər sadəcə dərs keçmirdilər, onlar aktyor yetişdirirdilər. Hər biri ayrıca məktəb idi", - deyir. Sonra keçdiyi yolu aramla vərəqləyir. 1959-cu il. Moskvada keçiriləcək Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyünə hazırlıq gedir. İkinci kurs tələbəsi olan Rafiq Əzimov da seçilən gənclər arasında idi. Ədil İsgəndərovun hazırladığı "Vaqif", Tofiq Kazımovun quruluş verdiyi "Şərqin səhəri", Lermontovun "Maskarad" tamaşası və digər səhnə əsərləri Moskvanın məşhur Kiçik Teatrında nümayiş etdirilməli idi.

Çöhrəsində qəribə bir işıq parıldayır, gülümsünür. Ağ saçları arasında gülümsər çöhrəsi bədirlənmiş ay kimi nur saçır. "İlk dəfə Moskva səhnəsinə çıxmaq bizim üçün böyük hadisə idi. Həm qürur duyurduq, həm də məsuliyyət hiss edirdik", - deyə aktyor bildirir.

Bu səfər onun həyatında dönüş nöqtəsinə çevrilir. Moskvadan qayıtdıqdan sonra gənc aktyor artıq peşəkar teatr mühitində görünməyə başlayır, müxtəlif tamaşalarda çıxış edir. Bir müddət sonra Akademik Dram Teatrına təyinat alan iki tələbədən biri o olur. Digəri isə sonralar Azərbaycan kinosunun əfsanəsinə çevriləcək Həsən Məmmədov idi. Beləliklə, 1962-ci ildə Rafiq Əzimov bu müqəddəs sənət ocağına gəlir. Aradan 64 il keçir, amma o hələ də həmin teatrın səhnəsindədir.

Hiss edirik ki, o, həmin illərdən ayrılmaq istəmir. Teatra gəldiyi günləri xüsusi sevgi ilə xatırlayır. İlk rollarından birini Viktor Rozovun "Şadlıq sorağında" tamaşasında oynayır. Tərəfdaşları isə artıq şöhrətin zirvəsində olan sənətkarlar idi. Əliağa Ağayev, Fatma Qədri, İsmayıl Osmanlı, Məlik Dadaşov… Adlarını sadaladıqca səsində qəribə bir ehtiram hiss olunur.

O dövrün teatrı haqqında danışarkən tez-tez bir fikri təkrarlayır: "Hər aktyor ayrıca məktəb idi". Bu ifadə təsadüfi deyil. Çünki həmin nəsil həm də yeni aktyorlar yetişdirirdilər. "Əliağa Ağayevin mənim toyumda səsləndirdiyi fikirləri heç vaxt unutmaram. Dedi ki, Rafiq hər dəfə səhnəyə çıxanda onun əsdiyini, titrədiyini hiss edirəm, mən də səhnəyə, tamaşaçı qarşısına çıxanda o hissi yaşayıram, aktyor səhnəyə çıxanda titrəməsə, həyəcanlanmasa ondan aktyor olmaz, mən ona həmişə səhnədə titrəməyi, əsməyi arzu edirəm. Bu gün də hər səhnəyə çıxanda elə bilirəm ki, onlar məni izləyirlər".

Azərbaycan kinosunun tarixində xüsusi yer tutan "Yeddi oğul istərəm" filmi haqqında danışanda Rafiq müəllimin səsi daha da canlanır. Filmin çəkilişlərinə qədər o, artıq "Mənim əziz atam" filmində çəkilmişdi. Ancaq xalqın yaddaşında onu daha çox "Yeddi oğul istərəm" yaşatdı. "Filmə hazırlıq çox ciddi gedirdi. Günlərlə Cıdır meydanında məşq edirdik", - deyə vurğulayır. Bakı uşağı olan Rafiq Əzimov əvvəllər at sürməyi bilmirmiş. Amma kino başqa qanunlarla işləyir. Aktyorlar atlara qulluq edir, onları yemləyir, sulayır, yəhərləməyi, atla təmas qurmağı öyrənir. "Məqsəd sadəcə at sürməyi öyrənmək deyildi, atla dost olmaq lazım idi. Sonra elə sürürdük ki, dublyora ehtiyac qalmırdı", - deyə aktyor söhbətini davam etdirir. Filmdəki bütün səhnələr aktyorların iştirakı ilə çəkilib. Bu gün kompüter texnologiyalarının həll etdiyi işlər o vaxt cəsarət, iradə və zəhmətlə həyata keçirilirdi.

88 yaşın 64 ili eyni teatr, yüzlərlə tamaşa, onlarla film. "Bu qədər uzun və məhsuldar ömrün sirri nədir", - deyə ondan soruşduq. Rafiq müəllim bir qədər düşünür və sadə bir cavab verir: "Səbir". Sonra əlavə edir: "Həm də ailə". Sözlərinin davamında ömür-gün yoldaşından danışır. Hər şey onun qayğısından, anlayışından, dəstəyindən asılıdır. Sənət adamını evdə başa düşməsələr, onun işi çox çətin olar.

Rafiq Əzimov teatr həyatının yalnız müsbət tərəflərindən danışmır. O, sənətin görünməyən üzünü də etiraf edir: "Teatrda hər şey olur, həsəd də, intriqa da". Sonra təbəssümlə əlavə edir: "Gərək hər şeyi ürəyinə salmayasan. Hər eşitdiyini eşitmiş kimi, gördüyünü görmüş kimi qəbul etməyəsən".

Rafiq müəllimin yaradıcılığında xüsusi yer tutan obrazlardan biri Dədə Qorquddur. Nəbi Xəzrinin "Burla xatun" əsərində yaratdığı bu obraz onun yaddaşında ayrıca yer tutur. Hətta bu gün də həmin rolu yenidən oynamaq istəyir. "Dədə Qorqud mənim ən sevdiyim obrazlardan biridir. İndi yaşım da, təcrübəm də bu obraza daha çox uyğundur",- deyir.

Azərbaycan teatr və kino sənətinin görkəmli nümayəndələrindən olan Rafiq Əliəşrəf oğlu Əzimov 2000-ci ildə Xalq artisti fəxri adına layiq görülüb, 2018-ci ildə isə "Şöhrət" ordeni ilə təltif edilib. Prezident təqaüdçüsü olan aktyorun həyat və yaradıcılığına həsr edilmiş "Sənət sevgisi" adlı sənədli film çəkilib.

Rafiq müəllim bu gün də səhnədədir. "Ölülər", "Natəvan", "Qarabağnamələr" və digər tamaşalarda rolları var. Əksər insanların çoxdan istirahətə çəkildiyi bir dövrdə o, hələ də tamaşaçı qarşısına çıxır, rol üzərində işləyir, səhnənin həyəcanını yaşayır. Çünki teatrı həyatı hesab edir.

Ömrünün 88-ci baharını yaşayan sənətkarın gözlərində hələ də gənclik arzusu yaşayır: "Yenidən səhnəyə çıxmaq... Yenidən Dədə Qorqud olmaq... Və yenə də ömrünü həsr etdiyi sənət məbədində tamaşaçı alqışlarını eşitmək..." Çünki Rafiq Əzimov üçün teatr sadəcə iş yeri deyil, teatr onun ömür yolu, həyatının mənası, özünütəsdiq vasitəsi və xalqına xidmət ünvanıdır.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

● Kino tariximiz

# 110 illik ekran salnaməsi:

# "Neft və milyonlar səltənətində"

**Azərbaycan kino sənətinin tarixi təkcə rəngarəng kadrlar deyil, həm də neft Bakısının ziddiyyətli taleyini özündə yaşadan bir yaddaş salnaməsidir. Bu salnamənin ən parlaq və ilk səhifəsi isə düz 110 il əvvəl, 1916-cı ildə tamaşaçılara təqdim olunan, milli kinomuzun ilk tammetrajlı bədii filmi - "Neft və milyonlar səltənətində" adlı ekran əsəridir. Film tanınmış yazıçı İbrahim bəy Musabəyovun XX əsrin əvvəllərində böyük rezonans doğurmuş eyniadlı povesti əsasında ekranlaşdırılıb. Film yerli kapitalın kinoya dəstəyi ilə "Filma" Səhmdar Cəmiyyəti tərəfindən istehsal olunub. Ekran əsərinin maliyyə yükünü dövrün tanınmış neft maqnatlarından olan Məşədi Ələsgər Məlikov öz üzərinə götürüb. Ekran işini ərsəyə gətirmək üçün Peterburqdan peşəkar mütəxəssislər - rejissor Boris Svetlov və operator Qriqori Lemberq Bakıya dəvət ediliblər.**

### Parıltıdan fəlakətə

"Neft və milyonlar səltənətində" filmi sadəcə XX əsrin əvvəllərində çəkilmiş bir ekran xronikası deyildi, dövrün ictimai, psixoloji və sinfi ziddiyyətlərini vizual dilə çevirən mükəmməl bir kinodramdır. Filmin bədii və ideya təməli üç əsas sütun üzərində qurulub: sosioloji reallıq, xarakterlərin psixoloji toqquşması və vizual simvolizm.



Film kapitalizmin Bakıya gətirdiyi qəfil və amansız dəyişikliklərin güzgüsüdür. Rejissor Boris Svetlov və ssenarist A.D.Panova-Potyomkina tamaşaçıya bir sual ünvanlayır: mənəvi təməli olmayan sərvət insanı hara aparır? Süjetin mərkəzində dayanan Cəlil xarakteri o dövrün Bakı mühitində tez-tez rast gəlinən "qəfil varlanan fəhlə" tipajının ümumiləşdirilmiş obrazıdır. Torpağından neft çıxan Cəlil bir anda sinfi statusunu dəyişir, lakin daxil olduğu burjua cəmiyyətinin mənəvi oyun qaydalarına hazır olmur. Film pulun insanı azad etmədiyi, əksinə, onu daha böyük bir köləliyə - qumarın, eyş-işrətin və saxta parıltının əsirinə çevirdiyini sosioloji dəqiqliklə nümayiş etdirir. Burada Bakı şəhəri sadəcə hadisələrin cərəyan etdiyi məkan deyil, insan talelərini üyüdən, sıradan çıxaran nəhəng bir maşına bənzədilir.




Psixoloji qarşıdurmaya gəldikdə isə (Cəlil və Lütfəli bəy obrazları arasında) filmin dramaturgiyası klassik "xeyir və şər" toqquşmasından daha dərindir. Burada iki fərqli psixoloji xarakter üz-üzə dayanır. Cəlil saf, təcrübəsiz, daxilən zəif və manipulyasiyaya açıq fərddir. Onun varlanması, əslində, bu obrazın faciəsinin başlanğıcıdır. Lütfəli bəy (Hüseyn Ərəblinski) soyuqqanlı, hiyləgər, mühitin bütün çirkinliklərinə bələd olan və bundan zövq alan yırtıcı kapitalistdir. Hüseyn Ərəblinskinin ifası filmin psixoloji yükünü çiyinlərində daşıyır. Səssiz kinonun imkanlarından istifadə edən böyük aktyor Lütfəli bəyi sadəcə birtərəfli mənfi obraz kimi təqdim etmir. O, Lütfəli bəyin timsalında dövrün aristokratik təkəbbürünü, pulla hər şeyi satın ala biləcəyinə inanan insanın mənəvi boşluğunu canlandırır. Cəlil və Lütfəli bəyin münasibəti, yırtıcı ilə qurbanın münasibətidir və bu xətt filmin sonuna qədər dramatik gərginliyi pik həddə saxlayır.

Kino mütəxəssisləri yazırlar ki, Qriqori Lemberqin operator işi filmin bədii dəyərini ikiqat artırır. O dövrdə kinoda statik (hərəkətsiz) çəkilişlər dəbdə olsa da, Lemberq Bakı neft mədənlərinin reallığını göstərmək üçün dinamik kadrlardan istifadə etmişdi. Filmdə çirkli, hispas içində olan fəhlə kazarmaları və neft buruqları ilə Bakı milyonçularının dəbdəbəli, parıltılı salonları, sirk və qumarxana səhnələri bir-birini əvəz edir. Bu montaj və vizual kontrast, heç bir sözə ehtiyac qalmadan ölkədəki kəskin sinfi bərabərsizliyi tamaşaçının beyninə həkk edir. Digər tərəfdən, filmdəki real neft fontanı səhnəsi təkcə texniki uğur deyil, həm də bədii simvoldur. Bu fontan Cəlil üçün ilk başda "xoşbəxtlik və qurtuluş" kimi görünsə də, vizual olaraq onun üzünə və taleyinə sıçrayan, onu boğan qara bir bəlaya çevrilir.

### "Filma" Cəmiyyəti və neft sahibkarı Məşədi Ələsgərin cəsarəti

Bir fakt xüsusi qeyd olunmalıdır ki, o illərdə Bakıda kino çəkmək təkcə yaradıcılıq deyildi, həm də böyük maliyyə riskləri tələb edən bir biznes idi. Filmin istehsalını Tiflisdə mərkəzləşən, lakin Bakıda aktiv fəaliyyət göstərən "Filma" Səhmdar Cəmiyyəti (Pirone qardaşları) öz üzərinə götürmüşdü. Lakin layihənin reallaşması üçün yerli kapitalın dəstəyi mütləq idi. Burada tarix səhnəsinə Bakının tanınmış neft maqnatı və xeyriyyəçisi Məşədi Ələsgər Məlikov çıxır. O, milli mədəniyyətin inkişafına inanaraq, filmin çəkilişləri üçün lazım olan külli miqdarda vəsaiti - öz dövrünün fantastik məbləğilə maliyyələşdirdi. Bununla da neft sahibkarı Məşədi Ələsgər Məlikov Azərbaycan tarixində kinoya maliyyə qoyan ilk yerli prodüserlərdən biri kimi adını tarixə yazdı.

Həmin vaxtlarda "Filma" Cəmiyyəti ekran işini təsadüfi şəxslərə həvalə edə bilməzdi. Bu məqsədlə Peterburqdan peşəkar mütəxəssislər Bakıya dəvət olundu. Quruluşçu rejissor Boris Svetlov dövrünün texniki imkanlarına dərindən bələd olan, aktyorlarla işləməyi bacaran xüsusi bir məktəbin nümayəndəsi idi. Bakının spesifik aurasını və Şərq mühitini hiss etmək üçün aylarla şəhəri gəzmişdi. Quruluşçu operator Qriqori Lemberq kameranın imkanlarından maksimum istifadə edərək, Bakının təbii neft fontanlarını, quyuların dumanını və mədənlərin ağır şəraitini sənədli-bədii xronika dəqiqliyi ilə lentə almağı bacarmışdı.

Filmdə Cəlil rolunu rus aktyoru Vladimir Lenin canlandırsa da, filmin vizit kartı teatrımızın dahi korifeyi Hüseyn Ərəblinski oldu. Ərəblinski filmdə mənfi qəhrəman neft milyonçusu Lütfəli bəyi oynayırdı. Azərbaycan kino tarixinin ilk tammetrajlı bədii filmi olan "Neft və milyonlar səltənətində" ekran əsərini unudulmaz edən məhz ən böyük amil, şübhəsiz ki, korifey sənətkar Hüseyn Ərəblinskinin canlandırdığı Lütfəli bəy obrazıdır.

### Hüseyn Ərəblinskinin canlandırdığı Lütfəli bəy obrazı

Lütfəli bəy sadəcə süjet xəttini irəli aparan mənfi bir qəhrəman deyildi, o, XX əsrin əvvəllərində Bakını çənginə alan yırtıcı kapitalizmin, mənəvi aşınmanın və feodal-burjua psixologiyasının ən mükəmməl vizual simvoludur.

Klassik dramaturgiyada mənfi obrazlar çox vaxt birtərəfli, kobud və qaba qüvvə kimi təsvir olunur. Lakin Ərəblinskinin Lütfəli bəyi tamamilə fərqli bir paradiqmanın məhsuludur. O, Cəlili tələyə salarkən tələsmir, şəri soyuqqanlılıqla, addım-addım idarə edir. Onun fəlsəfəsi qazanmaq deyil, başqalarının məhvindən həzz almaqdır. Yazıçı İbrahim bəy Musabəyov və rejissor Boris Svetlov Lütfəli bəyin timsalında pulun insanı necə empatiyadan məhrum etdiyini, onu duyğusuz bir canlı meyitə çevirdiyini nümayiş etdirirlər.

Filmin çəkildiyi 1915-1916-cı illərdə dünya kinosu hələ səssiz idi. Aktyorun sərəncamında nə səs, nə də intonasiya imkanları vardı. Belə bir məhdudiyyətdə Ərəblinski özünün unikal bədən dili, plastika və sarsıdıcı mimikaları ilə möcüzə yaradırdı. O dövrün şahidlərinin xatirələrinə görə, Lütfəli bəyin ekrandakı təkəbbürlü və eyni zamanda hiyləgər baxışları tamaşaçıda qəzəb doğururdu. Onun təmkinli bir əda ilə siqaret çəkməsi, bığının altından qaçan istehzalı təbəssümü personajın daxili dünyasındakı bütün çirkinlikləri ifşa edə bilirdi.

Sosioloji baxımdan Lütfəli bəy - Bakı neft bumu dövründə formalaşan, milli köklərindən qopmuş, Avropa parıltısı ilə Şərq feodalizminin ən pis tərəflərini özündə birləşdirən zümrənin nümayəndəsidir. O, Cəlil kimi yoxsul fəhlələrin qəfil varlanmasını həzm edə bilmir. Onun Cəlili müflisləşdirmək istəyi həm də bir sinfi qisasdır. Lütfəli bəy sübut etmək istəyir ki, pullar hər kəsə qismət ola bilər, lakin bu "səltənət"in amansız qanunlarını yalnız onun kimi yırtıcılar idarə edə bilər.

Hüseyn Ərəblinskinin vaxtsız və faciəvi ölümündən (1919) əvvəl lentə köçürdüyü bu yeganə rol Azərbaycan kinosunda mənfi obraz yaradıcılığının sənət standartını müəyyən etdi. Sonralar milli kinomuzda yaradılan bir çox güclü mənfi xarakterlərin psixoloji kökləri məhz Lütfəli bəyin bədii genetikasına dayanır.

Bu rol böyük sənətkarın kino tarixində ilk və təəssüf ki, son işi oldu, aktyor 1919-cu ildə qətlə yetirildi. Səssiz kino formatında, heç bir sözdən istifadə etmədən, yalnız bədən dili, sarsıdıcı baxışlar, üz cizgilərinin (mimikanın) plastikası ilə Ərəblinski elə bir obraz yaratdı ki, mütəxəssislər bunu dünya kinosunun kəşfi hesab edirdilər. Həmçinin filmdə dövrün digər mədəniyyət nəhəngləri - muğam sənətimizin patriarxı Cabbar Qaryağdıoğlu və dahi tarzən Qurban Pirimov da epizodik rollarda (musiqili məclis səhnələrində) yer alaraq filmin milli ruhunu daha da zənginləşdirmişdilər.

### Zamanı aşan ağ-qara kölgələr

Film tamaşaçıya pulla gələn saxta hörmətin və mənəvi aşınmanın dəhşətli nəticələrini göstərirdi. Çəkilişləri 1915-ci ildə başa çatan filmin premyerası 1916-cı il mayın 14-də (ikinci seriyası isə mayın 27-də) Bakının məşhur "Edisson" elektroteatrında (kinoteatrında) baş tutdu. O dövrün mətbuat arxivlərinə nəzər salsaq, Bakıda görünməmiş bir izdihamın yaşandığını görərik. Film tammetrajlı olduğu üçün seansların sayı məhdud idi - gündə 3 seans nümayiş olunurdu. Biletlər günlər öncədən tükənirdi. Tamaşaçılar ekranda öz şəhərlərini, tanıdıqları küçələri, neft buruqlarını və ən əsası sevimli aktyorları Ərəblinskini gördükdə zalı alqış sədaları bürüyürdü.

"Kaspi" qəzeti 1916-cı ilin may ayı nömrəsində yazırdı: "Aktyor Hüseyn Ərəblinski Lütfəli bəy rolunda öz teatr dühasını kinoya da daşıya bilib. Onun ekrandakı hər bir hərəkəti, hiyləgər təbəssümü və amansız baxışları tamaşaçını vahiməyə salır. Bu film sübut etdi ki, Bakı təkcə neftin deyil, həm də böyük sənətin mərkəzidir".

### İtirilmiş miras, yanıb kül olan tariximiz

"Neft və milyonlar səltənətində" filminin orijinal lenti bu gün bizim rəflərimizdə deyil. 1918-ci ildə Bakıda baş verən qanlı mart hadisələri, şəhərin bombardman edilməsi və törədilən yanğınlar zamanı layihənin saxlanıldığı arxiv (şəxsi fondlar) tamamilə yanıb kül oldu. Film fiziki olaraq məhv olsa da, onun buraxdığı mədəni iz və fotofaktlar Azərbaycan kinosunun doğum şəhadətnaməsi kimi tariximizə həkk olundu. Film sonralar - 1980-ci ildə rejissor Fikrət Əliyev tərəfindən "Qızıl uçurum" adı ilə yenidən və fərqli strukturda ekranlaşdırılmışdır.

"Neft və milyonlar səltənətində" filmi Azərbaycan kinosunda realizm məktəbinin əsasını qoymuşdur. İbrahim bəy Musabəyovun ədəbi tənqidi ilə rejissor Svetlovun gerçək estetikası birləşərək, dövrün milli dramını yaratmışdı. Film tamaşaçını ucuz xoşbəxtliklə yola salmır, Cəlilin yenidən yoxsulluğa, başladığı nöqtəyə qayıtması ilə bitən final oxucuya və tamaşaçıya sarsıdıcı, lakin real bir həyat dərsi verir. Məhz bu cəsarətli realizminə görə film bu gün də kino tariximizin ən ciddi bədii hadisəsi hesab olunur.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# BMT xəbərdarlıq edir:
# temperatur rekord həddə çata bilər

**Dünya Meteorologiya Təşkilatı yaxın aylarda güclü "El-Ninyo" hava şəraitinin başvermə ehtimalının çox yüksək olduğunu elan edib. BMT-nin Hava Agentliyinin son hesabatına görə, iyun-avqust ayları arasında bu təbiət hadisəsinin yaşanma ehtimalı 80 faiz, onun noyabr ayına qədər davam etmə ehtimalı isə 90 faizdən çoxdur.**



Bəs "El-Ninyo" nədir və o, dünyanı necə dəyişə bilər? "El-Ninyo" Sakit okeanın mərkəzi və şərqində suyun temperaturunun vaxtaşırı isinməsidir. Bu təbiət hadisəsi qlobal temperaturu kəskin şəkildə artırır, dünyanın bəzi bölgələrində dağıdıcı yağışlara və qasırğalara, bəzi yerlərində isə kəskin quraqlığa səbəb olur. Elmi araşdırmalara görə, bu hadisə okean axınları ilə yanaşı, planetin stratosfer qatındakı külək rejimini də tamamilə alt-üst edir.

Dünya Meteorologiya Təşkilatının baş katibi Seleste Saulo bildirib ki, "El-Ninyo" həm quruda, həm də okeanlarda anomal istilərə yol açacaq. Bu isə zəncirvari olaraq ağcaqanadlar vasitəsilə yayılan malyariya, denq qızdırması və zika kimi ölümcül xəstəliklərin artmasına, kütləvi su və qida qıtlığına səbəb olacaq. Xüsusilə, qlobal şokolad sənayesinin əsasını təşkil edən Qərbi Afrikadakı kakao plantasiyalarının məhv olması qaçılmaz xarakter alır ki, bu da artıq dünya birjalarında kakaonun bir tonunun qiymətinin tarixdə ilk dəfə 10 min dolları ötməsi ilə nəticələnib.

BMT-nin Baş katibi Antonio Quterreş xəbərdarlıq edib ki, "El-Ninyo" onsuz da isinməkdə olan planetimizin alovuna yanacaq tökəcək və onun dağıdıcı təsirləri sərhəd tanımadan çox sürətlə yayılacaq. O, qalıq yanacaqlardan imtina etməyi və "yaşıl enerji"yə keçidi sürətləndirməyin vacibliyini deyib. Çünki sənaye inqilabından bəri atmosferə atılan karbon qazının miqdarı rekord həddə, yəni 420 ppm-ə (milyonda bir hissəyə) çatıb. Bu qorxulu xəbərdarlıq təsadüfi bir vaxta düşmür. Mayın sonlarında Fransa və Böyük Britaniya kimi Qərb ölkələrində rekord istilərin qeydə alınması, həmçinin Hindistan və Çində anomal hava şəraitinin yaşandığı bir vaxtda dünya SOS siqnalı verir. Məsələn, Hindistanın paytaxtı Nyu-Dehlidə termometrlər ağlasığmaz həddi - 49-50 dərəcə istini göstərir. Bu da yüzlərlə insanın günvurmadan həyatını itirməsinə və elektrik şəbəkələrinin sıradan çıxmasına səbəb olub. Okean sularının temperaturu isə artıq normadan 6 dərəcə yüksəkdir. Bu, okean ekosisteminin, xüsusən də bəşəriyyətin oksigen mənbəyi olan mərcan riflərinin kütləvi şəkildə ağarması və məhv olması deməkdir.

Meteoroloqlar xəbərdarlıq edirlər ki, 2026-cı ilin iyun-avqust aylarında dünyada temperatur normadan yüksək olacaq. Sonuncu belə güclü "El-Ninyo" dövrü 2024-cü ildə tarixin ən isti ili olmasına səbəb olmuşdu. İqlimşünaslar qorxurlar ki, 2026-cı il Paris İqlim Razılaşmasında kritik xətt kimi qəbul edilən 1,5 dərəcəlik qlobal isinmə limitini daimi olaraq keçə bilər. Avropa İttifaqının "Kopernik" İqlim Dəyişikliyi Xidmətinin məlumatları da göstərir ki, Arktika və Antarktidada buzların ərimə sürəti son 30 ilin ən pik nöqtəsinə çatıb.

Qlobal iqlim dəyişikliyi artıq böyük bir təhlükəyə çevrilib. Bu problem həm iqtisadiyyata, həm də təhlükəsizliyə birbaşa təsir edir. Riskləri azaltmaq üçün dünya dövlətləri birlikdə hərəkət etməlidirlər. Günəş, külək və su enerjisindən istifadə sürətlə artırılmalıdır. Atmosferə atılan zərərli qazların miqdarı azaldılmalıdır. Kənd təsərrüfatı və su təsərrüfatı yeni şəraitə uyğun qurulmalıdır. Qida qıtlığının qarşısını almaq üçün davamlı modellər tətbiq edilməlidir. İqlim böhranından ən çox zərərçəkən Afrika və Cənubi Asiya ölkələrinə maliyyə və texnoloji dəstək verilməli, dövlətlər ekoloji siyasətlərində dəyişiklik etməlidirlər. Əks halda, yaxın gələcəkdə böyük humanitar və iqtisadi böhranlar qaçılmaz ola bilər.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# Genlərimiz taleyimiz deyil



**Uzun illər insanlar düşünürdülər ki, əgər valideynlərində, bacı-qardaşlarında diabet, xərçəng, piylənmə və ya ürək-damar xəstəlikləri varsa, deməli bu, taledir və gec-tez həmin risk onların öz həyatında da ortaya çıxacaq.**

"Genetikdir" ifadəsi çox zaman dəyişdirilə bilməyən hökm kimi qəbul edilirdi. Halbuki son illərdə elm bu düşüncəyə ciddi şəkildə düzəliş edir. Müasir tədqiqatlar göstərir ki, genlər orqanizmin dəyişməz yazısı deyil. Onlar müəyyən potensialı daşıyır, amma bu potensialın necə ortaya çıxacağına həyat tərzi, mühit, yuxu keyfiyyəti, hərəkət səviyyəsi, stres yükü və ən əsası qidalanma güclü təsir göstərir. Bu sahə "epigenetika" adlanır və sağlamlıq anlayışını kökündən dəyişir.

Epigenetika sadə dillə desək, genlərin açılıb-bağlanmasını, yəni necə işləməsini araşdıran elm sahəsidir. İnsan doğulduğu zaman valideynlərindən aldığı DNT ilə dünyaya gəlir. DNT dəyişməz görünə bilər, amma onun daxilindəki məlumatların hamısı eyni anda aktiv olmur. Bəzi genlər susdurulur, bəziləri isə fəallaşır. Bu prosesə qidalar, ətraf mühit toksinləri, stres hormonları, fiziki aktivlik və digər gündəlik faktorlar təsir edə bilir. Yəni ailəsində diabet olan iki insanı düşünək: biri düzgün qidalanır, aktiv həyat sürür, çəkisini qoruyur və stresini idarə edir, digəri isə hərəkətsiz yaşayır, emal olunmuş qidalarla qidalanır və yuxusuz qalır. Eyni genetik meylə sahib olsalar da, sağlamlıq nəticələri tamamilə fərqlidir.

Bu yeni yanaşma insanlara böyük ümid verir. Çünki artıq söhbət yalnız miras aldığımız genlərdən yox, onlarla necə davrandığımızdan gedir. Genlər silahı doldura bilər, amma tətiyi çox zaman həyat tərzi çəkir. Bu baxımdan, gündəlik seçimlərimiz, xüsusilə süfrəmizdə olan qidalar sağlamlığımızın gələcəyini formalaşdırır.

Mütəxəssislər hesab edirlər ki, qidalanma epigenetik təsir göstərən ən güclü amillərdən biridir. Bəzi qidalar iltihabı artırır, hüceyrələri zədələyir, maddələr mübadiləsini pozur və xəstəlik riskini yüksəldir. Digərləri isə əksinə, bərpaedici mexanizmləri gücləndirir, antioksidant müdafiəni artırır, genlərin qoruyucu fəaliyyətini dəstəkləyir. Buna görə də yediklərimiz sadəcə kalori məsələsi deyil, həm də bioloji siqnaldır. Məsələn, Omega-3 yağ turşuları sahədə ən çox öyrənilən qida komponentlərindəndir. EPA, DHA və ALA adlı bu yağ turşuları bədəndə iltihabı azaltmağa, ürək-damar sistemini qorumağa və beyin funksiyalarını dəstəkləməyə kömək edir. Araşdırmalar göstərir ki, onlar iltihab əleyhinə genlərin aktivliyini artıra bilər. Yağlı balıqlar, xüsusilə qızılbalıq, skumbriya və sardina, həmçinin kətan toxumu, çia toxumu, qoz və semizotu Omega-3 baxımından zəngindir. Müasir qidalanmada çox zaman zərərli yağlar üstünlük təşkil etdiyindən, Omega-3 qəbulunu artırmaq sağlamlıq üçün strateji addım sayılır.

Bitki mənşəli antioksidantlar da genlərin qorunmasında mühüm rol oynayır. Onlardan biri resveratroldur. Bu maddə xüsusilə qara üzüm, qaragilə, zoğal, qara tut və böyürtkəndə olur. Resveratrolun hüceyrə səviyyəsində uzunömürlülüklə əlaqəli sirtuin adlı zülalları aktivləşdirə biləcəyi düşünülür. Bu səbəbdən o, yaşlanma əleyhinə qidalanma modellərində tez-tez qeyd olunur.

Son illərdə geniş maraq doğuran digər maddə fisetindir. Fisetin çiyələk, qaragilə, üzüm, şaftalı, xurma və manqo kimi meyvələrdə tapılan flavonoiddir. Alimlər onun senolitik xüsusiyyətlərinə diqqət çəkirlər. Bu termin qocalmış və funksiyasını itirmiş hüceyrələrin təmizlənməsinə yardım edən təsiri ifadə edir. Hüceyrə səviyyəsində belə təmizlənmə prosesləri yaşlanmanın ləngiməsi, toxuma sağlamlığının qorunması və beyin funksiyalarının dəstəklənməsi ilə əlaqələndirilir. Xaççiçəkli tərəvəzlər də epigenetik qidalanmanın vacib hissəsidir. Brokkoli, kələm, Brüssel kələmi və turp tərkibində sulforafan adlı güclü maddə daşıyır. Sulforafan bədənin detoksifikasiya sistemlərini gücləndirə, zərərli maddələrin xaric edilməsini sürətləndirə və DNT bərpasını dəstəkləyə bilər.

Mətbəxdə ən çox istifadə edilən ədviyyatlardan biri olan sarıkökün əsas aktiv maddəsi olan kurkumin də son illərin ən çox araşdırılan təbii birləşmələrindəndir. O, iltihabəleyhinə və antioksidant xüsusiyyətləri ilə tanınır. Xroniki iltihab bir çox xəstəliklərin, o cümlədən diabet, ürək xəstəliyi və bəzi xərçəng növlərinin ortaq zəminidir. Kurkumin bu zəncirin qırılmasına kömək edə bilər. Mütəxəssislər onun qara istiot və sağlam yağlarla birlikdə qəbul edilməsinin sorulmanı artırdığını bildirirlər.

Vitamin və minerallar da genlərin normal fəaliyyəti üçün vacibdir. Məsələn, fol turşusu DNT sintezi və hüceyrə bölünməsi üçün lazımdır. Bu maddə xüsusilə ispanaq, brokkoli, pazı və digər tünd-yaşıl yarpaqlı tərəvəzlərdə bol olur. Folat çatışmazlığı hüceyrə yenilənməsinə mənfi təsir göstərə bilər. Xolin isə beyin, qaraciyər və əzələ sağlamlığında mühüm rol oynayır. O həmçinin genlərin düzgün işləməsini dəstəkləyir. Yumurta sarısı və mal əti qaraciyəri xolin baxımından zəngin qidalar sırasındadır.

Sink immunitet, yaraların sağalması, hormon balansı və hüceyrə bərpası üçün vacib mineraldır. Mal əti, quzu əti, dəniz məhsulları, yumurta, balqabaq toxumu, badam, qoz, mərcimək və noxud sink mənbəyidir. Selen isə güclü antioksidant kimi fəaliyyət göstərərək hüceyrələri sərbəst radikalların zərərindən qoruyur. Qızılbalıq, tuna, yumurta, sarımsaq, toyuq və tam taxıllar selen ehtiva edir. E vitamini də hüceyrə membranlarını oksidləşdirici zədələnmədən qoruyan əsas vitaminlərdəndir. Badam, fındıq, avokado, ispanaq, brokkoli və zeytun yağı bu baxımdan dəyərlidir. Hüceyrə membranları sağlam olduqda, bədən sistemləri daha effektiv işləyir və yaşlanma prosesi daha ləng gedə bilər.

Meyvə və giləmeyvələrdə olan polifenollar ayrıca diqqətəlayiqdir. Qaragilə, böyürtkən, çiyələk, moruq, nar, qara və qırmızı üzüm, bənövşəyi soğan, yaşıl çay, kəklikotu, zeytun yağı və qoz-fındıq müxtəlif polifenollar daşıyır. Bu maddələr hüceyrələri qoruyur, iltihabı azaldır və genlərə müsbət təsir göstərir. B12 vitamini isə xüsusilə sinir sistemi, qırmızı qan hüceyrələrinin yaranması və DNT sintezi üçün vacibdir. O, əsasən, heyvan mənşəli qidalarda olur. Buna görə də veqan qidalanan şəxslər B12 əlavəsi barədə həkimlə məsləhətləşməlidirlər. Çünki B12 çatışmazlığı uzun müddət gizli qalaraq ciddi nevroloji problemlərə səbəb ola bilər.

Əlbəttə, epigenetika möcüzə vəd etmir. Heç bir qida təkbaşına genləri "yenidən proqramlaşdıran sehrli düymə" deyil. Sağlam qidalanma, düzgün həyat tərzi və bədənimizə göstərdiyimiz qayğı sayəsində irsin sərhədlərini daralda, sağlamlıq imkanlarını isə genişləndirə bilərik.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*




## Humanoid robotlar üçün platforma

**"NVIDIA" humanoid robotların hazırlanmasını sürətləndirmək məqsədilə yeni "Isaac Gr00t" platformasını təqdim edib. O, tədqiqatçılar və robototexnika mühəndisləri üçün açıq proqram təminatı, süni intellekt modelləri və hazır avadanlıq həllərini bir araya gətirir.**



Yeni dizayn platformasının əsasını təxminən 1,8 metr hündürlüyündə olan "Unitree H2 Plus" humanoid robotu təşkil edir. Robot 31 hərəkət sərbəstliyi ilə təchiz olunub və müxtəlif mürəkkəb hərəkətləri yerinə yetirə bilir. Şirkətdən bildirilib ki, platforma daha əlçatan qiymətə malik "Unitree G1" humanoid robotunu da dəstəkləyəcək.

"Isaac Gr00t" platformasında robotun əlləri üçün "Sharpa" şirkətinin hərəkət sərbəstliyinə malik, toxunma hissiyyatlı beşbarmaqlı mexanikadan istifadə olunur. Bundan əlavə, robot stereo kamera sistemi, biləklərdə əlavə kameralar və müxtəlif hərəkət sensorları ilə təchiz edilib. Cihazın batareyası isə təxminən 3 saatlıq iş müddəti təmin edir.

## "Amazon" yeni robotunu təqdim edib

**Amazon süni intellektlə təchiz edilmiş tam avtonom anbar robotu "Proteus"un yeni versiyasını təqdim edib. Şirkətin məlumatına görə, yenilənmiş robot artıq xüsusi proqramlaşdırmaya ehtiyac olmadan işçilərin verdiyi şifahi tapşırıqları anlayaraq yerinə yetirə biləcək.**



Əvvəllər anbar əməkdaşları "Proteus"u idarə etmək üçün xüsusi proqramlardan istifadə etməli idilər. Yeni versiyada isə əməkdaşlar robota adi söhbət formasında tapşırıq verə biləcəklər.

Yeni nəsil "Proteus" əvvəlki modellərlə müqayisədə daha geniş ərazilərdə fəaliyyət göstərə biləcək. Hazırda istifadə olunan robotlar əsasən yükləmə və boşaltma zonalarında işləyir. Yeni sistem isə məhsulların qəbulundan iş stansiyaları arasında daşınmasına qədər anbarın demək olar bütün hissələrində istifadə oluna biləcək. Yeni robot sistemi hazırda laboratoriyalarda sınaqdan keçirilir və onun 2027-ci ilin ilk yarısında Avropada istifadəyə verilməsi planlaşdırılır.

"Amazon"dan bildirilir ki, robot texnologiyalarının məqsədi işçiləri əvəz etmək deyil, onların işini asanlaşdırmaq və əməliyyatların səmərəliliyini artırmaqdır. Belə ki, robot texnologiyalarının tətbiqindən sonra qlobal miqyasda yüz minlərlə yeni əməkdaş işə götürülüb.

## "Apple"ın növbəti hədəfi "ağıllı" eynəklərdir

**"Apple" "ağıllı" eynək bazarına daxil olmağa hazırlaşarkən təkcə "Meta" və "Samsung" kimi texnologiya şirkətlərini deyil, həm də optika sənayesinin aparıcı brendlərini hədəfə alıb.**



"Bloomberg"in eksperti Mark Qurmanın sözlərinə görə, şirkət "Apple Watch" ilə saat bazarında yaratdığı effekti indi eynək sektorunda təkrarlamaq istəyir. Şirkətin məqsədi "Ray-Ban", "Oakley" və "Warby Parker" istifadəçilərini öz ekosisteminə cəlb etməkdir.

Şirkət yeni məhsulları ilə həm gündəlik aksessuar bazarına, həm də texnoloji eynək seqmentinə daxil olmağı planlaşdırır. "Apple" əsas üstünlüklərini üç istiqamətdə istifadəçilərin şirkətin dizayn yanaşmasına marağında 2 milyarddan çox cihazdan ibarət ekosistemlə qüsursuz inteqrasiyasında və qabaqcıl süni intellekt imkanlarında görür.

## "Netflix"dən yeni tövsiyə sistemi




**"Netflix" istifadəçilərin platformadakı geniş film və serial kataloqu arasında seçim edərkən çətinlik çəkməməsi üçün müəyyən addımlar atıb.**

Şirkət istifadəçilərin əhvali-ruhiyyəsinə uyğun məzmun tövsiyələri təqdim etmək üçün generativ süni intellekt və təbii dil emalı texnologiyalarını sınaqdan keçirir. Bundan əlavə, platformada səsli idarəetmə funksiyası da test edilir. Bu funksiya sayəsində istifadəçilər platforma ilə danışaraq istəklərinə uyğun film və serial tapa biləcəklər.

"Netflix" hesab edir ki, gələcəkdə yalnız məzmunun keyfiyyəti deyil, onun istifadəçiyə necə təqdim olunması və nə qədər rahat tapılması da əsas rəqabət amillərindən birinə çevriləcək.

## Batareyalı "Starlink Mini"

**"SpaceX"in peyk internet xidməti üçün hazırladığı kompakt terminal - "Starlink Mini"nin yeni versiyası ilə bağlı maraqlı detallar ortaya çıxıb. Şirkətin proqram təminatında aşkarlanan yeni məlumatlar cihazın daxili batareya ilə təchiz edilən tam portativ modelinin hazırlanması ehtimalını gücləndirir.**



Texnologiya həvəskarlarının diqqətini çəkən son proqram yeniləməsində batareyanın idarə olunmasına aid olduğu düşünülən yeni kod elementləri müəyyən edilib. Həmin kodlarda enerji səviyyəsi, şarj vəziyyəti və digər texniki parametrlərin izlənməsi üçün funksiyalar yer alır. Mütəxəssislərin fikrincə, əgər cihaz yalnız xarici enerji mənbələri ilə işləmək üçün nəzərdə tutulmuş olsaydı, bu cür daxili enerji monitorinqi sistemlərinə ehtiyac qalmazdı. Bu səbəbdən yeni modeldə inteqrasiya olunmuş batareyanın olacağı ehtimalı yüksək qiymətləndirilir.

Aşkarlanan digər məlumatlara görə, cihaz bir neçə fərqli enerji rejimini dəstəkləyə bilər. Belə ki, terminalın USB-C vasitəsilə enerji alması, daxili batareya ilə işləməsi və hər iki enerji mənbəyindən eyni vaxtda istifadə etməsi mümkün olacaq. Bu yanaşmanın enerji səmərəliliyini artıracağı və cihazın daha uzun müddət fasiləsiz işləməsinə imkan yaradacağı bildirilir.

Hazırda satışda olan "Starlink Mini" modeli enerji təminatı üçün elektrik şəbəkəsinə və ya ayrıca daşınan batareyaya ehtiyac duyur. Mövcud həllər istifadəçilərə əlavə seçim imkanı versə də, əlavə xərc və müəyyən texniki tənzimləmələr tələb edir.

## "SpaceX"in çip zavodu

**"SpaceX" ABŞ-nin Texas ştatında planlaşdırdığı "Terafab" adlı zavod layihəsi təsdiqlənib. Qərar şirkətə birbaşa vergi güzəşti təqdim etməsə də, gələcəkdə bu cür güzəştlərin tətbiqi üçün hüquqi zəmin yaradıb. Potensial vergi güzəştləri ilə bağlı yekun qərarın isə ayrıca səsvermə ilə qəbul ediləcəyi bildirilib.**




Yerli rəhbərlik "Terafab" layihəsini region üçün "nəsilləri dəyişəcək" investisiya kimi qiymətləndirir. Məlumata görə, layihənin ümumi dəyəri 100 milyard dollardan çox ola bilər. Zavodun fəaliyyətə başlaması nəticəsində təxminən 2 min yeni iş yerinin açılması və illik əməkhaqqı fondunun 1 milyard dollara çatması gözlənilir.

Kompleks "SpaceX"in yarımkeçirici sənayesində tam inteqrasiya olunmuş istehsal mərkəzi yaratmaq planının bir hissəsidir. Burada çiplərin dizaynı, istehsalı, qablaşdırılması və test mərhələləri eyni məkanda həyata keçiriləcək. İstehsal olunacaq çiplərin ilkin mərhələdə "Tesla" məhsullarında, daha sonra isə süni intellekt sistemlərində istifadə edilməsi planlaşdırılır.




## "Google Gemini" artıq "Gmail"də də axtarış edə bilir

**"Google" süni intellekt köməkçisi "Gemini"nin imkanlarını genişləndirərək "Ask Gemini in Drive" funksiyasına "Gmail" inteqrasiyasını əlavə edib.**

Artıq istifadəçilər "Gemini" vasitəsilə yalnız "Google " fayllarında deyil, "Gmail" hesabındakı məktublarda da məlumat axtara biləcəklər. Yeni funksiyanın əsas məqsədi e-poçtlar, sənədlər və qovluqlar arasında məlumat axtarışını daha sürətli və rahat etməkdir. Bunun üçün istifadəçilər "Google Drive" interfeysində soldakı mənbələr bölməsindən "Gmail"i seçməli, daha sonra isə sağ yuxarı hissədə yerləşən "Ask Gemini" düyməsindən istifadə etməlidirlər.

"Google" bildirir ki, yeni inteqrasiya "Gemini"yə istifadəçinin iş mühitini daha geniş kontekstdə analiz etmək imkanı verir. Beləliklə, süni intellekt eyni anda həm "Gmail" məktublarını, həm "Google Drive" sənədlərini, həm də qovluqları nəzərə alaraq daha dəqiq cavablar təqdim edə bilir.

*Hazırladı:*
*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Dəmir zavodu layihəsinin əsas mərhələlərindən biri uğurla tamamlanıb

**İllik 2 milyon ton istehsal gücünə malik isti breketlənmiş dəmir (İBD) zavodu layihəsi üzrə mühüm mərhələlərdən biri uğurla başa çatıb. "Azerbaijan Metal Company" MMC (AzMC) tərəfindən reallaşdırılan zavod layihəsi üzrə bank təyinatlı texniki-iqtisadi əsaslandırma (TİƏ) sənədinin hazırlanması yekunlaşdırılıb. Qeyd edək ki, "AzMC" şirkəti İBD zavodunun maliyyələşdirilməsi, layihələndirilməsi, tikintisi və istismarının təşkili məqsədilə ötən il "Daşkəsən Dəmir Filiz" MMC və Qazaxıstanın "Fonte GreenMet Investments Fund OEIC Limited" şirkəti tərəfindən təsis edilib.**




İyunun 4-də Bakıda baş tutan tədbirdə TİƏ nəticələrinin təqdimatı keçirilib, eyni zamanda layihənin növbəti mərhələlərini əhatə edəcək sənədlər imzalanıb. Tədbirdə "AzMC" ilə yanaşı, "AzerGold" QSC, "Daşkəsən Dəmir Filiz" MMC, Qazaxıstanın "Fonte GreenMet Investments Fund OEIC Limited", Çinin "Sinosteel Equipment & Engineering Co., Ltd." şirkəti və "Sinosure" İxrac Kredit Agentliyi, İtaliyanın "Tenova" şirkəti və "SACE" İxrac Kredit Agentliyi, həmçinin Niderlandın "ING Bank"ının rəhbər şəxsləri və nümayəndələri iştirak ediblər.

Tədbir zamanı qeyd edilib ki, ötən ilin noyabr ayında Pekində imzalanmış müqaviləyə əsasən, "Sinosteel" şirkəti tərəfindən hazırlanmış bank təyinatlı TİƏ sənədi layihənin texniki və iqtisadi baxımdan səmərəli olduğunu təsdiqləyib. Sənədə əsasən, zavodun ümumi kapital xərcləri təqribən 800 milyon ABŞ dolları həcmində qiymətləndirilir.

2029-cu ilin sonunda istismara verilməsi planlaşdırılan zavodun ölkənin ümumi daxili məhsuluna (ÜDM) təqribən 1 milyard ABŞ dolları həcmində töhfə verəcəyi, həmçinin birbaşa və dolayı olaraq təxminən 1600 yeni iş yerinin yaradılacağı gözlənilir. Zavodun Qərb Sənaye Parkının Şəmkir rayonuna aid hissəsində inşası nəzərdə tutulub. Layihə dövlət tərəfindən təqdim olunan vergi, gömrük, logistika üzrə güzəştlər, eləcə də güzəştli qaz tarifləri kimi təşviq mexanizmlərindən faydalanacaq.

Müəssisədə ənənəvi istehsal üsulları ilə müqayisədə daha az enerji sərfiyyatı və əhəmiyyətli dərəcədə aşağı karbon emissiyası ilə seçilən və ən sərfəli kommersiya təklifi ilə fərqlənən İtaliyanın "Tenova" şirkətinin ENERGIRON® Zero-Reformer (ZR) texnologiyası tətbiq olunacaq.

Bank təyinatlı TİƏ sənədinin hazırlanması layihənin növbəti inkişaf mərhələsinə keçid imkanını yaradıb. Belə ki, tədbir çərçivəsində "AzMC" ilə "Sinosteel" şirkətləri arasında İlkin Mühəndislik (Basic Engineering) müqaviləsi imzalanıb və bununla layihənin növbəti icra mərhələsinə keçidi rəsmiləşdirilib. Müqavilə "AzMC"-nin baş direktoru Ceyhun Əliyev və "Sinosteel" şirkətinin baş direktoru Hua Guanglin tərəfindən imzalanıb. Növbəti mərhələdə mühəndislik, satınalma və tikinti (EPC) işlərinin həyata keçirilməsi nəzərdə tutulur.

Layihə üzrə tələb olunan investisiyaların əhəmiyyətli hissəsinin beynəlxalq kredit resursları hesabına maliyyələşdirilməsi nəzərdə tutulur ki, bu da səhmlərinin 50 faizi Azərbaycan tərəfinə məxsus olan "AzMC"-nin kapital xərclərinin optimallaşdırılmasına, birbaşa maliyyə yükünün minimuma endirilməsinə xidmət edir. Bu məqsədlə Çinin "Sinosure", İtaliyanın "SACE" İxrac Kredit Agentlikləri layihə üzrə maliyyələşməni dəstəkləyən sığorta və zəmanət təminatçıları, "ING Bank" isə prosesin qlobal koordinatoru təyin edilib. Dünyanın ən böyük beynəlxalq maliyyə qruplarından birinə daxil olan "ING Bank" "AzMC" ilə birlikdə ixrac kredit agentlikləri vasitəsilə maliyyələşmənin koordinasiyasını həyata keçirəcək. Bu razılaşma tədbir çərçivəsində "AzMC"nin baş direktoru Ceyhun Əliyev və "ING Bank"ın metallurgiya, dağ-mədən və kimya sənayesi üzrə istiqamət rəhbəri, polad sektorunun qlobal rəhbəri Erik van Doezum arasında imzalanmış müvafiq sazişlə rəsmiləşdirilib.

Xatırladaq ki, Daşkəsən rayonunda yerləşən eyniadlı yataqda mövcud dəmir filizlərinin daha yüksək əlavə dəyərə malik məhsullara çevrilməsi məqsədilə beynəlxalq məsləhətçi şirkətlərin iştirakı ilə aparılan təhlillər nəticəsində iqtisadi və texnoloji baxımdan ən səmərəli həll kimi dəmir filizindən metallurji xammalın istehsalına qədər üç komponentli istehsal zənciri müəyyən edilib. Bu zəncir 67 faizdən yüksək dəmir tərkibli konsentrat, pellet və İBD istehsalını əhatə edir. Daşkəsən rayonunda tikintisi planlaşdırılan zənginləşdirmə zavodunda istehsal ediləcək yüksək tərkibli dəmir konsentratının Şəmkir rayonunun inzibati ərazisində inşa ediləcək pellet zavoduna daşınmasını təmin etmək məqsədilə ölkəmizdə ilk dəfə tətbiq edilməsi planlaşdırılan şlam boru kəməri inşa olunacaq.

Layihənin filiz hasilatı, zənginləşdirmə zavodu, şlam boru kəməri və pellet istehsalını əhatə edən komponentlərinin "Daşkəsən Dəmir Filiz" MMC tərəfindən qurulması nəzərdə tutulur. Hazırda bu istiqamətdə xarici məsləhətçinin cəlb edilməsi ilə bank təyinatlı TİƏ sənədinin hazırlanması üzrə işlər davam edir.

İBD zavodu istehsal zəncirinin miqyas etibarilə ən böyük, eyni zamanda ən çox investisiya və icra müddəti tələb edən komponentidir. Bu səbəbdən strateji prioritet kimi həmin mərhələnin icrasına indidən başlanılıb.

İstehsal zəncirinin formalaşdırılması tikinti və infrastruktur sahələrinin inkişafına töhfə verərək, iqtisadi artımın və sənaye potensialının gücləndirilməsində mühüm rol oynayan yüksəkkeyfiyyətli dəmirin istehsalına imkan yaradacaq. Polad istehsalı üzrə xammalın idxalından asılılığın tam aradan qaldırılması ilə yanaşı, layihə ölkənin ixrac potensialının artırılmasına da əhəmiyyətli töhfə verəcək. Layihənin bütün mərhələlərinin kompleks şəkildə həyata keçirilməsi nəticəsində ölkənin ÜDM-nə təxminən 19 milyard ABŞ dolları həcmində töhfə veriləcək, eyni zamanda birbaşa və dolayı təsirlər hesabına regionlarda təxminən 4 000 yeni iş yerinin yaradılması təmin olunacaq.

# Bilmək istəyirəm

*Ata yurdumuz olan evi bir neçə ildir ki, bibim satıb. Satış zamanı bizdən heç bir razılıq ərizəsi alınmayıb. Evin yerləşdiyi torpaq sahəsi isə babamın adınadır və həmin torpağa aid sənəd məndədir. Ev hazırda yeni sahibinin adına keçirilib. Bu halda mən həmin torpaq sahəsinə çıxarış ala bilərəmmi?*

***Şəbnəm Abbasova,***
***Sumqayıt sakini***

Sualınıza cavab olaraq bildiririk ki, təsvir etdiyiniz vəziyyət kifayət qədər qəliz, lakin təcrübədə tez-tez rast gəlinən hallardan biridir. Burada əsas məsələ iki fərqli obyektə (daşınmaz əmlaka) məxsus hüquqi vəziyyətin mövcudluğudur.

Mövcud vəziyyətlə bağlı hər iki obyekt (ev və torpaq sahəsi) mütləq şəkildə mülkiyyət hüququ dövlət qeydiyyatına alınmalı olan əmlaklardır. Burada mülkiyyət hüququ xüsusi əhəmiyyət daşıdığından sözügedən əmlaklar üzərində mülkiyyət hüququ subyekti də xüsusi əhəmiyyətə malikdir. Qeyd etdiyiniz vəziyyətdə torpaq sahəsinin mülkiyyətçisi babanızdır və onun rəsmi razılığı olmadığı halda sözügedən torpaq sahəsinin satılması mümkün deyil. Babanızın sağ olmaması halında belə bu yaxın və uzaq qohumlarınıza sözügedən torpaq sahəsini satmaq hüququ vermir. Bunun üçün babanızın mülkiyyətində olan torpaq sahəsi ilə bağlı mütləq şəkildə babanızın vərəsəsi (vərəsələri) müəyyən olunmalıdır. Bundan sonra vərəsə (vərəsələr) torpaq sahəsini lazımi qaydada adına rəsmiləşdirdikdən sonra onun satışını həyata keçirə bilər (torpaq sahəsinin bir neçə mülkiyyətçisi olduğu halda onların birgə razılığı ilə).

Torpaq sahəsinə sizin yeni çıxarış almağınız üçün yuxarıda qeyd olunan qanun və vəsiyyət üzrə vərəsəlik məsələsinin həll edilməsi zəruridir. Çünki torpaq sahəsinə yeni çıxarışın verilməsi torpaq sahəsinə yeni mülkiyyətçinin rəsmiləşdirilməsindən sonra gözlənilən bir prosesdir. Buna görə də sizin ilk istiqamətiniz torpaq sahəsi ilə bağlı babanızın vərəsəsi olmağınızla bağlı zəruri hüquqi prosesləri başlatmağınızdır.

Babanızın mülkiyyətində olan torpaq sahəsində mövcud olan evə gəlincə, ilk öncə evin mülkiyyətçisi müəyyən olunmalıdır. Təcrübədə belə vəziyyətlərdə evin yerləşdiyi torpaq sahəsinin mülkiyyət hüququnu təsdiq edən sənədin olmasına baxmayaraq, evin mülkiyyət hüququnu təsdiq edən sənədin olmaması faktları mövcuddur.

Evin mülkiyyət hüququnun bibinizin adına olmaması halında bibinizin sözügedən evi satması yalnız evin mülkiyyətçisinin razılığı əsasında mümkündür. Əgər mülkiyyətçi tərəfindən belə bir razılıq mövcud deyilsə, o zaman bu alqı-satqı mülki qanunvericiliyə əsasən, etibarsızlıq baxımdan mübahisələndirilə bilər.

Evin satışı ilə bağlı sizdən razılığın alınmaması, eləcə də alqı-satqının rəsmi qaydada aparılması ilə bağlı mövcud iş materiallarının (alqı-satqı müqaviləsinin bağlanmasına əsas olan sənədləri və s.) nəzərdən keçirmədən və sizin həmin əmlakla bağlı hüquqi vəziyyətinizi öyrənmədən fikir bildirilməsi əsaslı deyildir.

**Sualları cavablandırdı:**
**Paşa SƏFƏROV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN" *qəzetinə abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# İdman

# Minifutbol üzrə Azərbaycan millisi ikiqat Avropa çempionudur

## Sağ əlləri "böyük futbolçu"larımızın başına

**Azərbaycan minifutbol millisi Slovakiyada başa çatmış Avropa çempionatının qalibi olub. Paytaxt Bratislavadakı "Tipos Arena" meydançasında keçirilmiş final görüşündə Ukrayna millisini 2:0 hesabı ilə məğlub edən komandamız ikinci dəfə Avropa çempionu adına layiq görülüb. Qolları Mirmehdi Rzayev və İsa Atayev vurublar.**




Elşad Quliyevin başçılıq etdiyi komanda qitə çempionluğu uğrunda final görüşünədək Avstriyanı (1-0), İtaliyanı (3-0), Fransanı (3-2), Qazaxıstanı (3-2), Çexiyanı (5-2) və Serbiyanı (1-1, penaltilərdə 3-1) məğlub etmişdi.

Xatırladaq ki, futbolçularımız 2022-ci ildə də qitənin ən güclüsü olub. Ötən il isə Bakıda keçirilmiş mundialda dünya çempionu adını qazanıb.

Dünən Prezident İlham Əliyev minifutbol üzrə Avropa çempionatının qalibi olan Azərbaycan milli komandasını təbrik edib. Bununla bağlı dövlətimizin başçısı sosial şəbəkə hesablarında paylaşım edib: "2022-ci ildə Avropa çempionu, 2025-ci ildə dünya çempionu olmuş Azərbaycan minifutbol millisi ölkəmizin idman tarixinə daha bir parlaq səhifə yazaraq növbəti dəfə Avropa çempionu oldu. Bu qələbənin komanda idman növündə qazanılması ikiqat sevindiricidir. Komandamızı bu möhtəşəm qələbə münasibətilə səmimi-qəlbdən təbrik edir, millimizə yeni-yeni uğurlar arzulayıram".

Azərbaycan milli futzal komandasının baş məşqçisi Elşad Quliyev mediaya açıqlamasında AVRO-2026 finalında Ukrayna üzərində 2:0 hesablı qələbəni şərh edib: "Bu, fantastik turnir idi. Azərbaycan xalqını bu qələbə münasibətilə təbrik edirəm. Çoxlu güclü rəqiblərimiz və çətin qrafikimiz var idi. Yorğunluğa baxmayaraq, komanda finalda yaxşı oyun keçirdi. Güclü rəqiblə qarşılaşdıq. Ukrayna komandasının heyətində güclü oyunçular vardı. Buna baxmayaraq, ilk dəqiqədən son dəqiqəyə qədər diqqətimizi cəmlədik və intizamlı olduq. Bu turnir AVRO-2022-dəki ilk qələbəmizdən daha çətin idi. Bu isə indiki uğurumuzu daha da dəyərli edir".









Qeyd edək ki, final matçının ən yaxşı futbolçusu millimizin üzvü Mirmehdi Rzayev seçilib. Eşqin Tağıyev isə Avropa çempionatının ən yaxşı futbolçusu adına layiq görülüb.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# *Veteran qapıçı:* "Minifutbol millisindəki uğurların əsas açarı baş məşqçidir"

**"Hər zaman milli komandanın yanında olan dövlətimizə, Azərbaycan Minifutbol Federasiyasına və azarkeşlərimizə təşəkkür edirəm".**

Bu sözləri AZƏRTAC-a açıqlamasında Azərbaycan minifutbol yığmasının sabiq qapıçısı Davud Kərimi Slovakiyanın paytaxtı Bratislavada keçirilən Avropa çempionatında qızıl medal qazanan milli komanda barədə danışarkən deyib.

O, baş məşqçi Elşad Quliyevi uğurların əsas açarı hesab etdiyini bildirib: "Ona "sağ ol" deyirəm. Həqiqətən də son illər minifutbol yığmasında qurduğu heyətlə dünyada adından söz etdirir. Oyunçular da onun inamını boşa çıxarmırlar. Bunun nəticəsi olaraq, iki dəfə Avropa və 1 dəfə dünya çempionu olmuşuq. Komandadan bu uğuru gözləyirdim. Çünki son illərdəki nəticələr yığmaya etibarı artırıb".

Veteran qolkiper 2022-ci ildə Slovakiyanın Koşitse şəhərində keçirilən Avropa çempionatında qazandıqları birinciliyi də xatırlayıb: "Yadımdadır, həmin turnirdə qarşımıza qrupdan çıxmağı hədəf olaraq qoymuşduq. Amma oyundan-oyuna inkişaf edərək kuboku qazandıq. O turnirə yollananda rəqiblər haqqında kifayət qədər məlumata sahib deyildik. Lakin indi hər şey dəyişib. Artıq milli komanda bütün yarışlara favorit kimi qatılır. Bu da yığmanın illər ərzində inkişaf etdiyini göstərir".

D.Kərimi minifutbolun son illərdə populyarlaşdığını vurğulayıb: "Artıq İspaniya, Portuqaliya və İngiltərə kimi ölkələr də minifutbola yatırım edir. Hazırda bu idman növü inkişafdadır".

Qeyd edək ki, Azərbaycan millisi finalda Ukraynaya 2:0 hesabı ilə qalib gələrək Avropa çempionu olub.

# Bölgə klubu bütün legionerlərlə vidalaşır, yerlilərlə danışıqlar olacaq

**"Karvan-Yevlax" bütün legionerləri ilə vidalaşacaq. Bu barədə AZƏRTAC-a klubun icraçı direktoru Elvin Əjdərli deyib.**

"Bildiyiniz kimi, Kayl Spens, Pedro Mateuş və Qavi Tompson rəsmi olaraq komanda ilə vidalaşıblar. Həmçinin Coy-Slayd Mikels, Şaqil Sno, Peter Kinqs, Olavale Doyeni və icarədə olan İmani Barker də növbəti mövsüm bizimlə olmayacaq. Yerli oyunçularla da müqavilənin müddəti başa çatıb. Lakin onlarla yenidən danışıq masasına oturacağıq", - deyə Elvin Əjdərli vurğulayıb.

Baş məşqçi məsələsinə toxunan klub rəsmisi rəhbərlik səviyyəsində müzakirələr apardıqlarını söyləyib.

Qeyd edək ki, "Karvan-Yevlax" ötən gün Kayl Spens və Pedro Mateuşla vidalaşıb.

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru professor Gülçöhrə Məmmədova və professor-müəllim heyəti universitetin İqtisadi nəzəriyyə və marketinq kafedrasının müdiri professor

**ASƏF AĞAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3793
Sifariş 694

Qiyməti 60 qəpik